Xalqın qəzeti!

# Xalq qəzeti

№ 20 (30424) 31 yanvar 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Orta Dəhlizin inkişafına 10 milyard avro investisiya qoyulacaq

*Bu barədə Qlobal Tranzit İnvestorlar Forumunda qərar qəbul edilib*



**Brüsseldə keçirilən Avropa İttifaqı–Mərkəzi Asiya arasında nəqliyyat əlaqələrinə dair Qlobal Tranzit İnvestorlar Forumunda Avropa və Mərkəzi Asiyanı birləşdirən multimodal Orta Dəhlizin (Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) inkişafına 10 milyard avroluq investisiya qoyulması qərara alınıb. Toplantıda bir sıra mühüm öhdəliklər də qəbul edilib. Belə ki, Avropa İnvestisiya Bankı (EIB) Qazaxıstan, Qırğızıstan və Özbəkistanla ayrı-ayrılıqda, ümumilikdə, 1,47 milyard avro dəyərində, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) isə Qazaxıstanla ümumi dəyəri 1,5 milyard avro olan Anlaşma Memorandumu imzalayıb.**

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda Çin–Qazaxıstan sərhədindən başlayan və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanan marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipinin tətbiqinə başlanılıb.

*(ardı 7-ci səhifədə)*

## AŞPA-nın Azərbaycana və Türkiyəyə qarşı səlib yürüşü

**AŞPA-nın Azərbaycan və Türkiyəyə qarşı qərəzli mövqeyi Türkiyədə də ciddi qınaqlar doğurmaqdadır. Ölkənin demək olar ki, hər yerindən – Ankaradan, İstanbuldan, İzmirdən, Manisadan, Adanadan gələn müraciətlərdə təkcə kəskin mövqe yox, həm də qərəzli münasibətlərdən danışılır.**




Eləcə də Türkiyədə yaşayan çoxsaylı azərbaycanlılar da bu məsələdə hiddət və narazılıqlarını bildirirlər. Həm Türkiyə, həm də Azərbaycanın ziyalı mühitinin yaxşı tanıdığı, Türkiyənin Bilkənt Universitetinin professoru, Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) Qəyumlar Şurasının və İdarə Heyətinin üzvü Əmirulla Məmmədov bu barədə danışır:

*(ardı 4-cü səhifədə)*

## Ermənistan Alma-Ata Bəyannaməsini tanımayıbsa...

**Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın qurucusu və lideri olduğu Erməni Milli Konqresinin sədr müavini, həmin illərdə prezidentin mətbuat katibi və köməkçisi işləmiş Levon Zurabyan ölkədə bir o qədər də tanınan fiqur deyil. Amma bu adamın bildirdiklərinin həqiqət olduğuna şübhə yeri yoxdur. Ona görə ki, dediklərinə münasibətdə kimsədən, xüsusən də baş nazir Nikol Paşinyanın komandasının təmsilçilərindən tutarlı əks mövqe yoxdur. Zurabyanın hansı məqamları qabartdığını vurğulayacağıq. Hələlik isə...**



Bəli, baş nazir Nikol Paşinyan son vaxtlar Azərbaycanla sülh gündəliyi baxımından tez-tez Alma-Ata Bəyannaməsindən söz açır. O bəyannamədən ki, 1991-ci il dekabrın 21-də imzalanmışdı və keçmiş müttəfiq respublikaların bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdıqlarını rəhbər tuturdu. Nikolun qənaəti budur ki, sənəddə Ermənistanın ərazisi 29,8 min kvadratkilometr, Azərbaycanın ərazisi isə 86,6 min kvadratkilometr göstərilib. Erməni baş nazir bildirir ki, məhz bu əsasda hər iki dövlət bir-birinin suverenliyinə hörmətlə yanaşmalı və sərhədlər də mövcud xüsusda müəyyənləşdirilməlidir. Əlbəttə, o, ölkəsinin otuz ilə yaxın müddətdə öz sərhədini işğal etdiyi Ağdamdan hesabladığını və faktiki olaraq Alma-Ata Bəyannaməsinə zidd davrandığını "yaddan çıxarır". Digər tərəfdən, nəzərə alaq ki, Alma-Ata Bəyannaməsi ümumi xarakterlidir, orada ərazinin miqyas konkretliyi barədə heç nə yoxdur. Bəs rəsmi İrəvan niyə məhz indi bu sənədə istinadı əsas götürür?

*(ardı 3-cü səhifədə)*

## Bülletenlər dairə seçki komissiyalarına çatdırılır



Səhifə ⇨ 6

## II Qareginin və Kostanyanın Qarabağdakı "erməni mirası"



**Qarabağda erməni mədəni irsinin qorunub saxlanılması. Belə bir cəfəng məsələni Ermənistan hakimiyyəti həmişə gündəmə gətirməkdədir. Dünən də bununla bağlı iki informasiya yayılmışdı. İnformasiyalardan biri Ermənistanın xarici işlər nazirinin müavini Vahan Kostanyanın açıqlamasıdır. Digəri məlumat isə Ermənistanın ali patriarxı adlandırılan katolikos II Qareginin Böyük Britaniyaya səfəri xüsusundadır.**

Ölkənin həm dini, həm də rəsmi şəxsinin eyni anda eyni məsələdən söz açması, ilk baxışdan, qəribə görünsə də, əslində, təəccüblənməli heç nə yoxdur. Çünki Ermənistanda dövlət və din iç-içədir. Daha doğrusu, ikinci birincinin başına torba keçirib istədiyi səmtə sürükləməkdədir. Tarix boyu da belə olub, indi də vəziyyət dəyişməyib.

*(ardı 3-cü səhifədə)*

## Ermənistanda rusofobiya tüğyan edir

*İrəvanda Leninqrad blokadası uşaqlarının xatirə abidəsinin təhqir olunması Rusiyada etiraz doğurub*



**İkinci Dünya müharibəsi illərində nasist Almaniyası ilə fəal əməkdaşlıq edən Qaregin Njdeyə 2016-cı ilin mayında İrəvanda hündürlüyü 5,7 metr olan bürünc abidə ucaldan, onun banisi olduğu seqakronizm ideyasını yaxşı mənimsəyən haylar vaxtaşırı "dahi rəhbər"in ruhunu şad edəcək addımlar atırlar.**

Belə addımlardan biri yanvarın 29-da Samvel Şirinyan adlı İrəvan sakini tərəfindən atılıb. O, qarlı havada şəhərin Arabkir inzibati rayonunda yerləşən Vaaqn Davtyan adına parka gedərək burada yerləşən İkinci Dünya müharibəsi illərində Leninqradın (Sankt-Peterburq) 1941-ci il sentyabrın 8-dən 1944-cü il yanvarın 27-dək çəkən blokadasında həlak olan və 872 günlük mühasirədən salamat çıxan uşaqların xatirəsinə ucaldılmış abidəni təhqir edib.

*(ardı 4-cü səhifədə)*

## Avropada neofaşizm: prosesi kim dayandıracaq?



Səhifə ⇨ 5

## Demokratlar da Trampın qələbəsinə inanmağa başlayıblar

*"The American Conservative": Amerikalıların 73 faizi Baydenin siyasətindən narazıdır*

**ABŞ-da prezident seçkilərinə 8 aydan artıq vaxt qalmasına baxmayaraq, ölkədə demokratların namizədi və hazırda prezident kürsüsündə olan Co Baydenlə respublikaçıların namizədi, eks-prezident Donald Tramp arasında mübarizə gündən-günə kəskinləşməkdədir. Ağ Evin hazırkı sahibinin xarici siyasət sahəsində atdığı bir neçə uğursuz addım və fiziki durumu demokratların namizədinin nüfuzuna, eyni zamanda, yenidən prezident seçilmək şanslarına çox ciddi təsir göstərir.**



Bu, ilk növbədə, ABŞ-ın dünya siyasətində tədricən əvvəlki mövqelərini itirməsində, Vaşinqtonun uğursuz Yaxın Şərq siyasətində və son günlər Texas ştatında baş verən hadisələrdə Prezident Baydenin qətiyyətsizliyində özünü aydın büruzə verir.

ABŞ-da gündəmdə olan prezident seçkilərinə də məhz bu hadisələrin fonunda qiymət verilir və təhlillər aparılır.

*(ardı 11-ci səhifədə)*

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Bakı Ağır Cinayətlər Məhkəməsi**
Kərimova Mahirə Nəzər qızı
Məmmədov Fəxri Afiq oğlu
**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**
Əliyev Əli Abdulla oğlu
Səfərli Cavid Şamil oğlu
**Sumqayıt Ağır Cinayətlər Məhkəməsi**
Əliyev Hafiz Samir oğlu
Hümbətov Fəhmin Zaur oğlu

**inzibati məhkəmələr üzrə:**

**Bakı İnzibati Məhkəməsi**
Ağalarov Həmid Azər oğlu
Əhədova Aygün Əlqəmə qızı
Həsənov Orxan Xaqani oğlu
Salahova Səlma İsgəndər qızı
Sevdimalıyeva Günel Arif qızı
**Sumqayıt İnzibati Məhkəməsi**
Mirzəyeva Leyla Eytibar qızı
**Şəki İnzibati Məhkəməsi**
İsmayılzadə Fərid Sabir oğlu
Musayev Vüqar Ələkbər oğlu

**kommersiya məhkəmələri üzrə:**

**Bakı Kommersiya Məhkəməsi**
Həsənova Ülkər Təhmasib qızı
Hüseynov Kənan Hüseyn oğlu
**Şirvan Kommersiya Məhkəməsi**
Abdullayev Elşən Uğur oğlu

**hərbi məhkəmələr üzrə:**

**Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi**
Orucəliyev Abil Elmar oğlu

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

**Babək Rayon Məhkəməsi**
İsmayıl Günay Mikayıl qızı
**Naxçıvan Şəhər Məhkəməsi**
Əliyeva Gülsüm Kamal qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
Qurbanova Aygün Arzu qızı
**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Axundov Fuad Aydın oğlu
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Abidova Günay Çingiz qızı
İbadzadə Anar Qənimət oğlu
**Bakı şəhəri Nizami Rayon Məhkəməsi**
Əliyeva Qumru Yəhya qızı
Yusifova Ülkər Bayram qızı
**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
Cəfərli Nilufər Arif qızı
Mahmudova Həqiqət Sahib qızı
**Bakı şəhəri Səbail Rayon Məhkəməsi**
Səmədova Günel Kamil qızı
**Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi**
Qafarova Rübabə Nurulla qızı
**Bakı şəhəri Yasamal Rayon Məhkəməsi**
Babazadə Gülnar Vidadi qızı
Xudayev Kərim Bahəddin oğlu

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Abşeron Rayon Məhkəməsi**
Abbasova Məlahət Aslan qızı
**Ağdaş Rayon Məhkəməsi**
Sultanov Cavid Rizvan oğlu
**Ağsu Rayon Məhkəməsi**
Əsgərov Anar Əlifağa oğlu
**Xaçmaz Rayon Məhkəməsi**
Səmədzadə Sərxan Akif oğlu
**İsmayıllı Rayon Məhkəməsi**
Hüseynov İlqar Vidayət oğlu
**Quba Rayon Məhkəməsi**
Seyidov Vüqar Mircuma oğlu
**Masallı Rayon Məhkəməsi**
Quliyev Ceyhun Əmir oğlu
**Saatlı Rayon Məhkəməsi**
Sadıqov Mirlətif Süleyman oğlu
**Sumqayıt Şəhər Məhkəməsi**
Hüseynov Elmir Xoşbəxt oğlu
**Şamaxı Rayon Məhkəməsi**
İsmayılov Natiq Əvəz oğlu
**Şəmkir Rayon Məhkəməsi**
Musayev Taleh Valeh oğlu.

**2.** Bu Sərəncam 2024-cü il fevralın 3-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 yanvar 2024-cü il**

# Əli Əsədovun Rusiya naziri ilə görüşü



**Yanvarın 30-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının mülki müdafiə məsələləri, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması naziri Aleksandr Kurenkovla görüşüb.**

Görüşdə Azərbaycan-Rusiya strateji tərəfdaşlığının yüksək səviyyəsi qeyd olunub. İki ölkənin bütün istiqamətlərdə, o cümlədən, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlığının fəal inkişafı vurğulanıb.

Tərəflər Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Rusiya Federasiyasının Mülki Müdafiə Məsələləri, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması Nazirliyi arasında 2024–2026-cı illər üçün Birgə Tədbirlər Planının imzalanmasının vacibliyini bildiriblər.

Görüş zamanı fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində Azərbaycan-Rusiya əməkdaşlığının genişləndirilməsinin perspektivləri müzakirə olunub.

**XQ**

# Samir Nuriyev Dənizkənarı Bulvar İdarəsinin İdarə Heyətinin yeni sədrini kollektivə təqdim edib



**Yanvarın 30-da Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Dənizkənarı Bulvar İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə yeni təyin edilmiş Xanlar Ağalarovu kollektivə təqdim edib.**

Samir Nuriyev təqdimat mərasimində çıxış edərək Bakı şəhərinin unikal memarlıq xüsusiyyətlərinin bir hissəsi olan Dənizkənarı Milli Parkın paytaxtımızın tarixini və müasir simasını əks etdirən möhtəşəm kompleks, sakinlərimizin və qonaqlarımızın ən çox üz tutduqları gəzinti və istirahət yerlərindən biri olduğunu bildirib.

Prezident Administrasiyasının rəhbəri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daim Dənizkənarı Milli Parkın inkişafı məsələlərini diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısının bilavasitə nəzarəti altında həyata keçirilmiş genişmiqyaslı quruculuq işləri nəticəsində dünya miqyaslı mədəniyyət incisinə çevrilmiş Bakı bulvarının ərazisi 215 hektara, uzunluğu isə 16,7 kilometrə çatdırılıb.

Qeyd edilib ki, Prezident İlham Əliyevin 2008-ci il yanvarın 10-da imzaladığı fərmanla yaradılmış Dənizkənarı Bulvar İdarəsi Bakı şəhərində yerləşən Milli Parkın mühafizəsini həyata keçirən, onun ərazisinə nəzarət edən və idarə olunması, saxlanılması, cari fəaliyyətinin və perspektiv inkişafının təmin edilməsi sahəsində fəaliyyət göstərən qurumdur. Bu vəzifələrin səmərəli şəkildə icrası üçün daha əzmlə, məsuliyyətlə çalışmağın vacib olduğunu diqqətə çatdıran Samir Nuriyev kollektivin öz səylərini əsirgəməyəcəyinə inandığını bildirib, bu işdə yeni təyin olunmuş sədrə və idarənin əməkdaşlarına uğurlar arzulayıb.

**XQ**

# Baş prokurorun Xəzər rayonunda vətəndaş qəbulu




**Dünən Baş prokuror Kamran Əliyev Xəzər rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Xəzər, Pirallahı rayonları və Respublikanın digər bölgələrindən olan vətəndaşları qəbul edib.**

Dinlənilən 34 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələrə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb. Baş prokuror Kamran Əliyev Pirallahı rayon prokurorluğunun tikilməkdə olan yeni inzibati binasında inşaat işləri ilə tanış olub.

**XQ**

# Yeni səfirimiz ÇXR-də işə başlayıb




**Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycanın Çinə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib. Bu barədə "Xinhua" məlumat yayıb.**

Si Cinpin bu gün bir neçə ölkənin səfirinin, o cümlədən, Azərbaycanın Çin Xalq Respublikasındakı səfiri Bünyad Hüseynovun etimadnaməsini qəbul edib.

**XQ**

# 72 laçınlı da doğma yurda qovuşdu

**Dünən paytaxtın Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Laçın şəhərinə çatıb. Yeni köçürülən ailələrə mənzillərinin açarları təqdim edilib.**

Mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin rəsmiləri iştirak ediblər. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə – 72 nəfər köçürülüb.



Bununla da Laçın şəhərində 431 ailənin, yəni 1627 nəfərin daimi məskunlaşması təmin edilib.

**XQ**

# Sərhəd Komissiyasının iclası keçiriləcək

**Bu gün Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın növbəti iclasının keçiriləcək. Bu barədə Ermənistan KİV-ləri məlumat yayıb.**

Qeyd edək ki, komissiyaya Azərbaycan tərəfdən Baş nazirinin müavini Şahin Mustafayev, Ermənistan tərəfdən isə baş nazirinin müavini M.Qriqoryan sədrlik edir. Komissiyanın beşinci iclası ötən il noyabrın 30-da Azərbaycan–Ermənistan sərhədində keçirilib.

**XQ**

# Ermənistan Alma-Ata Bəyannaməsini tanımayıbsa...

## *Zurabyan Paşinyanı yıxıb sürüdü*

*(əvvəli 1-ci səhifədə)*

Səbəb çox sadədir. Paşinyanlı Ermənistan Alma-Ata Bəyannaməsini siyasi spekulyasiya predmetinə çevirib. Qeyd etdiyimiz kimi, sənəd 1991-ci il dekabrın 21-də imzalanıb. Həmin il dekabrın 12-də isə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində ancaq bölgənin erməni əhalisinin qatıldığı, azərbaycanlıların boykot etdikləri saxta referendum keçirilib. "Referendum" vilayətin müstəqilliyi "qərarını" çıxarıb. Ancaq bunadək 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qanunu ilə Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazi vahidi ləğv olunmuşdu. Həmin qanuna əsasən, "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekreti və "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanunu qüvvədən düşmüş sayılmışdı. Deməli, dekabrın 12-dəki "referendum" mərkəzi hakimiyyətə qarşı, bir növ, üsyan mahiyyəti daşımışdı.

Yeri gəlmişkən, ermənilərin ötən əsrin 80-cı illərinin sonlarından başlamış Qarabağ avantüraları xüsusunda mərkəzdənqaçma meyili bir dəfə də yaşanıb. Məsələn, 1988-ci il fevralın 20-də o zamankı DQMV Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali sovetləri qarşısında vəsatət qaldırmaq barədə" qərar çıxarmışdı. 1989-cu ilin noyabr ayında SSRİ Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin muxtariyyətliyinin ləğv edilib birbaşa Azərbaycan Sovet Sosialist Respublikasına qatılmasına dair qərar vermişdi. Lakin 1989-cu ilin dekabrın 1-də Ermənistan SSR Ali Soveti və Qarabağ Milli Şurasının birgə iclası həmin qərarı əsassız hesab edərək, Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanla birləşməsini açıqlamışdı.

Göründüyü kimi, Qarabağ məsələsi Ermənistanın Azərbaycana qarşı ərazi iddiası xüsusunda olub. "referendum" və digər bu kimi gedişlər isə "anşlüsün" (birləşmənin) gerçəkləşməməsi üçün ortaya atılmışdı. Yəni, Dağlıq Qarabağ əvvəl özü müstəqil olmalı, sonra Ermənistana birləşməli imiş. Ermənisayağı "qanunauyğunluğun" belə qorunması nəzərdə tutulubmuş.

Əlbəttə, Azərbaycan məsələni sırf Alma-Ata Bəyannaməsindəki kimi qoymayıb. Bununla bağlı açıqlamanı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel özünün, Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan baş nazirinin birgə görüşündən sonra verib. Məsələ ötən ilin mayından sonra daha çox gündəmə gəlməyə başlayıb. Nəzərə alaq ki, o zaman Qarabağda erməni silahlıları qalırdı, üstəlik, qondarma rejim saxlanılırdı. Belə düşünülə bilər ki, Ermənistan iqtidarı rejimin saxlanıldığı bir dövrdə Azərbaycanın Alma-Ata Bəyannaməsinə sadiqliyinin rəsmiləşməsinə çalışıb. İstəyib ki, sonradan məsələni fərqli şəkildə interpretasiya etsin.




Bəli, 1991-ci ilin dekabrın 12-də keçirilmiş "referendum", əslində, Azərbaycan SSR Ali Sovetinin həmin il noyabrın 26-da çıxardığı qərara qarşı atılmış əks addım idi. İndi də Paşinyan öz aləmində Alma-Ata Bəyannaməsi ilə siyasi gediş edir. İlk baxışdan düşünülə bilər ki, Levon Ter-Petrosyanın mətbuat katibi və köməkçisi işləmiş Levon Zurabyan fikirləri ilə, faktiki olaraq, baş nazirin planlarını heçə endirmək yolu tutur. Hərçənd, ikinci özünü birincinin söylədiklərindən xəbərsiz kimi aparır. Hər halda, Paşinyanın Zurabyanın qaldırdığı məsələ barədə məlumatsızlığını düşünmək mümkünsüzdür. Onun Alma-Ata Bəyannaməsi xüsusundakı canfəşanlığı bunu söyləməyə əsas verir. Nəzərə alaq ki, Nikol sənədi ehkamlaşdırır və bir növ, müqəddəsləşdirir ki, onun rəsmi siyasi gündəlikdə özünə oturuşmuş yer tutmasına nail olsun. Əlbəttə, məqsədinə çata bilmir. Niyə çata bilmir, bu barədə qeydləri yazının sonunda diqqətə çatdıracağıq. Bəs, Zurabyanın söylədiyi nədir?

Zurabyan bildirir ki, Paşinyanın Azərbaycanla sülh gündəliyi baxımından Alma-Ata Bəyannaməsi haqqında danışması düzgün deyil. Çünki, Ermənistan parlamenti həmin sənədi müəyyən şərtlərlə ratifikasiya edib. Həmin şərtlərə görə, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımayıb. Buna qarşılıq Nikol bildirib ki, "mənim bildiyimə görə, Alma-Atada iclas keçiriləndə erməni tərəfi heç bir şərt irəli sürməyib. Əgər belə şərt varsa, qoy, müxalifət həmin şərti təqdim etsin". Bəlkə də Paşinyan haqlıdır. O anlamda ki, erməni tərəfinin Alma-Ata Bəyannaməsi imzalananda hansısa şərt irəli sürməməsi mümkündür.

Ancaq reallıq bundadır ki, Ermənistan SSR Ali Soveti sənədə düzəliş edib. Həmin düzəlişə əsasən MDB-yə yalnız keçmiş sovet respublikalarının deyil, həmçinin, hələ SSRİ-nin süqutundan öncə müstəqillik haqqında referendum keçirmiş muxtar qurumların da qoşulmalarına imkan verilməli idi.

L.Zurabyan bildirib ki, Ermənistan 1992-ci ildə Alma-Ata Bəyannaməsini ratifikasiya etdi. Onun sözlərinə görə, sənəddə çox aydın şəkildə bir istinad var idi ki, "Dağlıq qarabağ respublikası" müstəqil respublika qismində MDB-yə qoşula bilər. Göründüyü kimi, məsələ, kifayət qədər, ciddi sayıla bilər. Yəni, Zurabyan durumu Ermənistanın Alma-Ata Bəyannaməsini qəbul etməməsi xüsusunda izah edir. Bəyannamənin imzalanmasından otuz ildən artıq bir müddətin keçdiyi hazırkı dövrdə isə Paşinyan həmin sənədə istinadla Qarabağ avantürası üçün, belə demək mümkünsə, tutacaq yer axtarır. Məsələn, o, deyə bilər ki, qanun geriyə işləmir, bəyannaməyə qədər nə olubsa, – olub.

Ən əsası isə lap tutaq ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır, Qarabağın Ermənistana dəxli yoxdur, bölgə özü bilər. Yəni, bu kimi oyun oynanılma ehtimalı var. Nəzərə alaq ki, Qarabağ da daxil olmaqla, Azərbaycanın 86,6 min kvadratkilometr ərazidə suverenliyini tanıdığını bildirən erməni baş nazir lokal xarakterli antiterror tədbirlərindən əvvəl "Qarabağın seçkili hakimiyyəti var" fikrini dilə gətirmişdi. Bu, şübhəsiz, aşkar manipulyasiya idi.

Sonda vəd etdiyimiz kimi, Ermənistanın Alma-Ata Bəyannaməsi xüsusundan məqsədinə çata bilməyəcəyi barədə söz açaq. Keçmiş SSRİ-yə daxil olan respublikaların bir-birinin ərazi bütövlüyünü tanımalarını əsas götürən sənədlə əlaqədar maraqlı nüans var: Bir halda ki, bəyannamə SSRİ-dən ayrılmanın suverenlik trayektoriyasını müəyyənləşdirir, o zaman nəyə görə Sovetlər Birliyinə qoşularkən mövcud olan ərazilər amili üzərində dayanılmasın? Nə üçün Azərbaycan SSRİ-yə böyük ərazi ilə daxil olmalı, ittifaqdan kiçik ərazi ilə ayrılmalıdır? Yaxud, əksinə, hansı səbəbdən Ermənistan ərazi uduşu qazanmalıdır?

Qeyd edək ki, mövcud istiqamətdə Prezident İlham Əliyevin də yanaşması özünə xas qətiyyətli məzmun daşıyır. Nəzərə alaq ki, rəsmi İrəvan Alma-Ata Bəyannaməsi əsasında sərhədlərin delimitasiya və demarkasiyasının da aparılması təklifini irəli sürməkdədir. Yazımızı dövlətimizin başçısının bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bildirdiyi fikirlə tamamlayaq: "Onlar (Ermənistan - red) 1970-ci ilin xəritələrini əsas götürmək istəyirlər. Mən sual verəndə ki, yaxşı, niyə 1970-ci illər? Deyin, mənə izah edin, bunun hansı metodoloji əsasları var, siyasi əsasları var? Yoxdur. Əgər biz siyasi əsaslarına istinad etsək, onda istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrünü, ya da sovetləşmə dövrünü götürməliyik. O olar siyasi metodologiya. Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəllərində xəritələr nə idi, gəlin bu xəritələr üzərində işimizi quraq. Yəni, siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini, əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun yəni, "Ermənistan plyus" qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik".

**Ə.RÜSTƏMOV**
**XQ**

# II Qareginin və Kostanyanın Qarabağdakı "erməni mirası"

*(əvvəli 1-ci səhifədə)*

Bəli, Ermənistanda kilsənin dövlət siyasətinin müəyyənləşməsində mühüm rol oynadığını sübuta yetirmək üçün çoxsaylı misallar var. Hesab edirik ki, Kostanyanın və II Qareginin Qarabağın erməni mirasından söz açmaları da bu gerçəyin təsdiqi baxımından vacibdir. Ancaq məsələyə sırf buna görə diqqət yetirmirik. Yəni, yayılmış iki informasiyaya həm də onların məzmunundakı məqamlar səbəbindən nəzər salacağıq.

Ancaq ilk növbədə, onu bildirək ki, deyəsən, baş nazir Nikol Paşinyan iqtidarının II Qareginlə artıq ölkənin kluarlarını aşdığı bildirilən mübarizəsindən əsər-əlamət qalmayıb. Bir vaxtlar Nikolun tərəfdarları sosial çəbəkələrdə katolikosun ictimai davranmış qaydalarına zidd hərəkətlərindən, tərbiyəsizliklərindən, əxlaqsızlıqlarından, cinsi orientasiya pozğunluğundan söz açırdılar. İndi belə bir ritorikaya son qoyulub. Görünür, erməni iqtidarı keçmişə qayıtmağa üstünlük verir, fəaliyyətini "ənənəvi" stereotiplərə uyğun şəkildə qurur.

Keçmişə qayıtmaqdan söz düşmüşkən, Ermənistan İnzibati Məhkəməsi bu günlərdə Paşinyan hakimiyyətə gələndən sonra ölkəyə girişinə məhdudiyyət qoyulmuş iki erməni üzərindəki qadağanı aradan qaldırıb. Bu isə o deməkdir ki, erməni iqtidarı köhnəliyin lobbi və diaspor qalığından da faydalanmaq yolu tutmaqdadır. Görünür, katolikosdan II Qareginin timsalında din adına rüsvayçılıqdan da həmçinin.

Əlqərəz, V.Kostanyan jurnalistlərə açıqlamasında bildirib ki, Qarabağda erməni mədəni irsinin qorunub saxlanılması həmişə Ermənistan Xarici İşlər Nazirliyinin gündəliyindədir. Bu, heç şübhəsiz, sıradan məsələ sayılmamalıdır. Ona görə ki, rəsmi İrəvan hazırda dövlət səviyyəsində sadiq qaldığı qəsbkarlıq siyasətinin motivini dəyişib. Belə demək mümkünsə, abidəbazlığa keçib. Ölkə rəsmiləri, az qala, bütün beynəlxalq platformalarda hay-şivən qaldıraraq bildirirlər ki, Azərbaycan, guya, Qarabağda və işğaldan azad olunmuş (onlar qəsb olunmuş kimi qiymətləndirirlər – red.) digər ərazilərdə erməni mirasına təcavüz yolu tutmaqdadır. Lokal xarakterli antiterror tədbirlərinə qədər Ermənistan hakimiyyətinin hədəfi işğaldan azad edilmiş digər bölgələrimiz idisə, Azərbaycanın suverenliyinin tam bərpasından sonra Paşinyan və komandası birbaşa Qarabağa yüklənib.



Ermənistan beynəlxalq məhkəmələrdə Azərbaycan ərazisindəki müxtəlif abidələrin ermənilərə məxsusluğunun təsdiqlənməsi iddiasını qaldırır. Təsəvvür edin ki, torpaq ölkəmizindir, İrəvan istəyir ki, onun üzərindəki tikili erməni abidəsi kimi təsdiqlənsin. Bu, adi bir məsələ deyil. Ermənistan perspektiv üçün "planlar" qurur. Bir halda ki, abidə Ermənistana məxsusdur, o zaman gələcəkdə onun üzərində dayandığı torpağın da erməni ərazisi olduğunu bildirmək mümkündür. Hər halda, bu, xəstə erməni təfəkkürünün məhsuludur. Bu zay təfəkkür, eyni zamanda, məsələni revanşist ideyaları gerçəkləşdirmək, həmin ideyalara hüquqi don geyindirmək üçün gündəmdə saxlayır. Hesab edilir ki, Ermənistan nə zamansa güclənəcək, itirilmiş əraziləri geri qaytaracaq və o zaman hazırkı məsələ işğalın hüquqi baxımdan əsaslandırılmasında vasitəyə çevriləcək. Məsələn, deyiləcək ki, abidə ermənilərə aiddirsə, deməli, torpaq da onların olmalıdır.

Bəli, indi Qarabağdakı erməni mirası ilə bağlı beynəlxalq miqyaslı sərsəmləmələrin də məqsədi budur. Deməli, Ermənistan Azərbaycana qarşı işğalçılıq planlarından əl çəkmir. Yəni, indiki halda, ölkə mənəvi məsələləri də özünün avantürist siyasəti naminə alətə çevirməkdədir. Diqqət yetirək, Kostyanyan nə deyir: "Qarabağın mədəni irsinin qorunub saxlanması məsələsi həmişə gündəmimizdədir və bu məsələ həm UNESCO-nun icra orqanında, həm də digər aidiyyatı idarələrdə qaldırılır. Yadınızdadırsa, 2020-ci ilin dekabrında UNESCO-nun İcraiyyə Şurası qərar vermişdi ki, ümumi vəziyyəti və mədəni irs abidələrinin durumunu yerində izləmək üçün Qarabağa faktaraşdırıcı missiya göndərilməlidir".

*

Ermənistan hakimiyyəti necədirsə, katolikos II Qaregin də elədir. Hətta bir qədər də həyasızdır. Belə ki, o, Böyük Britaniya və İrlandiya Erməni Kilsəsinin yeparxiyasına patriarxal səfəri çərçivəsində Anqlikan Kilsəsinin rəhbəri, Kenterberi arxiyepiskopu Castin Uelbi ilə görüşündə Qarabağdan "məcburi köçkün düşmüş ermənilərin üzləşdiyi problemlər ilə yanaşı, "Qarabağdakı erməni mədəni irsinin qorunub saxlanması məsələlərinə" toxunub. Əlbəttə, mövcud xüsusda özünün anti-Azərbaycan baxışlarını işə salmağı da yaddan çıxarmayıb.

Belə nəticəyə gəlmək mümkündür ki, hazırda erməni kilsəsinin əlində oyuncağa çevrilmək kimi durumla üzləşmiş Ermənistan hakimiyyəti Azərbaycana münasibətdə konstruktiv davrana bilmir. Həm də ona görə ki, erməni avantürizminin mənbəyi elə kilsədir. Əlbəttə, hazırda, belə demək mümkünsə, alətə çevrilməyin ən müxtəlif təzahür formaları var ki, bunlardan biri də həm Qarabağdakı abidələrə iddia etməkdir, həm də onların, guya, dağıldıldığı barədə Azərbaycan əleyhinə mənfi rəy formalaşdırmaqdır.

Əslində, Ermənistan iqtidarı hazırkı davranışları ilə ölkənin illərlə işğal altında saxladığı Azərbaycan ərazilərindəki məscidlərə, tikililərə, qəbirstanlıqlara qarşı vandal münasibətini Azərbaycanın adına çıxmaqdan başqa bir şey eləmir. Məscidlərə donuz bağlayan Kostanyanın və II Qareginin yerliləridir. Azərbaycanlılar heç bir dini əhəmiyyət daşıyan abidəyə təhqiramiz yanaşmayıblar. Paytaxt İrəvanda və ölkənin müxtəlif bölgələrində türk mədəni mirasını yer üzündən silən Ermənistandır. Azərbaycanın paytaxtında isə erməni kilsəsi qorunub saxlanılmaqdadır. Mövcud xüsusda başqa faktları da vurğulamaq mümkündür. Erməni vandallığını əks etdirən ən müxtəlif məsələləri yada salmaq da həmçinin. Üstəlik, bir vacib məqam da var ki, Ermənistan və ermənilər Azərbaycan və türklərlə bağlı hər şeyi öz adlarına çıxdıqları kimi, qədim alban dini və mədəni mirasını, o cümlədən, xristian dini abidələrini də öz adlarını çıxmaqdadırlar. Tarix boyu da belə olub, indi də belədir və fikrimizi təsdiqləyən faktlar yetərincədir.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Azərbaycan "yaşıl nəqliyyat"a keçidi dəstəkləyir



**Beynəlxalq Nəqliyyat Forumunun (İTF) gender və nəqliyyat üzrə 8-ci İllik Məsləhətləşmə iclası keçirilib. Builki iclasda Yaşıl Nəqliyyat Sammiti kontekstində gender, nəqliyyat və iqlim dəyişikliyi arasındakı qarşılıqlı əlaqələr diqqət mərkəzində olub.**

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva iclasın açılışında çıxış edib. İTF-nin nəqliyyat dialoqunu asanlaşdırmaq və regional nəqliyyat və kommunikasiya əlaqələrini gücləndirmək üçün səmərəli qlobal platforma olduğunu deyən səfir ölkəmizin regionda dayanıqlı və davamlı nəliyyat üçün multimodal nəqliyyat marşurutlarının inkişafı istiqamətində konkret addımlar atdığını bildirib. 2025–2026-cı illərdə təşkilata Azərbaycanın sədrlik edəcəyini bildirən Leyla Abdullayeva ölkəmizin sədrlik müddətində İTF-nin məqsəd və mühüm rolunu təşviq etmək üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb. Bu ilin sonunda Bakının ev sahibliyi edəcəyi COP29-un, həmçinin nəqliyyat sahəsinin dekarbonizasiyası ilə bağlı məsələlərin müzakirəsi üçün imkan yaradacağına ümid ifadə edilib.

Bakının evsahibliyi edəcəyi COP29-la bağlı səfir L.Abdullayeva qeyd edib ki, ümumi yanaşma əvvəlki COP konfranslarının uğurlarına və dövlətlərin götürdüyü öhdəliklərə əsaslanmaqdır. Vurğulanıb ki, məqsədimiz bu öhdəlikləri irəli aparmaqdır.

Səfir, gender və nəqliyyat, eləcə də nəqliyyat sektorunda gender bərabərliyinin vəziyyəti ilə bağlı da məlumat verib.

***XQ***

# AŞPA-nın Azərbaycana və Türkiyəyə qarşı səlib yürüşü

*(əvvəli 1-ci səhifədə)*

– Son illərdə qlobal dünyada, o cümlədən, Cənubi Qafqazda və Vətənim Azərbaycanda böyük dəyişikliklər baş verir. Müzəffər Azərbaycan Ordusu 200 illik tarixində ilk dəfə işğal olunmuş torpaqlarını geri qaytardı və 30 illik erməni işğalına son qoydu. Böyük zəfərin başlanğıcı olan 2016-cı ilin aprel döyüşləri, sonra zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsi, nəhayət, Azərbaycan 2023-cü ilin 19-20 sentyabr tarixlərində aparılan antiterror əməliyyatı nəticəsində suverenliyini tam bərpa etdi. Geriyə baxanda bu nümunə nə postsovet məkanında, nə də dünyada görünməyib. Nə Sudanda, nə Ukraynada, nə Moldovada, nə Gürcüstanda, nə İndoneziyada (Şərqi Timor) işğal olunmuş heç bir torpaq geri qaytarılmayıb. SSRİ vaxtında Rusiyanın əlində olan Kuril və Saxalin adalarından, Şərqi Prussiyadan danışmaq belə istəmirəm. Yaponiyanın səyləri hələ də davam edir.



İndi Qarabağda – azad edilmiş torpaqlarda yeni həyat başlayır, məcburi köçə məruz qalanlar öz evlərinə qayıdırlar. Vətəndaşlarımız hər şeyin daha yaxşı olacağı ümidi ilə ata-baba yurdlarında yenidən məskunlaşırlar. Ancaq bunlar bəzi imperiya güclərini və onların əlaltılarını çox narahat edir. Azərbaycana qarşı aparılan siyasi oyunlar, ikili standartlar bunun təsdiqidir. 1993-cü ildən bəri ölkəmizə qarşı baş verən ədalətsizliklərə etirazlarını bildirməyən ABŞ və Aİ ölkələri indi bizə qarşı müharibə elan ediblər. Bu Azərbaycan Ordusunun 2020-ci ildə başlayan və 2023-cü ildə başa çatan qlobal zəfər yürüşünü pozmaq, demokratik həyatımızın bütün sahələrində keçirilən islahatları dayandırmaq cəhdidir. Ən son nümunə faktı Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinə qarşı qərarları ilə bir daha təsdiq olundu.

**– Demək istəyirsiniz ki, Azərbaycanın mövqeyi və müstəqil xarici siyasəti bir çox Avropa ölkələrini qane etmir?**

– Bəli, xüsusən də Fransa və Almaniyanı qane etmir, bu da bizə “cəza” kimi qayıdır. Qoy olsun. Amma bu siyasi akrobatika onlara bizdən çox zərbə vurur. Ölkəmizin inkişafı üçün heç kimdən kömək gözləmədiyimiz kimi, heç kimə də möhtac deyilik. Üzdəniraq qonşularımız kimi əl açıb nə sədəqə dilənirik, nə də bir köməyə ehtiyac duymuruq. Əslində ikili standartlara çoxdan öyrəşmişik. Amma bəzən dünyada baş verən haqsızlıqlara baş əymək də olmur….

**– Bəs AŞPA-da Azərbaycana qarşı qanun layihəsinin səsverməsində iştirak etməyən, amma separatizmdən əziyyət çəkən ölkələr (Gürcüstan, Moldova və Ukrayna) niyə bizi məyus etdilər?!**

– Bildiyim qədər Ukraynanın bir millət vəkili bu məsələdə olduqca ədalətli və prinsipial mövqe sergilədi və çıxışında bunu qətiyyətlə bildirdi. Ən acınacaqlısı isə odur ki, Türkiyədən olan millət vəkili Berdan Öztürk Azərbaycanın əleyhinə danışdı və səs verdi. Bu millət vəkili kimdir və hansı partiyadan və ya qrupdan seçilib? Berdan Öztürk bütün dünyada separatçı və terror təşkilatı kimi tanınan və qeydiyyata alınan qanlı PKK-nın siyasi qanadı sayılan, adını daim dəyişən DEM-dən (Xalqların Bərabərlik və Demokratiya Partiyası) millət vəkilidir. Çox maraqlıdır ki, Avropa parlamentariləri öz ölkələrində hər cür ayrıçılıq və separatizmə (İspaniyadakı ETA təşkilatı, Bask və Kataloniya bölgələrində separatçı hərəkatlar, Fransanın Korsika Milli Azadlıq Cəbhəsi və digər xaricdəki müstəmləkələrə qarşı amansız mübarizəsi, İngiltərədə Böyük Britaniyadan ayrılmağı və İrlandiya Respublikası ilə birləşməyi müdafiə edən Sinn Fein partiyası və s.) qarşı çox sərt reaksiya verirlər. Amma Türkiyə və ya Azərbaycana gələndə demokratiyanın müdafiəçləri kimi görünürlər və bizə məsləhətlər verirlər. “Demokratik” Avropada belə bir şey təsəvvür edilə bilərmi? Deməli, tipik səlib yürüşü mentaliteti və ikili standartlar məntiqi burada özünü təsdiqləyir. Əgər cənab Berdan Öztürk bu ölkələrinin birində yaşasaydı və separatçı hərəkatları və terroru dəstəkləsəydi, nə parlamentə seçilərdi, nə də AŞPA-da olardı.

**– Kimdir bu türkiyəli deputat? İndi Azərbaycanda hər kəs bu suala çavab axtarır…**

– Berdan Öztürk hüquqşünasdır, xaricdə təhsil almış separatçı kürd



millətçisi və PKK-nın əmrlərini ciddi şəkildə yerinə yetirən Ağrı millət vəkilidir. O, həmçinin Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici İşlər Komissiyasının üzvüdür və NATO Parlament Assambleyasının üzvü vəzifələrində təmsil olunur. Cənab B.Öztürkün rekordu da bəzi neqativlərlə doludur. Onun barəsində 2016-cı ildə 5 PKK yaraqlısının dəfn mərasimində iştirak etdiyi əsas gətirilərək istintaq başladılıb. O, 2019-cu ildən Türkiyə Ordusunun Suriyada PKK terroruna qarşı keçirdiyi “Barış pınarı” əməliyyatı ilə bağlı verdiyi açıqlamalarda terror təbliğatına görə istintaqa cəlb edilib. 2021-ci ildə Türkiyə Respublikası Ali Məhkəməsinin Baş Prokuroru Bəkir Şahin Konstitusiya Məhkəməsində ona və digər 686 HDP siyasətçisinə 5 il siyasi fəaliyyət qadağası tələbi ilə iddia qaldırıb.

**– Berdan Öztürk Türkiyə və Azərbaycanı “işgəncə verən ölkələr” elan edən hesabata da “hə” səs verib.**

– Azərbaycan və Türkiyə əleyhinə hesabatlarda PKK liderinə azadlıq tələb edən millət vəkili Berdan Öztürkün imzası və “hə” səsi də bu baxımdan diqqət çəkib. Berdan Öztürkün AŞPA-da silsilə qalmaqalları bununla bitməyib. Strasburqda keçirilən sessiyada Türkiyəni işgəncələrə görə ittiham edən daha bir hesabat səsverməyə çıxarılıb. Bu hesabatda Türkiyə ilə yanaşı Azərbaycan da ittiham olunur.

Hesabatda İmralıda PKK lideri Abdullah Öcalana da istinadlar yer alıb. Türkiyə PKK liderinə, Azərbaycan isə işğaldan azad etdiyi Qarabağda erməni terrorçularına verilən işgəncələrdə ittiham olunub. Berdan Öztürk Türkiyə və Azərbaycan əleyhinə hesabatlara “hə” deyə səs verdikdən sonra söz alaraq, həbsxanalarında işgəncə, pis rəftarın yayıldığını, “Türkiyədə sistematik işgəncə var, mən ölkəmdəki işgəncə və pis rəftarın xülasəsini vermək istərdim” – deyib.

Berdan Öztürk daha sonra əli qan içində olan və minlərlə dinc sakinin öldürülməsinə rəhbərlik edən PKK lideri Öcalana azadlıq tələb edib. İndi əgər azadlıq və demokratiyanın elçiləri olan Qərb ölkələri bütün bunlara məhəl qoymurlarsa və heç bir rəsmi sübut olmadan Azərbaycanı və qardaş Türkiyəni günahlandırırlarsa, o zaman onların verdikləri bu kimi qərarlar etibarsız olmalıdır. Bunu dəstəkləyənlər isə ümid edirəm ki, tarixin siyasət zibilliklərində öz layiqli yerlərini alacaqlar.

**– Sizcə, bu haqsız qarayaxmaların bir sonu olacaqmı?**

– Bir az əvvəldə dediyim kimi bu çür siyasi oyunlar dünya siyasətinə, hətta onların özlərinə bizdən çox zərbə vurur. İndi bir şeyi də unutmaq olmaz. Bu il dünyada çoxsaylı seçkilər ilidir. ABŞ və bəzi Qərb ölkələri, Rusiya, eləcə də Azərbaycan böyük seçkilər qarşısındadır. Bu dünya siyasətinin gedişatını, coğrafiyamızda baş verənləri formalaşdıran hadisələrdir. Ümid edirəm ki, Azərbaycanda keçiriləcək seçkilər dinc və tam demokratiya bayramı olacaq, istər Azərbaycanda olsun, istərsə də dünyanın hər yerinə səpələnmiş Azərbaycan vətəndaşları bu seçkilərdə sağlam düşüncə ilə iştirak edəcək, düşünülmüş və düzgün qərar verəcəklər. Heç şübhə etmirəm ki, bu nümunəvi seçki marafonunda Azərbaycan xalqı Azərbaycanı uğurlu gələcəyə aparan müzəffər prezidentini seşəcək. İndiki zamanda bu çox vacibdir. Bu həm də Azərbaycana və Türkiyəyə, o cümlədən Türk dünyasına qarşı birləşənlərə layiqli çavab olacaq.

**– Müsahibə üçün çox sağ olun.**

**Müsahibəni hazırladı:**
**N.QƏDİMOĞLU**
**XQ**

# Ermənistanda rusofobiya tüğyan edir

*(əvvəli 1-ci səhifədə)*

Qeyd edək ki, Leninqradın blokada halqası 1944-cü il yanvarın 18-də yarılıb. Yanvarın 27-də şəhər mühasirədən tam azad edilib. Mühasirənin tam başa çatdığı gün Rusiyanın döyüş şöhrəti günlərindən biridir. Üstəlik, 2024-cü ildə əlamətdar tarixi hadisənin 80-ci ili tamam olub. Bu münasibətlə yanvarın 27-də Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin, veteranlar, ictimai təşkilatların üzvləri abidəni ziyarət edib, onun qarşısına əklil qoyublar. Əklilin lenti Rusiyanın üçrəngli bayrağını simvolizə edib. Daha sonra burada tədbir keçirilib. Səfir tədbir zamanı etdiyi çıxışında sanki iki gün sonra baş verəcək hadisəni öncədən görərək deyib: “Bu gün biz cəbhədə canlarından keçənlərin, Leninqradın müdafiəsinə qalxanların, mühasirədə olan Leninqradda təslim olmadan həlak olanların, dağıdılmış şəhəri bərpa edənlərin xatirəsinə ehtiramla baş əyirik. Bu, çox vacibdir, çünki bu gün xalqımızın və bizə qələbə qazandıran bütün xalqların nümayəndələrinin şücaətinin xatirəsinin mühafizəsi problemlə üzləşir”. Sonra diplomat Ermənistan sakini, blokadadan sağ çıxmış Qalina Fyodorovaya Leninqradın mühasirədən tam azad olunmasının 80 illiyi şərəfinə təltif edildiyi fəxri döş nişanını təqdim edib.

Qeyd etdiyimiz kimi, cəmi iki gün sonra Samvel Şirinyan adlı şəxs parka gələrək “Mühasirəyə alınmış Leninqrad uşaqlarının abidəsi”ni təhqir edib. O, əklilləri vuraraq aşırıb, Rusiya Federasiyasının dövlət bayrağının əksi olan lenti yerə ataraq tapdalayıb. Öz əməlini videoya çəkərək “Tik-Tok” hesabında yerləşdirib. Videoda Şirinyanın dediyi bu sözlər aydın eşidilir: “Mariya Zaxarova (Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi – S.H.) bu günlərdə dedi ki, Qarabağda etnik təmizləmənin baş verməsinə dair heç bir dəlil yoxdur. Maraqlıdır, bəs Leninqradda blokadanın olduğuna dair dəlil var? Yoxdur! Heç bir dəlil yoxdur! Biz isə Ermənistanda faşistlərə abidə ucaltmışıq. Hələ onların xatirəsini də yad edirik!”

Media orqanları hadisədən sonra onu törədənin kimliyi ilə bağlı araşdırma aparıblar. Məlum olub ki, Şirinyan anti-Rusiya əhval-ruhiyyəli şəxsdir. O, bundan öncə də sosial şəbəkə hesabında dəfələrlə Rusiyanın dövlət rəsmilərini təhqir edibmiş. Onun əməli Ermənistandakı sosial şəbəkə istifadəçiləri tərəfindən rəğbətlə qarşılanıb. Onlar Şirinyanın əməlini “Mən sənin acını bölüşürəm, amma ehtiyatlı ol, əzizim!”, “Afərin, qardaş!”, “Hörmətə layiq hərəkətdir!”, “Yaşa, mənim qardaşım!”, “Əgər zavodlar işləyibsə, hansı mühasirədən söhbət gedə bilər?!” kimi sözlər yazıblar.

İnsident gözlənildiyi kimi, Rusiyada etirazla qarşılanıb. “Rossotrudniçestvo”nun (Rusiyanın Müstəqil Dövlətlər Birliyi, həmvətənlər və xaricdə yaşayanlarla iş və beynəlxalq humanitar əməkdaşlıq üzrə federal agentliyi-S.H.) Ermənistandakı nümayəndəliyinin rəhbəri Vadim Fefilov İrəvanda mühasirədə olan Leninqrad uşaqlarının xatirəsinin təhqir olunması ilə bağlı Ermənistan baş prokuroruna müraciət edib. Fefilovun müraciətində deyilir ki, Böyük Vətən müharibəsi hadisələri əsasında etnik ədavətin qızışdırılması və zorakılığa çağırışlar qəbuledilməzdir və hadisəyə görə cavabdehlər məsuliyyətə cəlb edilməlidir.

Ermənistan baş prokurorluğunun yaydığı məlumatda deyilir ki, prokurorluq “Rossotrudniçestvo”nun yerli rəhbərinin müraciətini alıb və işin araşdırılması qanunvericiliklə müəyyən edilmiş qaydada aparılacaq.

Rusiyanın Ermənistandakı səfirliyi də baş vermiş hadisə ilə bağlı açıqlama yayıb. Açıqlamada deyilir: “Mühasirəyə alınmış Leninqrad uşaqlarının abidəsi”ndə baş verən kinli təxribat bizi dərindən hiddətləndirdi. Belə hərəkətləri faciə qurbanlarının və şəhəri müdafiə edən qəhrəmanların xatirəsinə açıq qəzəb ifadəsindən başqa cür qiymətləndirmək çətindir. Video müəllifi çələngləri tapdalamayıb, erməni xalqının həmin hadisələrə hörmət və minnətdarlıq ifadəsini tapdalayıb. Səfirlik ümid edir ki, bu hərəkətlər Ermənistan hakimiyyəti tərəfindən adekvat hüquqi qiymətini alacaq və bu əməllərdə iştirak edənlər məsuliyyətə cəlb olunacaq”.

Rusiya Federasiyasının İstintaq Komitəsi isə baş verən insidentlə bağlı cinayət işi iş açacaq. Bu barədə İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin tərəfindən göstəriş verilib. İstintaq Komitəsinin “Teleqram” kanalında yerləşdirilən məlumatına görə, insidentin bütün halları Rusiya Xarici İşlər Nazirliyi ilə əməkdaşlıq çərçivəsində müəyyən ediləcək.

Əlbəttə, Ermənistan hüquq-mühafizə orqanlarının olaya verəcəyi hüquqi qiymət yaxın vaxtlarda məlum olacaq. Ancaq ölkədə rusofob əhval-ruhiyyənin hökm sürdüyünü və bunun getdikcə gücləndiyini bildiyimiz üçün veriləcək qiymətin adekvat olmayacağını təxmin edə bilərik. Əslində, baş vermiş hadisə bizim üçün gözlənilməz deyildi. Etnik və dini dözümsüzlüyün az qala dövlət siyasəti səviyyəsinə qaldırıldığı Ermənistanda bundan öncə də oxşar hadisələr yaşanmışdı. Girişdə qeyd etdiyimiz Qaregin Njdeyə abidə ucaldılması, onun açılışında sabiq prezident Serj Sarkisyanın iştirak etməsi bunun göstəricisi idi. Həmin abidə indi də İrəvanın mərkəzində qalmaqdadır.

**Mövzu ilə bağlı “XQ”yə açıqlama verən “Cənubi Qafqaz” Politoloqların Diskussiya Klubunun rəhbəri İlqar Vəlizadə** bildirdi ki, bu hadisə Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsinin güclənməsi fonunda baş verib. Onun sözlərinə görə, Ermənistan hakimiyyəti cəmiyyətdə mövcud olan anti-Rusiya meyillərini daha da stimullaşdırır: “Bu isə hakimiyyətə həmin əhval-ruhiyyəni nəzərə alaraq, onun üzərində siyasi platforma quraraq Qərbyönümlü siyasət aparmaq üçün vasitə kimi lazımdır. Ancaq bunun əks effekti də olur. Əks effekt məhz bu cür hadisələrdə özünü büruzə verir. İnsanların bu cür davranışları, əslində, anti-Rusiya siyasətinin təzahürüdür. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ümumiyyətlə, Ermənistan cəmiyyətində təkcə anti-Rusiya meyilləri müşahidə olunmur. Anti-İsrail meyilləri də hökm sürür. Yəni, yəhudilərə qarşı da eyni münasibət var. Həmin münasibətin əsasında Ermənistan–Azərbaycan münasibətlərində Rusiyanın neytral ol-



ması və İsrailin ölkəmizlə sıx hərbi-texniki əməkdaşlıq etməsi dayanır”.

İlqar Vəlizadənin sözlərinə görə, Ermənistan cəmiyyəti əvvəllər daha çox Rusiyameyilli idi, indi isə Qərbyönümlüdür: “Bu Qərbyönümlülük də müxtəlif vasitələrlə stimullaşdırılır. Amma Rusiyayönümlü və ya Qərbyönümlü olub-olmamasına baxmayaraq, əsas dayaqları toxunulmaz qalır. Qaregin Njde Ermənistan cəmiyyətinin dayağıdır. Seqakronizm ideyası onların əsas ideologiyasıdır. Onların digər abidələri də var. Drastamat Kanayana da abidə ucaldıblar. O da vaxtilə faşistlərə əməkdaşlıq edib. Həmçinin terrorçu Monte Melkonyan da Ermənistanda qəhrəman səviyyəsinə qaldırılıb. Bunlar erməni xalqı üçün nümunədir. Təəssüf ki, bu kimi hallarla bağlı heç bir tədbir görülmür. Əslində, denasifikasiya Ermənistanda aparılmalıdır. Ancaq biz bunun əksini görürük. Faşist əlaltılar qəhrəman səviyyəsinə qaldırılır. Bu isə faşist təfəkkürlü şəxslərin sayının çoxalmasına gətirib çıxarır. Çoxalmaya səbəb olan əsas amil isə Ermənistan hakimiyyətinin siyasətidir. İrəvanın siyasəti həmin bu amillərin üzərində qurulub. Xarici siyasi orientasiyada dəyişikliklər olsa da, Ermənistanda millətçiliyin əsas ideoloji bazası təəssüf ki, dəyişilməz qalır”.

**Hərbi-siyasi şərhçi Rizvan Hüseynov isə** bildirdi ki, istər Ermənistan cəmiyyəti, istərsə də iqtidarı nasistlərin əlaltısı olmuş Qaregin Njde, Üçüncü Reyxlə əməkdaşlıq edən, Vermaxtın erməni legionunun yaradıcılarından olan general Drastamat Kanayan kimi şəxslərlə fəxr edir. Bir neçə il əvvəl Ermənistanda Osmanlı imperiyasının dövlət və siyasi xadimi Mehmet Tələt paşanın qatili, terrorçu Soqomon Teyliryanın abidəsi ucaldılmışdı: “Yəni, indi baş verənlər bu ölkədə terrorçuların qəhrəmanlaşdırılması ilə bağlı ilk hadisə deyil. Son illər biz dəfələrlə dünyanın diqqətini sözdə müstəqil Ermənistanda nasizm və irqçiliyin təbliğ olunmasına yönəltməyə çalışmışıq.



Təəssüf ki, nədənsə, dünya Ermənistandan söz düşəndə özünü görməzliyə vurur. Niyə Ermənistanda belə bir halın hökm sürməsi dünya ölkələrində və beynəlxalq təşkilatlarda heç bir reaksiya yaratmır? Ermənistan hazırda dünyada yeganə ölkədir ki, burada erməni faşizminin banisi Qaregin Njdenin əsərləri, yazdığı nizamnamələr və bəzi yazışmaları dərc olunur”.

Bununla belə, R.Hüseynov qeyd etdi ki, məlum insidenti törədən şəxsin Ermənistan–Rusiya münasibətlərini gərginləşdirmək istəyən müxtəlif qruplara, siyasi çevrələrə bağlılığı, onlardan sifariş alması da mümkündür: “Hər halda, baş vermiş hadisənin istintaqı zamanı bir çox məqamlar üzə çıxacaq. Bu hadisəni kimin törətdiyinə deyil, onun kimin üçün maraqlı olmasına baxmaq lazımdır. Zənnimcə, yaxın vaxtlarda insidentin arxasında kimin dayandığı aşkara çıxacaq”.

**Səxavət HƏMİD**
**XQ**

# Avropada neofaşizm: prosesi kim dayandıracaq?

**I məqalə**

*Ədalət mülkündən kim üz çevirsə,*
*Ona aqil deməz ağıllı kimsə.*
**Nizami Gəncəvi**

## Avrp ada "öldürə bilərsən" imtiyazının təzadları

İndi demək olar ki, hər bir müasir insan üçün adi səslənən "faşizm"in qədim tarixi vardır. Bu söz nə qədər paradoksal və qəribə də olsa, dövlətçiliyi, cəmiyyətin bütövlüyünü qorumaq adı altında siyasi anlam kəsb etmişdir. Etimoloji olaraq da faşizm "birliyi", "ittifaqı", "vahid dəstə olmağı" ifadə edir. Bu sözün həm latın, həm də italyan mənşəyi haqqında yazırlar.

Terminin etimoloji detallarına varmadan deyək ki, faşizm Qədim Romada xüsusi sosial, siyasi, tənzimləyici mexanizm kimi tətbiq edilmişdir. Bunun üçün ayrıca qruplar formlaşdırılmışdır. Onlara xüsusi sarğılar verilmişdir. "Fassio" adlanan simvol və onun predmet təcəssümü olan və silah kimi tətbiq edilən yaraq yaratmışlar. Fassionu, məsələn, Qədim Romada magistratlar daşımaq hüququna malik idilər. Onlar dəstə halında dolaşır və lazım bildikləri yerdə uyğun saydıqları insanlara qarşı zor tətbiq edirdilər.

Sonralar fassionu təkmilləşdirərək ona balta birləşdirmişlər və bu da qətlə yetirmək praktikasını dövləti qorumaq adı altında tədricən kütləviləşdirməyə imkan yaratmışdır.

Fassionu daşıyan insan rəsmləri Avropa tarixində adi hallardan biridir. Bununla bağlı, demək olar ki, Avropanın hər bir dövlətinin "zəngin arxivləri" indi də mövcuddur. Sanki Avropa faşizmi simvollarda da əbədiləşdirmişdir! Hətta indi fassio Fransanın emblemində vardır. Digər Avropa dövlətlərinin dövlətçiliklə bağlı rəsmi simvollarında da yer almışdır.

Əsrlər boyu Avropada fassioya əsaslanan zorakılıq mövcud olmuşdur. O, çoxlu sayda budaqların (çubuqların, nazik ağac qollarının) bir dəstəyə toparlanaraq ətrafında müəyyən iplə və ya başqa nazik maddə ilə birləşdirilən, dağılmağa qoymayan halda qalmasına imkan verən silahdır. Belə görünür ki, özünün yetişmiş ideoloji formasında "faşizm" adlanan hadisə qədimdən avropalı şüurunda ənənəyə çevrilmişdir.

İndi özünün mədəniyyəti, texnologiyası, demokratiyası, liberalizmi, mədəniyyətinin "universal olması" ilə öyünən "Qoca qitə" üçün, bu, xeyli dərəcədə təzadlı, ziddiyyətli və hətta acınacaqlı haldır!

Doğrudanmı, Avropa və bütövlükdə, Qərb lap qədimdən radikalizmə, zorakılığa meyilli olmuş və real olaraq praktikada onu dəfələrlə tətbiq etmişdir? Bu barədə Qərb filosofları, politoloqları və sosioloqları, ümumiyyətlə, elm adamları hansı fikirləri söyləmişlər?

## Qətlsiz cəmiyyət: bu, mümkündürmü?

Bu sualı XX əsrin ikinci yarısında Koreya müharibəsinin ideoloqu Qlenn Durland Peyc yazdığı kitabda qoymuşdur. Q.Peyc ABŞ-da dünyaya gəlmişdir, sırf Qərb tərbiyəsi görmüş və orada təhsil almışdır. 1950-ci ildə Koreya müharibəsinin başlanmasında onun təsiri çox olmuşdur. Prezident H.Trumeni bu müharibəyə təhrik edən əsas ideoloq idi. Lakin maraqlıdır ki, Q.Peyc müharibədən sonra tamamilə mövqeyini dəyişmişdir. O, qeyri-zorakılığı təbliğ edən siyasi-ideoloji hərəkat yaratmışdır. Bu zaman Mahatma Qandinin siyasətini nümunə kimi mənimsəmişdir.

Politoloqin fikir dəyişikliyi 1973–1974-cü illərdə baş vermişdir. 22 ildən çox araşdırma nəticəsində "Qeyri-zorakılıq haqqında qlobal elm" adlı əsər yazmışdır. Bu əsər 30 dilə tərcümə olunmuşdur. Onun təsiri altında 2007-ci ildə Holonunuda (Havaya ştatı) zorakılığa qarşı olanların ilk beynəlxalq tədbiri keçirilmişdir.

Politoloqun 2002-ci ildə nəşr olunan "Qətlsiz cəmiyyət: bu mümkündürmü?" monoqrafiyası da geniş əks-səda doğurmuşdur. Orada Q.Peyc Qərb cəmiyyətinin qədimdən qətl törətmək hadisəsinə məişətdə, elmdə və fəlsəfədə yanaşmasını təhlil etmişdir. Onun gəldiyi qənaət qısaca belədir: Avropada və Amerikada qətl etmək qədimdən həyat tərzinin bir hissəsi olmuşdur. Motivindən asılı olmayaraq qərbli insanın kimisə öldürməsi mövcud hüquqi çərçivəyə uyğundursa, normal sayılmışdır.

Maraqlıdır ki, bu ideyanı insanlara Qərb fəlsəfi və elmi fikri də yeritmişdir. Q.Peyc bu məqsədlə Platon və Aristoteldən tutmuş Orta əsrlərdə, İntibahda, Yeni dövrdə və XX əsrdə Qərbdə yaşayıb yaratmış filosofların və elm xadimlərinin əsərlərindən konkret fikirlərə istinad etmişdir (bax: Пейдж Г. Общество без убийства: Возможно ли это? / Пер. с англ. А.Г.Старцевой. - СПб.: Изд-во С.-Петерб. ун-та, 2005. - 186 с. ISBN 5-288-03600-4). Kitabın 22-ci səhifəsində o yazır ki, bütövlükdə, Qərb fəlsəfi və elmi tarixində "qətlə yetir!" hökmü dəbdə olmuşdur.

Filosoflar, kulturoloqlar, psixoloqlar, tarixşünaslar və sosioloqlar bu məsələnin müxtəlif cəhətlərini də öyrənmişlər. Burada bizim üçün maraqlı olan kanadalı sosioloq Marşall Maklyüenin Qərb insanının özündənrazı, başqalarına yuxarıdan aşağı baxan və eqoizmi yüksək olan varlıq kimi yetişməsində əlifbanın rolu ilə bağlı apardığı təhlillərdir. Latın qrafikası onun fikrinə görə, insanlarda daha çox mücərrəd düşüncə tərzini stimullaşdırır. Çünki simvol olaraq bu əlifba həmin psixoloji elementləri yaradır. Bundan fərqli olaraq isə məsələn, Çin əlifbası insanlarda obrazlı-emosional təfəkkür formalaşdırır. Bu cür insanlarda həyata bağlılıq, ona hörmət və təbiətlə bütünləşmə güclü ola bilər. Eyni məntiqlə ərəb və ya başqa əlfbaların psixoloji təsirini öyrənmək maraqlı olardı.



Tarixşünas Benedikt Anderson millətlər və millətçiliyin formalaşması prizmasında Qərb siyasi düşüncə tərzinin bir sıra özəlliklərini təhlil etmişdir. Onun qənaəti belədir ki, Qərb insanına məxsus müstəsnalıq duyğusu başqa mədəniyyət sistemlərinə və bütövlükdə, xalqa, millətə və cəmiyyətə ikili münasibət yaratmışdır. Nəticədə müxtəlif növ fobiayalar – antisemitizm, islamofobiya, fərqli mədəniyyətlərə yuxarıdan aşağı yanaşma, və s. kimi qüsurlar meydana gəlmişdir.

Qərb bu cür yanlışlıqlara görə, çoxlu sayda fərqli mədəniyyətləri məhv etmişdir. B.Anderson vurğulayır ki, bunlardan xilas olmağın faydası vardır.

Nəhayət, bir nümunə də, nə qədər paradoksal olsa da, sırf elmi-metodoloji araşdırmadan göstərə bilərik. XX əsr Qərb fəlsəfəsinin görkəmli nümayəndələrindən olan Pol Feyerabend "Əlvida, zəka" adlı əsərində Qərb düşüncə tərzi ilə bağlı maraqlı məqamlara toxunmuşdur. P.Feyerabend Homerin insan haqqında təsəvvürünü tənqid edir, Platonu insan yaradıcılığını doğru araşdırmamaqda günahlandırır və bütövlükdə fəlsəfədə insan fəaliyyətinə fərqli yanaşmanın formalaşdırılması ehtiyacını vurğulayır. P.Feyerabendin əsas etirazı Qərbdə insan fəaliyyətinin dünyadan təcrid olunmuş kimi dərk edilməsi və bununla real mövcud olan subyekt-dünya vəhdətinin pozulması ilə bağlıdır. Belə olan halda insanın hətta elmi yaradıcılığı konkret sosial, psixoloji, kültür apatyaları əmələ gətirə bilir.

Biz, X.Orteqa və Qassetdən, O.Şpenqlerdən və digər Qərb mütəfəkkirlərindən də nümunələr gətirə bilərik. Yalnız onu deyək ki, "Qərbin qürubu" əsərinin müəllifi Osvald Şpenqlerdir!

## XX əsr – Avropada yeni zorakılığa keçid

Əlbəttə, dünyanın hər bir regionunda zorakılıq, faşist düşüncə tərzi və qətllər mövcud olmuşdur, olur və yəqin ki, olacaq (Q.Peycin ruhu inciməsin). Məsələn, Qafqazda ermənilər ən çox bu mərəzə yoluxmuşlar və indi də bütün cəhdlərə baxmayaraq ondan qurtula bilmirlər.

Ancaq faktdır ki, məhz avropalılar dünya siyasətində və geosiyasətində XX əsrdə aparıcı rol oynamışlar. İki dünya müharibəsini onlar yaratmışlar. Nüvə silahını onlar kəşf etmişlər. Beynəlxalq münasibətlər sistemini onlar yeniləmişlər (Vestvaldan sonra), elmdə inqilabi kəşflərə nail olmuşlar və, nəhayət ruslarla birgə dünya üzrə əsas güc mərkəzi olmuşlar. Bu vəziyyət, demək olar ki, indi də davam edir.

Geosiyasi nəzəriyyələrin qurulması və tətbiqi də əsas olaraq Qərbdən qaynaqlanmışdır. Z.Bzejinski sivilizasiyaların toqquşmasından, H.Kissincer realpolitika vasitəsi ilə Qərbin geosiyasi hökmranlığa nail olmasından, Jozes Nay (kiçik) Amerikanın "yumşaq güc" vasitəsilə lider olmasından bəhs etmişlər. "Böyük Avrasiya" (Heartland) ideyasının da müəllifi avropalıdır (H.J. Makkinder). Şarl Morras, Jorj Sorel kimlərdir? Avropalı!

İndi hər kəsin dilində olan "qlobal geosiyasətin mərkəzi Şərqə tərəf keçir" tezisinin müəllifi də Z.Bzejinskidir. Yeri gəlmişkən, Z.Bzejinski faşist təşkilatların mövcud olduğu Polşadandır. Mizoçda (indi Ukrayna ərazisidir) yəhudi qadınların edamını (1942-ci il) əks etdirən səhnələrə indi də həyəcansız baxmaq olmur. Doğrudur, dünyada heç kim qəddarlığına və vəhşiliyinə görə erməni faşizminə çata bilməz, lakin adi insanlıq baxımından bu səhnələrin hər biri ürək ağrıdır.

Bütövlükdə, Avropanın çox sayda ölkəsində faşist hərəkatlar XX əsrdə olmuşdur. Məsələn, İtaliyada faşizm, Almaniyada nasional-sosializm, Rumıniyada "dəmir qvardiya", İspaniyada "İspan falanqası", Rus faşizmi, Ukrayna hərəkatı, Latviyada "perkonrrusts", Xorvatiyada "ustaşi" və başqalarını xatırlamaq olar.

İkinci dünya müharibəsindən sonra Avropada faşizm yeni mərhələyə transformasiya etdi və onu neofaşizm adlandırırlar. Neofaşist hərəkatlar klassik faşist hərəkatlardan bir sıra məqamlarına görə fərqlənirlər. Lakin burada konkret fərqlərə keçmədən nəzəri və praktiki baxımdan maraq doğuran iki syasi məqamı vurğulamaq istərdik.

Onlardan biri iki dünya müharibəsinə rəğmən Avropada faşist, nasonal, radikal psixoloji, kültürəl və ideoloji ab-hava yox olmadı. 1945-ci ildən sonra belə Avropa cəmiyyətlərində və siyasi şüurlarda qaldı. Nəinki qaldı, hətta yeni nəzəri təlimlərə adaptasiya olaraq faşizmin yeni növlərini meydana gətirdi. Məsələn, "poststrukturalist faşizm", "postmodernist faşizm" və s. Lakin necə adlandırılmasından asılı olmayaraq radikal, ultramillətçi, qətledici, dağıdıcı xislətini saxladı. Hətta yeni-yeni gizli və incə metodlar tətbiqinə başladı. Fəaliyyət təsirini Avropada genişləndirərək siyasi statusunu yüksəltdi.

Digər məqam aşağıdakı suallarla əlaqəlidir: Filosoflar, kulturoloqlar, iqtisadçılar və sosioloqlar "bu prosesin səbəbi nədən ibarətdir, hansı faktorlar Avropa cəmiyyətlərində və siyasi dairələrdə radikalllığı, ayrı-seçkiliyi, ədalətsiz münasibətləri körükləyə bilərdi?" kimi suallar üzərində düşünürlər. Yəni neofaşizmə siyasi-ideoloji hadisə kimi həm kənardan praktiki olaraq baxırlar, həm də onun nəzəri izahını verməyə çalışırlar. Bu bağlılıqda müasir fransız sosiologiyasının canlı əfsanələrindən biri olan Mişel Turenin maraqlı və özəl fikirləri vardır.

(ardı var)

**F.MƏHƏMMƏDOĞLU**
**XQ**

---

**Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan yeni dövrə başlayarkən, Prezident seçkiləri də bu dövrün başlanğıcı olmalıdır. Torpaqlarımızın işğaldan azad edilməsindən və suverenliyimizin tam bərpasından sonra ilk dəfə reallaşacaq prosesi medianın obyektiv işıqlandırması isə demokratik dövlət, hüquqi cəmiyyət quruculuğunun dərinləşməsinə töhfə baxımından son dərəcə vacibdir. Buna görə də seçki media orqanları kimi, Mətbuat Şurasının qarşısında da məsuliyyət müəyyənləşdirir.**

Ümumən, Mətbuat Şurası seçki proseslərində medianın iştirakı ilə bağlı ayrı-ayrı məqamları hər zaman diqqət mərkəzində saxlayıb. 7 fevral Prezident seçkiləri də bu baxımdan istisna ola bilməz. Əvvəlki dövrlərin təcrübəsinə istinad etsək, deyə bilərik ki, seçki media və jurnalistika üçün, bir növ, sınaqdır.

Bəzən görürük ki, ayrı-ayrı sosial şəbəkə profillərində yayımlanmış bilgilər media və jurnalistlər üçün xəbərə çevrilir. Media bu bilgiləri nə dərəcədə dəqiqləşdirir, hesab edirik ki, məsələ son dərəcə önəmlidir. Jurnalistlər "qara piar" aparmamalı, alətə çevrilməməlidirlər.

# Media və seçkilər

## *Mətbuat Şurasının missiyası*

Məlum olduğu kimi, seçkilər zamanı cəmiyyətdə aktivlik artır. Bu aktivlikdə müxtəlif qütblər olur. Onlar öz aralarında rəqabət aparırlar. Üstəlik, Azərbaycan təcrübəsini nəzərə alsaq, aktivliyin xarici seqmentinə də rast gəlirik. Bilirsiniz ki, ölkəmizdən kənardakı qüvvələr fəallaşırlar və onlar bəzən lokal, bəzən qlobal, bəzən də regional maraqlarından irəli gələn mənafelərinin yerinə yetirilməsinə çalışırlar. Bütün bunlar yekunda media fəaliyyətinə təsirini göstərir.



**Rəşad MƏCİD,**
**Mətbuat Şurasının sədri**

Əlbəttə, hazırda Azərbaycan mediasında siyasiləşmə, demək olar, yoxdur. Media orqanlarının ayrı-ayrı siyasi qrupların təsirinə düşüb hərəkət etmələri halları da həmçinin. Bu sevindiricidir. Çünki fərqli durumun yaşanması, istər-istəməz, peşə prinsiplərinə etinasızlıq hallarını doğururdu və bu, hər birimizin yaxşı xatirindədir. Mövcud xüsusda yaranmış gərginlik isə bütövlükdə, cəmiyyətin ahənginə neqativ təsir göstərirdi.

Ancaq hazırkı durum da arxayınlıq üçün əsas vermir. Başlıca vəzifə əldə edilmiş sabit ab-havanın qorunub saxlanmasıdır. Mətbuat Şurası da məsələyə məhz bu prizmadan yanaşır. Şura media subyektlərinin seçkidə peşəkar şəkildə iştirakını iki cəhətdən vacib sayır. Birincisi, onların özlərini təsdiqləmələri məsələsi var. Nəzərə alaq ki, hər seçki həm də bir hesabatdır, əvvəldə bildirdiyim kimi sınaqdır. İkinci məqam ictimai maraqların qorunmasıdır. Gərginlik dövründə bu maraqlardan çıxış etmək faizinin yüksəkliyi, bütövlükdə ölkənin gələcək inkişafı baxımıdan mühüm indikatordur. Əlbəttə, peşəkarlıq ön planda olmalıdır. Şura mövcud istiqamətdə hər zaman tövsiyələr verib və verəcək.

Media və seçkilər mövzusunda bir sıra məsələlərin üzərində dayanmaq mümkündür. Hesab edirik ki, onlar həm Mətbuat Şurasının tövsiyələrində, həm Mərkəzi Seçki Komissiyasının təlimatlarında, həm yerli qanunvericilikdə, həm də beynəlxalq sənədlərdə, kifayət qədər, geniş əksini tapıb. Bir sözlə, onu deyim ki, jurnalistlər seçki prosesinin taleyüklülüyünü nəzərə almalı, həssas davranmalıdırlar. Unutmaq olmaz ki, həssaslığın özü ən böyük peşəkarlıqdır.

Mətbuat Şurasının 7 fevral Prezident seçkiləri ilə bağlı konkret fəaliyyətinə gəlincə, proseslə əlaqədar iki ənənəvi xətti əsas götürürük. Birincisi, seçki kampaniyası dövrünün diqqətdə saxlanılması, ikincisi isə seçki gününə hesablanmış fəaliyyət. Şura birinci istiqamət üzrə ölkənin müntəzəm yayımlanan media subyektlərinin materiallarına diqqət yetirməkdədir. Hazırkı dövrün reallıqlarını düşünsək, sosial şəbəkələrə də nəzər salmaq şərtdir.

Mətbuat Şurasının bilavasitə seçki günü ilə bağlı fəaliyyətində də iki istiqamət olacaq. Əvvəlcədən onu deyim ki, hər iki istiqamət jurnalistlərin seçkini sərbəst işıqlandırmaları üçündür. İlk növbədə, MŞ-də seçki günü yaradılacaq "qaynar xətt"i vurğulamaq istərdim. Bu, 2005-ci ildən indiyədək keçirilmiş bütün seçkilərdə əsas götürülmüş fəaliyyətdir. Şuranın əvvəlcədən elan ediləcək mobil və şəhər telefon nömrələri "qaynar xətt" rejimində çalışacaq. Seçki prosesini işıqlandıracaq jurnalistlər həmin nömrələrlə əlaqə saxlamaq imkanı əldə edəcəklər.

Əlbəttə, biz bilirik ki, jurnalistlərin seçkini işıqlandırmalarına hər zaman şərait yaradılır. Ancaq bəzən müəyyən anlaşılmazlıqların yaranması mümkündür. Məqsədimiz həm də bu cür durumların ümumi axara təsir göstərməsinin qarşısını almaqdır. Belə situasiyalarda media təmsilçiləri "qaynar xətt"ə müraciət edə biləcəklər. Müraciətlər olacağı təqdirdə, Mətbuat Şurası tərəfindən yaranmış çətinliyin aradan qaldırılması üçün operativ tədbirlər gerçəkləşdiriləcək. Təbiidir ki, bu zaman müvafiq instansiyalarla əlaqəli iş aparılacaq.

İkinci istiqamət Mətbuat Şurası İdarə Heyətinin üzvlərinin paytaxtda və bölgələrdə dairə və məntəqə seçki komissiyalarındakı monitorinqləridir. Onlar jurnalistlərin peşə fəaliyyətlərini gerçəkləşdirmələri üçün yaradılmış vəziyyəti müşahidə edəcəklər.

İnanıram ki, həm Mətbuat Şurası, həm də Azərbaycan mediası qarşıya qoyulmuş vəzifələri yerinə yetirə biləcək. Ona da əminəm ki, Azərbaycan mediası bütün sınaqlardan üzüağ, alnıaçıq çıxdığı kimi, bu seçki prosesinə münasibətdə də layiqli mövqe tutacaq, özünün peşəkarlığı ilə cəmiyyətin, ümumən, xalqımızın maraqlarını uzlaşdırmağı bacaracaq.

---

# Beynəlxalq Türk Akademiyasına Qazaxıstan Prezidentinin təşəkkürü çatdırılıb

**Astanada Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev və Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek arasında görüş keçirilib.**



Əvvəlcə nazir Sayasat Nurbek Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Akademiyaya ünvanladığı təşəkkür məktubunu akademik Şahin Mustafayevə təqdim edib. Şahin Mustafayev Beynəlxalq Türk Akademiyasının ötənilki fəaliyyətinin yekunları və bu il həyata keçirilən əsas layihələr barədə məlumat verib.

Görüşdə Beynəlxalq Türk Akademiyası Elm Şurasının növbəti iclasında müzakirə olunacaq məsələlər, eləcə də türkdilli ölkələr arasında elm və ali təhsil sahəsində əməkdaşlığın daha da gücləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

Sonda Şahin Mustafayev Beynəlxalq Türk Akademiyasının dəstəyi ilə çapdan çıxmış Əhməd Baytursınulının əsərlərindən ibarət 5 cildlik akademik tədqiqatı nazirə təqdim edib.

# Azərbaycan növbəti dəfə azad, demokratik və şəffaf seçki nümayiş etdirəcək

## Bülletenlər dairə seçki komissiyalarına çatdırılır



**Fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının üzvləri, Katibliyin əməkdaşları, eləcə də müvafiq dairə seçki komissiyalarının sədrləri və katiblərinin də iştirakı ilə Milli Məclisin mətbəəsində seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb.**

Proses açıq və şəffaf şəkildə gerçəkləşdirilib, beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları, media nümayəndələri və maraqlı seçki subyektlərinin prosesi yaxından izləyə bilmələri üçün hər cür şərait yaradılıb.

Bülletenlərin ilk gün – yanvarın 30-da Naxçıvan Muxtar Respublikasındakı seçki dairələri, işğaldan azad olunmuş ərazilərdəki seçki məntəqələrinin aid olduğu seçki dairələri, həmçinin respublikanın ucqar bölgələrini əhatə edən seçki dairələri də daxil olmaqla, ümumilikdə, 36 seçki dairəsinə, növbəti iki gün ərzində isə ölkənin digər bütün seçki dairələrinə təhvil verilməsi və prosesin tam yekunlaşdırılması nəzərdə tutulur.

Yüksək təhlükəsizlik şəraitində hazırlanan seçki bülletenləri dairə seçki komissiyalarına verildikdən sonra onların daşınması, saxlanması və məntəqə seçki komissiyalarına paylanması prosesinin mühafizəsi Daxil İşlər Nazirliyinin aidiyyəti qurumları tərəfindən həyata keçirilir.

Tədbir çərçivəsində seçki bülletenlərinin hazırlanması və aidiyyəti üzrə çatdırılması ilə bağlı Seçki Məcəlləsinin tələbləri və prosesin təşkili barədə media nümayəndələrinə məlumat verilib, həmçinin jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, prezident seçkiləri ilə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər qanunvericilikdə nəzərdə tutulmuş müddətdə Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edildikdən sonra, 2024-cü il yanvarın 24-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb və Komissiyanın qərarı ilə 6 milyon 524 min 203 seçki bülleteni çap olunub.

Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki bülletenləri dairə seçki komissiyalarına paylandıqdan sonra, səsvermə gününə azı 3 gün qalmışadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcək.

## Müşahidəçilərin fəal olması önəmlidir

**Növbədənkənar prezident seçkilərini izləmək üçün 80 minə yaxın müşahidəçi qeydiyyatdan keçib. Builki seçkilərdə “exit-poll”un keçirilməsi üçün 3 təşkilat müraciət edib.**



İndiyə qədər 512 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. MSK sədri Məzahir Pənahov deyib ki, beynəlxalq qurumların yaxşı müşahidə aparması vacibdir. Çünki müşahidəçilərin müəyyən məsələlərə müdaxilə etmək səlahiyyətləri var. Bu səbəbdən də müşahidəçilərin fəal olması önəmlidir. MSK-da akkreditasiyadan keçən beynəlxalq müşahidəçilər ölkə üzrə kifayət qədər müşahidə aparmaq hüququna malikdirlər. ATƏT/ DTHİB və MDB-nin müşahidə missiyaları böyük sayda müşahidəçilərlə təmsil olunurlar. Digər böyük və nüfuzlu təşkilatların da müşahidəçiləri seçkinin gedişini izləyəcəklər.

M.Pənahov deyib ki, ATƏT/ DTHİB-nin müşahidə missiyasının işğaldan azad olunmuş ərazilərdə seçki prosesini izləmələri arzuolunandır. Seçki prosesini işığlandırmaq üçün 23 beynəlxalq media qurumu qeydiyyata alınıb. MSK sədrinin sözünə görə, erməni əsilli şəxslər səsvermədə Azərbaycan vətəndaşı kimi iştirak edə bilərlər. Azərbaycan vətəndaşı olan bütün milli azlıqların hamısı səsvermədə eyni hüquqa malikdir. Ümumiyyətlə, Azərbaycanın ərazisində müstəsna hüquqa malik olan heç bir milli azlıq yoxdur. Bu, ölkəmizin üstünlüyüdür.

## Bişkekdə soydaşlarımız 7 fevralı gözləyirlər

**Azərbaycanın Qırğızıstandakı səfirliyində Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyası tərəfindən təyin olunmuş beynəlxalq müşahidəçi İslambek Mursabekovla görüş keçirilib.**

İslambek Mursabekov fevralın 7-nə təyin olunmuş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar təşkil olunmuş seçki məntəqəsinin komissiya üzvləri ilə tanış olub. Həmçinin seçki məntəqəsinə baxış keçirilib.



Səfir Lətif Qəndilov seçkilərin təşkili istiqamətində aparılan işlərə dair qarşı tərəfə məlumat verib.

## Türkiyədə Azərbaycan prezidenti seçkilərinə son hazırlıq

**Fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq prosesi ölkəmizin Türkiyədəki səfirliyi, İstanbul və Qars şəhərlərindəki baş konsulluqları tərəfindən fəal şəkildə davam etdirilir.**

Bu barədə Azərbaycanın Türkiyədəki səfirliyi məlumat yayıb. Məlumatda deyilir ki, bu məqsədlə səfirlikdə 46 və 47, İstanbuldakı baş konsulluqda 53 və 54, Qarsdakı baş konsulluqda isə 55 saylı seçki məntəqələri yaradılıb.



Türkiyədə daimi və ya müvəqqəti yaşayan, uzunmüddətli ezamiyyətdə, seçki günü bu ölkədə olacaq 18 yaşını tamamlamış, aktiv seçki hüququna malik Azərbaycan vətəndaşları yerli vaxtla saat 8:00-dan 19:00-dək ölkəmizin ümumvətəndaş pasportu və ya şəxsiyyət vəsiqəsi ilə yuxarıda qeyd edilən seçki məntəqələrinə gələrək səsvermə hüququnu həyata keçirə bilərlər.

Səfirlik seçki məntəqələrinin ünvanları və qaynar xətt barədə məlumat paylaşıb.

Həmin ünvanları və qaynar xətti bir daha xatırladırıq.

**Seçki məntəqələrinin ünvanları: Azərbaycanın Türkiyədəki səfirliyi: Diplomatik site, Bakü sokak No:1, Oran/Ankara;**

**İstanbul şəhərindəki baş konsulluğu: Zeytinoğlu Caddesi No 65, Akatlar, Beşiktaş / İstanbul;**

**Qars şəhərindəki baş konsulluğu: Yusif Paşa məhəlləsi Heydər Əliyev prospekti N: 9, Kars / Mərkəz;**

**Seçkilərdə iştirakla bağlı suallar üçün Türkiyədəki vətəndaşlarımız +90 535 577 61 68 nömrəli qaynar xətt vasitəsilə səfirliklə əlaqə saxlaya bilərlər.**

## “Mənim səsim” ucadan eşidiləcək

**“Mənim səsim” Seçki Monitorinq Koalisiyası 7 fevral növbədənkənar prezident seçkilərinin monitorinqi ilə bağlı aralıq hesabat yayıb. Hesabatda koalisiyanın seçkiqabağı vəziyyətlə bağlı müşahidələri öz əksini tapıb. Hesabatda qeyd edilib ki, ötən dövr ərzində koalisiyanın Azərbaycan ərazisini əhatə edən 63 seçki dairəsində müşahidələr aparmaq üçün 500 müşahidəçisi qeydiyyata alınıb: “7 fevral növbədənkənar prezident seçkilərinin elan edildiyi gündən seçki proseslərini müşahidə etməkdəyik”.**



Koalisiya Mərkəzi Secki Komisiyasına müraciətləri, bu müraciətlərin araşdırılması, namizədlərə imza vərəqələrinin verilməsi, imzatoplama kampaniyası, toplanan sənədlərə MSK-nın qəbulu və münasibəti, habelə digər prosesləri daim izləməkdədir.

MSK tərəfindən seçkilərin daha demokratik və şəffaf keçirilə bilməsinə şərait yaradan bir sıra müsbət dəyişikliklər edilməsi də hesabatda öz əksini tapıb. Ölkənin bütün ərazisində seçkilər keçirilməsi üçün 125 seçki dairəsi, dairə seçki komissiyası, 6 319 məntəqə seçki komissiyası fəaliyyət göstərir: Koalisiya belə qənaətə gəlib ki, müşahidəçilərin topladığı məlumat əsasında bütün dairələrdə, məntəqələrdə seçkiyə hazırlıq işləri yüksək səviyyədə getməkdədir. Bu işə təcrübəli, seçki texnologiyaları barədə ətraflı məlumatı olan insanlar cəlb edilib.

## Qarabağ və Şərqi Zəngəzur zəfər seçkisi təntənəsi yaşayacaq

**Fefralın 7-də Azərbaycanda ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcək. Bunun üçün Şərqi Zənzəzur və Qarabağda 26 seçki məntəqəsi yaradılıb. Sözügedən bölgələrdə yaradılan seçki məntəqələrinin fəaliyyəti tam təmin olunub. Həmin seçki məntəqələrində seçici siyahılarına 22 mindən yuxarı seçicilərin məlumatları daxil edilib. Onlar həmin gün seçki məntəqələrində öz konstitusion hüquqlarından istifadə edərək səsvermədə iştirak edəcəklər. Qürurverici haldır ki, həmin ərazidə olan məntəqələr Zəfər seçkilərinin ilk məntəqələridir. Doğma ata-baba yurdlarına qayıtmış soydaşlarımız onlar üçün yaradılan bu imkanlardan səmərəli istifadə edəcəklər.**




İşğaldan azad edilmiş ərazilərdə yaradılan seçki məntəqələrindən biri də 84 saylı Füzulu Seçki Dairəsinin tərkibindəki 75 saylı seçki məntəqəsidir. Məntəqənin sədri Ləman Məstəliyeva dedi ki, seçki məntəqəsi yaradılan vaxtdan böyük ruh yüksəkliyi ilə işə başlamışıq. Sevincimizin hədi-hüdudu yoxdur. Uzun illərdən sonra doğma ata-baba yurdumuzda seçkiyə qatılmaq tarixi Qələbəmizin bir daha təsdiqidir. Növbədənkənar prezident seçkilərində 1371 nəfər səs verəcək. Seçkilərin yüksək səviyyədə keçirilməsi üçün bütün imkanlardan istifadə olunub. MSK tərəfindən təlimatlar, yaddaş kitabçaları, seçkiyə çağırış plakatları, gözlə görünməyən mürəkkəb balonları, ultrabənövşəyi lampalar və digər zəruri avadanlıqlar seçki məntəqəsindədir. Dəqiqləşdirilmiş seçici siyahıları məntəqədə münasib yerdən asılıb.

L.Mustafayeva dedi ki, artıq sakinlərə bildirişlərin paylanılması prosesi də başa çatıb. Namizədlərin təşviqatlarının aparılması üçün hər hansı problem və ya narazılıq yoxdur. Məntəqəmiz seçkiyə tam hazırdır. Otuz ildən sonra ilk dəfə keçiriləcək seçkilər hər bir soydaşımızın gələcəyə olan inamını daha da artırıb.

İşğaldan azad olunan ərazilərdə ilk dəfə seçkilərin keçirilməsi isti ocaqlarına yenicə qayıtmış sakinlərdə yüksək əhval-ruhiyyə yaradıb. Həmin sakinlərdən biri Səmayə Həsənovanın dediklərindən:

– Otuz ildən sonra doğma yurdumuzda seçkilərin keçirilməsi bizim üçün ən böyük hədiyyədir. Ona görə də həmin gün əsil toy-bayrama dönəcək. Hamımız bir nəfər kimi, qürur və iftixarla seçkilərdə iştirak edəcəyik. Axı, biz qalib ölkənin vətəndaşlarıyıq. Otuz ildən sonra prezident seçkilərində öz torpağımızda – Fizulidə səs verəcəyik. Şükürlər olsun Ulu Tanrıya bu xöbəxt günü görmək bizə nəsib oldu.

120 saylı Cəbrayıl – Qubadlı Seçki Dairəsinin 81 saylı seçki məntəqəsi Cəbrayıl rayonunun Soltanlı kəndində yerləşir. Seçki məntəqəsi seçki prosesinə tam hazıdır. Bütün hazırlıq işləri müvəffəqiyyətlə başa çatıb.

Məntəqə seçki komissiyasının sədri Malik Həsənov seçkiyə hazırlıqla bağlı dedi:

– Biz doğma yurdumuzdayıq. Sanki yeni həyata başlamışıq. Üstəlik, kəndimizdə ilk dəfə olaraq seçki keçirilir. Özü də böyük siyasi əhəmiyyətə malik prezident seçkiləri. Bu seçkilərdə həm xalqın , həm də dövlətimizin gələcək taleyi həll olunur. Ona görə də seçkilərin azad, demokratik, şəffaf keçirilməsi üçün bütün imkanlardan istifadə edirik. Ərazimizdə prezidentliyə namizədlərin təbliğat-təşviqatı üçün hər cür şərait yaradılıb. Bütün işimizi Seçki Məcəlləsinin və digər qanunvericilik aktlarının tələblərinə tam uyğun qurmuşuq. Artıq bildirişlər də paylanılıb. Kənddə münasib yerlərdə seçkiyə çağırış plakatları




asılıb. Seçicilər sanki bayrama, el şənliyinə hazırlaşırlar. Biz dünyaya sübut edəcəyik ki, Azərbaycan demokratik seçkilər keçirməyə qadir ölkədir.

İşaldan azad olunan Zəngilanda 3 seçki məntəqəsi yaradılıb. Rayonun Ağalı kəndində 875 nəfər məskunlaşıb. Onlardan 651 nəfəri aktiv səsvermə hüququna malikdir. 33 saylı Ağalı kənd məntəqə seçki komissiyasının sədri Vüqar Kərimov növbədənkənar prezident seçkilərinə hazırlıq barədə danışarkən dedi ki, kənddə hamı fevralın 7-sini böyük səbirsizliklə gözləyir. Məntəqə sədri daha sonra dedi:

– Seçki məntəqəsi ötən ilin dekabr ayında yaradılıb. Məntəqə seçki komissiyasının tərkibi formalaşdıqdan sonra fəaliyyətə başlamışıq. Komissiya üzvləri bilik və bacarıqlarını artırmaq, seçkinin gedişi zamanı baş verə biləcək hallarla tanış olmaq, yaranmış problemlərin aradan qal-



dırılması məqsədilə MSK tərəfindən təşkil olunmuş maarifləndirmə proqramları ilə bağlı keçirilən treninqlərdə yaxından iştirak ediblər. Məntəqəmiz bütün ləvazimatlarla tam təchiz olunub. MSK tərəfindən hazırlanmış metodiki vəsaitlərdın istifadə edirik və təlimatlarla yaxından tanış oluruq. Çalışacağıq ki, otuz ildən sonra ilk dəfə keçirilən seçkiləri yüksək səviyyədə başa vuraq. Ağalı kəndi işğaldan sonra öz sakinlərini birici qəbul edən ərazilərimizdəndir. Kəndimizə gələn əcnəbilər burada görülən işləri heyrətlə izləyiblər. Kəndimiz inkişaf etmiş rayonlardan heç də geri qalmır. Sakinlərin sevinci yerə-göyə sığmır. Ona görə də bu seçkilərdə bir nəfər kimi hamı iştirak edəcək. Seçkilırin yüksək səviyyədə, mütəşəkkil keçirilməsi üçün hər cür şərait yaradılıb.

Kənd sakini Gülnaz Həmidova sevincini gizlədə bilmədi:

– Kəndin bütün sakinləri böyük ruh yüksəkliyi ilə seçkilərə hazırlaşırlar. Biz səsverməyə alnıaçıq, üzüağ, coşqu ilə gedəcəyik. Çünki biz döğma kəndimizdə – Ağalıda səs verəcəyik.

125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsinin 65 saylı seçki məntəqəsində də fefralın 7- də keçiriləcək növbədənkənar prezident seçkilərinə hazırlıq işləri yüksək səviyyədədir. Məntəqə seçkiyə tam hazırdır.

121 saylı Laçın Seçki Dairəsinin 106 saylı seçki məntəqəsində 1485 seçici fefralın 7-sini böyük səbirsizliklə gözləyir. Məntəqə seçki komissiyasının sədri Qardaşxan Dostiyev dedi ki, seçki məntəqəsi seçicilərin yolunu gözləyir. Bütün ünvanlara bildirişlər paylanılıb. Sakinlər deyirlər ki, bildirişlərə ehtiyacımız yoxdur. Hamı səsvermədə iştirak etmək arzusundadır. Hətta ən yaşlı seçicilərimiz də səsvermədə şəxsən iştirak edəcəklərini bildiriblər. Deyirlər ki, belə bir günü səbirsizliklə gözləyiblər. Ona görə də seçkilədə mütləq iştirak edəcəklər.

125 saylı Zəngilan–Qubadlı Seçki Dairəsi üzrə seçkilər Zəngilan və Qubadlı rayonlarının işğaldan azad edilmiş ərazilərində yaradılmış 4 seçki məntəqəsində keçiriləcək. Həmin məntəqələrdən 3-ü Zəngilan, 1-i isə Qubadlı rayonu ərazisində yerləşir.

## Bir nəslin 95 nümayəndəsi eyni məntəqədə səs verəcək

***Şəkildə gördüyünüz adamlar Samuxun Nəbiağalı şəhərinin sakinləri, Namazovlar nəslinin az bir qismidir. Seçki məntəqəsinə gəlib öz adlarını seçici siyahısında axtarırlar. Eləsi var artıq bir neçə dəfə müxtəlif seçkilərdə öz səsvermə hüququndan istifadə edib. Eləsi də var ömründə ilk dəfə səsvermə qutusuna yaxınlaşacaq...***



Rayon mərkəzi olan Nəbiağalıda onları “Namazlılar” deyə çağırırlar. Əslində, bu, onların yaşadıqları məhəllənin adıdır. Namazovlar Samuxda tanınmış nəsildir. Onların arasında müxtəlif peşə sahibləri var: müəllim, həkim, fermer, fəhlə, sürücü... Hamısı mehriban, dövlətə və dövlətçiliyə sadiq, zəhmətkeş insanlardır.

101 saylı Samux–Şəmkir seçki dairəsinin sədri Bayram Qasımov deyir ki, Namazovlar seçkilərdə həmişə yüksək fəallıq göstəriblər. Onlara bildiriş kağızları göndərmək də lazım gəlmir. Həmin gün hamısı bir nəfər kimi, özü də səhər tezdən seçici məntəqəsinə axışır. Bu dəfə, fevralın 7-si günü daha mütəşəkkil olacaqları, səs verəcəkləri 2 saylı məntəqədə bir daha nümunə göstərəcəkləri indidən görünür.

**Əminə Cəfərova, 2 saylı məntəqənin sədri:**

– İnanırsınız, bəlkə də, hər gün gəlirlər, siyahıda dönə-dönə öz adlarına baxırlar, burada keçirilən tədbirlərdə iştirak edirlər.

Məntəqəmizdə səs verəcək seçicilərin, təxminən, 10 faizi Namazovlardır, bir nəslin nümayəndələridir. Hamısı yaxın qohumlardır. Ən böyüyü 90 yaşlı seçici Namazova Validə Nəcəf qızıdır. Ən gənci isə 18 yaşı yenicə tamam olan Namazov Ayaz Cahangir oğludur.

...Qeyd edək ki, prezident seçkiləri günü Namazovların 95 nümayəndəsi məntəqədə olacaq və öz layiqli namizədinə səs verəcək. Onların bir neçə nəfəri ilə görüşüb söhbət etdik.

**Kəramət Namazov, musiqi müəllimi:**

– Mən fəxr edirəm ki, Samuxda belə bir böyük nəslin nümayəndəsiyəm. Söhbət bizim başqaları ilə müqayisədə daha şaxəli nəsil olmağımızdan getmir. Namazovlar nəsli milli adət və ənənələri özündə qoruyub saxlayan, uşağından tutmuş ağsaqqalına kimi mentalitetə bir qanun kimi bağlı olan adamlardır. Səsvermə günü isə bu nizam-intizam həmişə özünü göstərib, bu dəfə də özünü göstərəcək, buna şübhəm yoxdur.

**Nəcəf Namazov, sahibkar:**

– Bu seçki əvvəlkilərdən seçilir. Ölkəmizin müstəqillik dövründə ilk dəfədir ki, torpaqlarımız, doğma Qarabağımız müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə yağı düşməndən alınıb özümüzə qaytarılıb. “Namazlılar məhəlləsi”ndə Şuşa da, Xankəndi də alınanda tonqallar qalandı, səhərədək onun ətrafından çəkilmədik. Əminəm ki, fevralın 7-də də məhəlləmizdə bu cür tonqallar şölələnəcək...

Bir vacib məqama da toxunaq ki, Namazovlar nəsli tez-tez bir yerə yığışır, tarixi bayramları, ad günlərini, digər əlamətdar hadisələri təntənə ilə qeyd edirlər. Rayon mərkəzində bu nəslin hansı nümayəndəsi ilə rastlaşdıqsa, fevralın 7-ni səbirsizlikə gözlədiklərinin şahidi olduq.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

***Samux rayonu***

*Səhifəni hazırladı:*
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Orta Dəhlizin inkişafına 10 milyard avro investisiya qoyulacaq

*(əvvəli 1-ci səhifədə)*

İqtisadi baxımdan səmərəli, siyasi cəhətdən isə xüsusi önəm daşıyan Orta Dəhliz Avrasiya regionunda son illər ən çox müzakirə olunan məsələdir. Çinin “Bir kəmər, bir yol” layihəsinin bir parçası kimi bu marşrut, eyni zamanda, tarixi İpək yolunun ən mühüm komponentlərindən biridir. Bu dəhlizin inkişafı istiqamətində Azərbaycan mühüm addımlar atmaqdadır. Belə ki, Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi, Zəngəzur dəhlizinin yaradılması bu yöndə görülən ən mühüm işlərdəndir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaydığı məlumata əsasən, Azərbaycanın səyi ilə son illərdə Orta Dəhlizin inkişafı istiqamətində bir sıra önəmli layihələr həyata keçirilib, ölkəmizin uzunmüddətli strategiyasının nəticəsi olaraq yükdaşımaların həcmi çoxalıb.

Yeri gəlmişkən, Azərbaycan tərəfindən reallaşdırılan layihələrin miqyası barədə aydın təsəvvür yaranması məqsədilə bəzi göstəriciləri diqqətə çatdırmaq istərdik. Belə ki, son 20 ildə respublikamızda 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib.

Hazırda 2017-ci ildə istifadəyə verilən və Orta Dəhliz vasitəsilə daşımalarda böyük əhəmiyyəti olan Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılması üçün əlavə infrastruktur işləri aparılır. Bundan əlavə əsas dəmir yolu və avtomobil yolları şəbəkələrinin kəsişməsində yerləşən Bakı Limanının ötürmə qabiliyyətini artıracaq növbəti fazasının tikintisi planlaşdırılır.

Azərbaycanın beynəlxalq ticarət bazarında rolunun gücləndirilməsi məqsədilə Ələt qəsəbəsində Azad İqtisadi Zona yaradılıb. Bundan əsas məqsəd isə yüksək gəlirli istehsal və ixrac fəaliyyətini, habelə innovativ texnologiyalarla investorların cəlb edilməsini reallaşdırmaq, iqtisadiyyatın dayanıqlı inkişafını və yeni iş yerlərinin yaradılmasını sürətləndirmək olub. Şübhəsiz ki, bütün bunlar yükdaşımalara müsbət təsir göstərib, eyni zamanda, Azərbaycanın qlobal nəqliyyat logistikasında mühüm tərəfdaş kimi potensialını gerçəkləşdirmək üçün perspektivli imkanları meydana çıxarıb. Nəticədə, 2023-cü ildə ölkə ərazisindən keçən yüklərin həcmi 2019-cu illə müqayisədə 162 faiz artaraq 5,1 milyon tondan 13,4 milyon tona yüksəlib. Həmçinin hesabat dövründə dəmir yolu ilə tranzit daşımalarının həcmi 2019-cu illə müqayisədə 76 faiz artaraq 3,8 milyon tondan 6,7 milyon tona, avtomobil nəqliyyatı ilə tranzit daşımalarının həcmi isə 2019-cu illə müqayisədə 391 faiz artaraq 1,3 milyon tondan 6,5 milyon tona yüksəlib.

Qeyd edək ki, belə yüksək göstəricilərin əldə edilməsi təkcə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı deyil. Bu, eyni zamanda, Orta Dəhliz vasitəsilə daşımaların səmərəliliyinin atırılması istiqamətində aparılan davamlı islahatların nəticəsidir. Belə ki, ölkə ərazisindən keçən təhlükəli tranzit yüklərə görə yol vergisi ləğv edilib. Paralel olaraq yük avtomobillərinin çəkisi üzrə minimum vergi güzəşt həddi 38 tondan 41 tona çatdırılıb ki, bu da yükdaşımanın inkişafına təkan verib. Avtomobil nəqliyyatı üçün dövlətlərarası kvotaların və icazələrin liberallaşdırılması da bu sahənin inkişafına müsbət təsir göstərib.

Bütün qeyd edilənlərlə bərabər, beynəlxalq daşımalarda iştirak edən avtonəqliyyat vasitələrinin sayının artması bu sahədə göstəricilərin davamlı yüksəlməsini şərtləndirib. Məsələn, 2023-cü ildə onların sayı 2021-ci illə müqayisədə 3,7 dəfə çoxalaraq 12,7 min ədədə çatıb. Avtomobil yollarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin ölçülərinə və çəkisinə dair tələblərin pozulması hallarının qarşısının alınması üçün elektron tərəzilərin tətbiqinə üstünlük verilib. Eyni zamanda, mövcud sərhəd-keçid məntəqələrinin infrastrukturu təkmilləşdirilməklə bərabər, yeni keçid məntəqələrinin açılması da gerçəkləşdirilib.



Sadalananlarla yanaşı, nəqliyyat əməliyyatlarının rəqəmsallaşdırılması ilə bağlı addımlar atılıb. Bu istiqamətdə nəqliyyat və logistika sahəsində fəaliyyətin şəffaflığını və sadələşdirilməsini təşviq etməklə proqnozlaşdırmanın, o cümlədən “ağıllı yük”lərin idarə edilməsinin səmərəliliyini, operativliyini və keyfiyyətini artıracaq Rəqəmsal Nəqliyyat Logistika İnformasiya Sisteminin hazırlanmasına başlanılıb.

Orta Dəhlizdə artan yük həcmlərini qarşılamaq məqsədilə Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının təşəbbüsü ilə Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, “Azərbaycan Dəmir Yolları” (ADY) QSC, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC və “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC kimi tranzit operatorlar arasında “Tranzit yüklərin daşınması zamanı əməliyyatların idarə olunmasının prosedur qaydaları” ilə bağlı müəyyənedici sənəd də imzalanıb. Bununla da Bakı Limanında gəmilərin iş vaxtının 60 faiz azaldılmasına nail olunub.

Orta Dəhlizin inkişafı istiqamətində ölkəmizdə bu gün də layihələr uğurla davam etdirilir. Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin layihə hissəsində müvafiq tədbirlər həyata keçirilir. Burada tikinti işləri yekunlaşdıqdan sonra dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da yüksələcəyi gözlənilir. Bundan başqa Orta Dəhlizin tərkib hissəsi olacaq və Azərbaycanı Türkiyə ilə birləşdirəcək Qars-Naxçıvan dəmir yolu xəttinin tikintisi üzrə işlər getdikcə sürətlənir. Türkiyə tərəfi uzunluğu 224 kilometr təşkil edəcək bu dəmir yolu xəttini 5 il ərzində istifadəyə verməyi planlaşdırır.

Horadiz-Ağbənd dəmir və avtomobil yollarının tikintisi üzrə işlər də uğurla davam etdirilir. Bu layihənin yaxın vaxtlarda başa çatdırılması nəzərdə tutulur. Sözügedən dəmir yolu xəttinin Qars-Naxçıvan (Osmanlı–Horadiz–Ağbənd–Naxçıvan–Qars) dəmir yolu ilə birləşdirilməsi ilə Azərbaycanın tranzit qovşağı yeni inkişaf mərhələsinə daxil olacaq.

***Vaqif BAYRAMOV***
***XQ***



## “Azərişıq” Kəlbəcərin elektrik şəbəkəsini bərpa edir

**“Azərişıq” ASC işğaldan azad edilən bütün ərazilərdə, o cümlədən Kəlbəcər rayonunda güclü yağan qar və şaxtaya baxmayaraq, dəniz səviyyəsindən 3000 metrdən çox yüksəklikdə yenidənqurma işlərini və fasiləsiz xidməti davam etdirir.**

ASC-dən verilən məlumata görə, qurumun əməkdaşları yağan qarın hündürlüyünün insan boyunu ötən ərazilərdə belə elektrik şəbəkəsinin transformatorlarını qardan təmizləyir, yeni quraşdırılan güc transformatorlarının işə salınması üçün tədbirlər görürlər.

Kəlbəcər rayonunun Zar-Zəylik kəndi ərazisində yerləşən 160 KVA-lıq transformatora gərginlik verilib, uçot komplekt qurulub və 0.4 kV-luq kabel çəkilib. Həmçinin Qarabağ RETSİ (Regional Enerji Təchizatı və Satışı idarəsi) Kəlbəcər elektrik şəbəkəsinin xidməti ərazisində yerləşən İstisu istiqamətində yeni çəkilmiş 35 kV-luq ÖİN (Özünüdaşıyan İzolyasiyalı Naqil) kabel xəttinə gərginlik verilib. Quraşdırılmış 160 KVA-lıq transformator montaj olunub və 0.4 kV-luq kabel xətti çəkilərək uçot komplekti quraşdırılıb.

“Azərişıq” ASC elektrik təsərrüfatının yenidən qurulması ilə bağlı işləri ölkənin bütün regionlarında paralel olaraq davam etdirir. Yaranan problemlərin mümkün qədər tez vaxtda aradan qaldırmağa çalışır.

## Qızıl satışı 7 faiz artıb

**“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) ötən ilin yekunlarına dair keçirilən mətbuat konfransında QSC üzrə hesabat dövründə yerli və beynəlxalq bazarlarda, ümumilikdə, 68,1 min unsiya qızıl və 119,8 min unsiya gümüşün satışının həyata keçirildiyi, 2022-ci illə müqayisədə ümumi qızıl satışında 7 faiz artım qeydə alındığı bildirilib.**



Konfransda ümumi satış həcmindən qızıl üzrə 62,1 min unsiyanın, gümüş üzrə isə 90,8 min unsiyanın beynəlxalq bazarlarda realizə olunduğu da vurğulanıb. Daxili bazarın tələbatına uyğun olaraaq xammal və hazır məhsul formasında 6 min unsiya qızıl, 29,1 min unsiya gümüşün satışı həyata keçirilib. Beləliklə, 2017–2023-cü illərdə ümumi satış göstəriciləri 416 min unsiya qızıl, 853 min unsiya gümüş təşkil edib.

Hesabat yığıncağında, həmçinin bildirilib ki, beynəlxalq, eləcə də yerli bazarlarda qızıl və gümüş satışı nəticəsində 233 milyon manat məbləğində gəlir əldə edilib. 2022-ci illə müqayisədə ümumi satış gəlirlərində 15 faiz artım qeydə alınıb. Bu vəsaitin 210 milyon manatını ixrac, 22,7 milyon manatını daxili satış gəlirləri təşkil edib.

**XQ**

# “Köhnəni ver, yenisini al”

## *Azərbaycanda “qoca” avtomobillərin dövranı bitir*

**Xəbər verildiyi kimi, fevralın 1-dən ölkə ərazisində avtomobillərin texniki baxışı zamanı utilizasiya haqqının ödənilməsi tələb olunacaq. Daha doğrusu, həmin vaxtdan etibarən nəqliyyat vasitələrinin dövlət texniki baxışının keçirilməsinin məqsədlərindən biri də utilizasiya haqqının ödənilməsi barədə sənədin olmasına nəzarəti təmin etmək olacaq.**

Bu məsələ Daxili İşlər Nazirliyinin Kollegiyasının “Nəqliyyat vasitələrinin texniki vəziyyətinə və onların təhlükəsiz hərəkətinin təmin edilməsinə Dövlət Yol Polisinin nəzarəti qaydaları barədə Təlimat”da etdiyi dəyişiklikdə əksini tapıb. Qeyd olunur ki, nəqliyyat vasitəsinə texniki baxışın keçirilməsi zamanı utilizasiya haqqının yalnız bank, poçt, plastik kart, elektron ödəmə sistemləri və ya internet vasitəsilə ödənilməsi də təmin olunmalıdır. Avtomobillərin utilizasiya haqqının məbləği, güzəşt məbləği və birdəfəlik ödənişin həcminin müəyyənləşdirilməsi ilə bağlı əsas prosedurlar başa çatıb. Hazırda proses son mərhələdədir. Yaxın günlərdə isə Nazirlər Kabineti bununla bağlı qərar qəbul edəcək.

Xatırladaq ki, “Tullantılar haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, avtomobil sahiblərindən utilizasiya haqqı iki halda alınacaq. Birinci halda fevralın 1-dən gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 il keçən minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) gömrük rəsmiləşdirilməsi zamanı utilizasiya haqqı alınacaq. Digər halda isə mütəmadi olaraq dövlət texniki baxışı üzrə utilizasiya haqqı ödəniləcək. Başqa sözlə, qanuna əsasən, avtomobillər istehsal olunduqları vaxtdan dörd il keçdikdə iki ildə bir dəfə, istehsal olunduqları vaxtdan on il keçdikdə ildə bir dəfə dövlət texniki baxışından keçməlidir. Bu zaman isə hər dəfə utilizasiya haqqının ödənilməsi tələb olunacaq.

Prezident İlham Əliyevin 27 yanvar 2024-cü il tarixli sərəncamı ilə güzəştin və birdəfəlik ödənişin maliyyələşdirilməsi, habelə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə “Tullantılar haqqında” Azərbaycan Respublikası Qanununun 14-3-cü maddəsinə və “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində “Nəqliyyat vasitələrinin utilizasiyası fondu” yaradılıb. Prezident sərəncamına əsasən, Maliyyə Nazirliyi və “Təmiz şəhər” Açıq Səhmdar Cəmiyyətinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Yeri gəlmişkən, köhnə, istifadəyə yararsız avtomobillər getdikcə müasirləşən yollarımızın estetik görünüşünə xələl gətirməklə yanaşı, ekoloji tarazlığın pozulmasına, eləcə də yol-nəqliyyat hadisələrinin artmasına səbəb olur. Son araşdırmalara görə, Azərbaycanda istismar olunan avtomobillərin 80 faizindən çoxunun istehsal tarixi 10 ili ötüb. Hətta bu gün ölkənin avtomobil yollarında ötən əsrin 70–80-ci illərində istehsal olunmuş nəqliyyat vasitələrinə də rast gəlmək mümkündür. Bütövlükdə isə, hazırda Azərbaycanda hər 20 avtomobildən biri həddindən artıq köhnəldiyindən istismara yararsız hesab olunur.



Ekspertlər bildirirlər ki, istehsal tarixi ötən əsrin 90-cı illərinə təsadüf edən avtomobillər belə, nasazlıq ucbatından tez-tez təmir sexlərinə gətirilir. Həmin maşınlar təmir olunsa da, onlar ölkənin nəqliyyat parkının yenilənməsinə əngəl törətməklə yanaşı, ekoloji tarazlığın pozulmasına, eləcə də yol-nəqliyyat hadisələrinin artmasına səbəb olur.

**Mirbağır YAQUBZADƏ**
**XQ**

### Ekspert rəyi



**Eldəniz CƏFƏROV,**
**avtomobil nəqliyyatı üzrə ekspert**

Köhnə nəqliyyat vasitələrinin utilizasiyası böyük bir sosial proqramdır. Bu layihəni həyata keçirmək o qədər də asan deyil. Bu tip layihələri, əsasən, iqtisadiyyatı dayanıqlı olan ölkələr reallaşdıra bilir. Azərbaycan da utilizasiya layihəsini həyata keçirə bilən ölkələr sırasındadır. Artıq bu məqsədlə ölkəmizdə utilizasiya fondu yaradılıb. Fevral ayının 1-dən Azərbaycana idxal olunan köhnə avtomobillərə görə digər rüsumlarla yanaşı, utilizasiya rüsumu da ödəniləcək. Bununla yanaşı, ölkə ərazisində istismar olunan köhnə avtomobillərin sahibləri texniki baxış zamanı müəyyən məbləğdə utilizasiya haqqı ödəyəcəklər.

Utilizasiya proqramının hazırlanması və onun həyata keçirilməsi ilə bağlı ilkin cizgilər 2018-ci ildə ölkə Prezidenti İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramı”nda təsbit olunmuşdur. Artıq həmin proqrama əsasən, bir neçə layihə həyata keçirilib. Məlum olduğu kimi, Nazirlər Kabineti yanında Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın alt qruplarında ekoloji təmiz nəqliyyat vasitələrinin ölkəmizə idxalı və vətəndaşlar tərəfindən ölkə daxilində istifadəsini stimullaşdırmaq üçün müxtəlif həvəsləndirici addımlar atılır. Bu baxımdan hazırlanmış xüsusi yol xəritəsi diqqət çəkir. Belə ki, sözügedən sənədə əsasən, ölkəmizə idxal olunan ekoloji təmiz nəqliyyat vasitələri rüsumlardan azad edilib. Onların istismarını stimullaşdıran bir sıra digər layihələr də həyata keçirilib. Eyni zamanda, ekoloji təmiz nəqliyyat vasitələri sayılan elektromobillərin infrastrukturu yaradılıb. Elektrikdoldurma məntəqələri üçün lazım olan cihazlar ölkəyə idxal olunan zaman bütün rüsumlardan azad edilib.

Bu gün vətəndaşları belə bir sual maraqlandırır: utilizasiya proqramının onlar üçün hansı müsbət və mənfi tərəfləri olacaq? Bu sualın cavabını verməzdən öncə qeyd etməliyəm ki, hazırda ölkəmizdə köhnə, istismara yararsız avtomobillərin sayı həddindən artıq çoxdur. Həmin avtomobillərin bir qismi müasir texniki təhlükəsizlik və sərnişindaşıma tələblərinə cavab vermir. Məsələnin ekoloji tərəfinə diqqət yetirəndə aydın olur ki, köhnə avtomobillər atmosferə həddindən artıq zərərli qazlar buraxır. Eyni zamanda, istismara yararsız bu tip avtomobillər uzun illər bir yerdə dayandığından onların parçalanmış ehtiyat hissələri, köhnə mühərrik yağları süzülərək torpağa hopur.

Təhlükəsizlik məsələlərinə gəldikdə isə, deməliyəm ki, sovet dövründə istehsal olunmuş avtomobillər bugünkü tələblərə cavab vermir. Ona görə də düşünürəm ki, ilk növbədə, bu tip avtomobillərin utilizasiyasına başlanılacaq. Sonrakı mərhələdə isə vətəndaşlar köhnə avtomobillərdən xilas olmağa çalışmalıdırlar. Yeri gəlmişkən, bu proses könüllü həyata keçiriləcək, heç kəsin avtomobili zorla əlindən alınmayacaq. Vətəndaş özü sərbəst şəkildə avtomobilini gətirib utilizasiyaya təhvil verəcək və bunun müqabilində ona müəyyən pul dəyərində vauçer veriləcək. Əgər vətəndaş yeni avtomobil almaq istəyərsə, həmin vauçerlə satış məntəqələrinə müraciət edib oradan müəyyən endirim əldə edəcək. Yeri gəlmişkən, artıq həmin endirimlə bağlı da qaydalar müəyyənləşdirilib. Belə ki, utilizasiya vauçeri ilə rəsmi dilerə yaxınlaşan vətəndaşa salon sahibi endirim etməlidir. Buna əməl etməyənlərə isə cərimə sanksiyaları tətbiq olunacaq.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 40** **Bakı şəhəri, 24 yanvar 2024-cü il**

***"Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 768 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına "say həddinin" sözlərindən sonra ", onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin)" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşına əlavələr, mükafatlar və digər ödənişlər)" təsdiq edilsin (əlavə olunur).";

1.3. 3-cü hissədə "10080 (on min səksən)" sözləri "31466 (otuz bir min dörd yüz altmış altı)" sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxs bu Qərardan irəli gələn məsələləri həll etsin.

**3** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 41** **Bakı şəhəri, 24 yanvar 2024-cü il**

***"Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1357 (Cild I) 3.2-ci bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 48** **Bakı şəhəri, 26 yanvar 2024-cü il**

***"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun tətbiqi və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2237 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 aprel tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 780 (Cild I) ilə təsdiq edilmiş "Xüsusi peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada peşə və ixtisaslara uyğun dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanmasında iştirak etmək;".

1.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. dövlət peşə təhsili müəssisələrinə müəllimlərin və istehsalat təlimi ustalarının işə qəbul və yerdəyişməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq qərarlar qəbul edir;".

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 may tarixli 224 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 958 (Cild I) ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada peşə və ixtisaslara uyğun dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanmasında iştirak etmək;";

2.2. 4.10.6-cı yarımbəndə "edilməsinə" sözündən sonra "(bu Nümunəvi Nizamnamənin 4.10.6-1-ci yarımbəndi nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 4.10.6-1-ci yarımbənd əlavə edilsin:

"4.10.6-1. dövlət peşə təhsili müəssisələrinə müəllimlərin və istehsalat təlimi ustalarının işə qəbul və yerdəyişməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq qərarlar qəbul edir;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 50** **Bakı şəhəri, 27 yanvar 2024-cü il**

***"Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı və yumşaq inventarlarla təmin olunması norması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı və yumşaq inventarlarla təmin olunması norması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1** Adında və 1-ci hissədə "Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin" sözləri "İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların" sözləri ilə əvəz edilsin.

**2** Preambulada "Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemindəki bütün tiplərdən olan internat məktəblərdə və uşaq evlərində tərbiyə olunan uşaqlar və yeniyetmələrin" sözləri "İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar və dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların" sözləri ilə əvəz edilsin.

**3** Həmin Qərarla təsdiq edilmiş "Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən pozuntusu olan uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı, yumşaq inventarlarla təmin olunması norması" yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 52** **Bakı şəhəri, 29 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə***

"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 866-VIQD nömrəli Qanununun tətbiqi və "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 may tarixli 2159 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1176 (Cild I) ilə təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"nin 12.3.10-cu yarımbəndinə "paylarına" sözündən sonra ", habelə kommersiya hüquqi şəxslərinin nizamnamələri və dövlət qeydiyyatı haqqında şəhadətnamələrinə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 54** **Bakı şəhəri, 29 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarının sağlamlığının mühafizəsi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 957 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarına (pensiyaya çıxmış əməkdaşlar da daxil olmaqla) və onların ailə üzvlərinə tibbi xidmətin göstərilməsi, o cümlədən xəstəliklərin profilaktikası, ilkin tibbi-sanitariya yardımı, təcili və təxirəsalınmaz tibbi yardım, ambulator-poliklinik və stasionar tibbi yardım, onların tibbi reabilitasiyası və sağlamlaşdırılmasının təmin edilməsi "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanının tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilsin.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar müvafiq vəsaitlərin hər il növbəti ilin dövlət büdcəsi layihəsinin tərtibi zamanı Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə razılaşdırılmış təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin saxlanılması xərclərinin tərkibində nəzərdə tutulmasını təmin etsin.

**3** Bu Qərar 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# AMEA – Azərbaycanın elmi yaddaş və intellektual məkanı

**I məqalə**

***Azərbaycan Milli Elmlər Akademiyası xalqın ümumi zəkasını, ağlını birləşdirən böyük bir sərvətdir. ...Elmlər Akademiyasının yaranması Azərbaycanın çoxəsrlik tarixində mühüm bir hadisədir.***

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

## "Elmi yaddaş" anlayışı

Ümumiyyətlə, "elmi yaddaş" anlayışını Pyer Noranın daxil etdiyi "yaddaş məkanı" anlayışının tərkib hissəsi kimi qəbul edirik. Fransa tarixşünaslığının canlı əfsanələrindən olan Pyer Nora "yaddaş məkanı" dedikdə toplumun tarixində xüsusi mədəni rol oynayan məkanları, böyük şəxsiyyətlərin, o cümlədən elm adamlarının fəaliyyətlərinin yaddaşda qalması üsulunu nəzərdə tuturdu.

Bu baxımdan hər bir xalqın mədəni, incəsənət, elmi, tarixi, siyasi və digər yaddaş yerləri (və ya məkanları mövcud olur). Bu, konkret xalqın keçdiyi tarixi təkamül yolu ilə bağlıdır. Daha əhəmiyyətlisi odur ki, "yaddaş məkanları" tarixin sınağından keçərək, kollektiv şüurda yerini tutmalıdır. Burada həm xalqın öz tarixinə, həm də özünə münasibəti sintez halında özünü göstərir. Xalqın zəkası "yaddaş məkanları"nı müəyyənləşdirir və onlara uyğun olaraq, inkişaf və tərəqqi yolunu seçir. Onu vurğulayaq ki, azərbaycanlı təfəkkürünün fəzilətliliyi Ulu öndərin ifadə etdiyi fikirlərin əsasında tədqiq olunmalıdır.

Heydər Əliyevin fikirlərində intellektin fəzilətliliyi əlaməti kimi başqa bir keyfiyyət yer almışdır. Bu, Azərbaycan fəlsəfi-elmi təfəkkür ənənəsində intellektin daim birləşdirici və inkişafetdirici rol oynaması ilə bağlıdır. Diqqət etsək, görərik ki, Ulu öndər daim cəmiyyətin inkişafını elmlə əlaqələndirir. Bütün fikirlərində elm bütövlükdə toplumun və dövlətçiliyin tərəqqisi kontekstində qiymətləndirilir. Burada hansısa şəxsin özü üçün elm öyrənməsi arxa plana atılır.



Aydındır ki, xalqın hansı dəyərləri tarixinin, elminin və mədəniyyətinin yaddaşı kimi görmək istəməsindən çox məqamlar asılıdır. AMEA-nın müasir mərhələdə vacibliyi baxımından bunun böyük əhəmiyyəti vardır. Bu məsələyə daha geniş aydınlıq gətirmək üçün Azərbaycanda elmi ənənənin nə dərəcədə "yaddaş məkanı" olaraq cəmiyyətdə və dövlət quruculuğunda yer aldığına baxaq.

## Azərbaycanda intellektin fəzilətliliyi və yaddaş

Ulu öndər Heydər Əliyev məsələnin bu aspekti ilə bağlı dahiyanə fikirlər söyləmişdir. Ümummilli liderin çox sayda fikirlərindən görünür ki, Azərbaycan xalqı daim zəkaya, elmə və təhsilə böyük önəm vermişdir. Azərbaycanda elm və təhsil adamlarına həmişə diqqət çox olmuşdur, onların el arasında nüfuzu yüksəlmişdir.

Ulu öndər öyrədirdi ki, azərbaycanlılar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq, elmi yüksək qiymətləndirmişlər: "Azərbaycan xalqı yüksək elmə, biliyə, savada malik olan xalqdır". "Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir". "Azərbaycan xalqı inkişaf etmiş xalqdır. Azərbaycan xalqı öz köklərinə görə zehni inkişaf etmiş xalqdır. Biliyə, inkişafa həmişə diqqət vermiş və bu yolla getmiş xalqdır."

Ulu öndərin Azərbaycan xalqı və dövləti üçün elmin yüksək dərəcədə vacib olduğunu konkret ifadə edən bu fikirləri tədqiqatlar üçün mayak rolunu oynamalıdır. Çünki burada həm tarixi həqiqət vardır, həm də bu həqiqətin adekvat dərki üçün çox əhəmiyyətli tövisyələr mövcuddur.

Heydər Əliyev, bütövlükdə, Azərbaycan xalqının tarixi təşəkkülünün elmi tərəfinə diqqət yetirməyi tövsiyə edir. Deyir ki, bu xalq kökündən ziyalıdır, qədimdən ziyalılıq onun tarixi təkamülündə aparıcı yer tutmuşdur. Bu, böyük tezisdir, həm də səsləyişdir, anlatmaqdır. Ulu öndər anladır ki, qədimdən Azərbaycanın müxtəlif sivilizasiyaların və mədəniyyətlərin kəsişmə məkanı olması, onu mədəniyyətinə, həyat tərzinə və düşüncə üsuluna o dərəcədə hopmuşdur ki, bütövlükdə, cəmiyyət elmi dünyagörüşü ilə formalaşmışdır. Burada, təbii ki, dinin təsiri inkar edilmir. Əksinə, dinin də rolunu elmi müəyyənləşdirməyə bir dəvət hiss olunur.

Digər məqam ondan ibarətdir ki, Azərbaycan xalqı inkişafı naminə daim elmə maraq göstərmişdir. Bunun üçün də azərbaycanlı təfəkkürü elmi-mədəni aspektdə başqa biliklərə həmişə açıq olmuşdur. Təfəkkürün açıqlığı müasir filosoflar tərəfindən intellektin fəzilətliliyinin əsas göstəricilərindəın biri kimi təqdim edilir. Deməli, qədimdən azərbaycanlıların təfəkkürləri fəzilətli olmuş, özündə mənəvi-əxlaqi fəzilətlə intellektual fəziləti sintez etmişdir. Bu məsələnin fəlsəfi əhəmiyyəti çox böyükdür və xüsusi araşdırılmalıdır.

Bundan başqa, Heydər Əliyev elmi fəaliyyəti həmişə cəmiyyət və dövlət üçün strateji dəyər kimi təqdim edir. Və bu zaman elmi düşüncənin birliyə, inkişafa və bəşəriliyə dəvətini ayrıca vurğulayır. Azərbaycan fəlsəfi-elmi təfəkkürü buna görə ənənəvi olaraq humanist, bəşəri və sülhpərvər istiqamətli olmuşdur. Bu, ümumiyyətlə, azərbaycanlı intellektinin fəzilətliyinin, onun zehni faktor kimi "xeyirxahlığı"nın maraqlı əlamətlərindən biridir. Bu problem də ciddi araşdırılmalıdır.

Məsələnin fəlsəfi-nəzəri təhlili üzərində çox geniş dayanmaq imkanı yoxdur. Ancaq aydındır ki, elmi təfəkkür və onun əsas funksiyası olan elmi araşdırma mədəniyyəti qədimdən Azərbaycan toplumunun həyat fəaliyyətinin atributu olmuşdur! Ulu öndər öz fikirləri ilə bunu dolğun ifadə etmişdir.

Bunlardan Azərbaycanda akademik elmi tədqiqatların tarixinə qısa nəzər salmaq üçün təbii maraq yaranır. Bu məsələnin üzərində bir qədər geniş dayanaq.

## Azərbaycan – zəngin akademik tədqiqatlar ölkəsi

VI əsrdə artıq Yunanıstanda "Beşinci akademiya" (neoplatonizim dönəmi) mövcud idi. Lakin 529-cu ildə Bizans imperatoru Yustinian Afinada bütün fəlsəfi məktəbləri bağladı. İoann Malala bu prosesi belə təsvir edir: "529-cu ildə...Afinaya əmr göndərildi ki, fəlsəfəni heç kəs tədris etməsin, qanunu izah etməsin...". 531-ci ilin sonu 532-ci ilin əvvəllərində Afina Akademiyasının rəhbəri Dəməşqin başçılığı ilə 7 filosof indiki Azərbaycanın da daxil olduğu siyasi-coğrafi və mədəni məkana qaçdı. Lakin 532-ci ilin sonunda yenidən Roma imperiyası ərazisinə qayıtdılar.

Qısa müddətdə olmasına baxmayaraq, yunan fəlsəfə və elm adamlarının Azərbaycanın yerləşdiyi coğrafi və mədəni məkana gəlməsi və özləri ilə özəl fəlsəfi düşüncəni, məntiqi və elmi yunan yanaşmasını gətirməsi tarixi bir dönüşə – geniş ərazidə akademik tədqiqatlar ənənəsinin yaranmasına təkan verdi! Faktlar bunu sübut edir.

"Akademikləşmə" prosesinin özünün "yeni coğrafi və mədəni" məkanında sürətlə getməsi təsadüfi deyildi. Məsələ ondan ibarətdir ki, həmin dövrdə də Şərqdə ciddi elmi ənənə və ondan qaynaqlanan təfəkkür tərzi mövcud idi. Hətta xristian fəlsəfi təfəkkürünün qaynaqlarından olan Müqəddəs Avqustin elmi fəaliyyətinə maniçi kimi başlamışdır. Maniçilik III əsrdə meydana gəlmiş və geniş yayılmış bir fəlsəfi-dini cərəyan idi. Hər bir halda Şərqin və o cümlədən, Yaxın Şərq və Qafqazın yunan akademik məktəblərinə həssaslığı öncədən bu ərazilərdə elmə böyük canatmanın və regionun zəngin fəlsəfi, dini və elmi araşdırma ənənəsinə malik olması ilə sıx bağlıdır.

*(ardı 9-cu səhifədə)*

Məhəmməd Əmin Rəsulzadə – 140

# Məhəmməd Əmin Rəsulzadənin azərbaycançılıq məfkurəsi

**Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik ideallarının gerçəkləşməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində o müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır.**



Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin imzaladığı 30 dekabr 2023-cü il tarixli sərəncamda belə bir dəyərlənmə yer alır.

Biz 2006-cı ildə çap olunmuş "Azərbaycançılıq" kitabının qara cildində ac hərflərlə həkk etmişik: "Azərbaycançılıq türkçülüyün "vətən əxlaqı" müstəvisində dərkidir".

Hər bir xalqın tarixində onun yalnız özünə məxsus həqiqətlər yer alanda tarix ədalətli hakim olur, həmin xalqa və millətə, onun istiqlalına xidmət edə bilir. Məhəmməd Əmin Rəsulzadənin tarixi şəxsiyyət, ədib və ictimai xadim kimi dünyagörüşü istiqlal məfkurəsinin zəngin, fəqət, böhranlı, qalmaqallı XX əsrdə formalaşmışdır.

XIX əsrin son çərəyində və bütün XX əsr boyu Azərbaycan mütəfəkkirlərini düşündürən bəşəri problem türkçülük, islamçılıq və azərbaycançılıq arasındakı münasibət olub. Türk milləti, islam ümməti və Azərbaycan məmləkəti ideologiya konsepsiyamızın baş xətti, əsas şüarı məhz bu olmalıdır. Fəqət, bu gün milli ideologiyamızın üç təməli kimi dəyərləndirdiyimiz bu vəhdətin hər bir tərəfi tarixin müxtəlif çağlarında təzyiqə, məhvə məruz qalıb. Türkün və islamın düşmənləri onu daxildən parçalamaq üçün xüsusilə, Rusiyani imperiya kimi formalaşdırmış I Pyotrun məxfi "Vəsiyyətnamə"sindən sonra –1738-ci ildən ardıcıl fəaliyyət göstərmişlər. 1071-ci ildə tarixi Malazgird döyüşündə qüdrətli Bizans imperatorunu məğlub edən Səlcuq İmperiyasının başçısı Sultan Alp Arslan Anadoluya İslam bayrağı sancmaqla Türk–İslam birliyinin pozulmaz tarixi vəhdətini yaratdi. Türk-İslam birliyinə sonrakı təzyiqlər bu vəhdəti sarsıda bilmədi. Həttə 70 il hökm sürmüs bolşevik terroruna baxmayaraq, heç bir qadağa xalqın mənəvi yaddaşından həmin tarixi vəhdəti pozmağa nail olmadı. Lakin məhz XIX əsrin əvəllərindən, Azərbaycan, İran və Rusiya arasında işğal yolu ilə bölündüyü məsum dövrdən azərbaycançılıq milli təfəkkürü məşğul edən başlıca qayə olaraq qalırdı.

1804-cü ildə Gəncə, 1806-cı ildə Bakı ruslar tərəfindən işğal olunandan sonra 1809-cu ildən yaradılan xəritələrdə Arazın şimalından Azərbaycan sözü silindi və Qafqaziya termini ilə əvəz olundu. Hətta 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay işğal aktlarında Azərbaycan adı işlədilməyib. Türkçülüyün atası Z.Göyalpın sözləri ilə desək, "Rusiyadakı iki böyuk türkçü" – M.F.Axundzadə və İsmayıl bəy Qaspıralı öz "Tərcümən" məcmuəsi ilə türkçülüyü təbliğ edir, XX əsrin əvvəllərində isə "Hüseynzadə Əlibəy İstanbuldan və Ağaoğlu Əhmədbəy Parisdən Bakıya gəlmiş və orada fikir savaşı üçün əl-ələ vermişdilər. Topçubaşov da bunlara qoşuldu. Bu üç səxs o zamana qədər hakim olan sünnilik və şiəlik anlaşılmazlıqlarını ortadan qaldıraraq türkçülük və islamçılıq fikirləri çevrəsində – ətrafında bütün azərbaycanlıları toplamağa çalışdılar". (Z.Göyalp. "Türkçülüyün əsasları", Bəki, "Maarif", 1991, s. 29). Belə bir vaxtda iki böyük səxsiyyət Cəlil Məmmədquluzadə və M.Ə.Rəsulzadə türkçülük və islamçılıqla müvazi olaraq azərbaycançılıq ideyasını da irəli sürdülər. "Molla Nəsrəddin" əsl azərbaycançılıq ensiklopediyası idi.

M.Ə. Rəsulzadə yaradıcılığında azərbaycançılıq – "Azərbaycan qayəsi" başında "Müsavat"ın dayandığı milli hərəkat isə "Azərbaycan milli hərəkatı" kimi məna kəsb etdi. Onun görüşlərində azərbaycançılıq intensiv olaraq 1913-cü ildən sonra başlanır. Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar verilən əfv fərmanandan sonra M.Ə. Rəsulzadə mühacirətdən Vətənə qayıdır. Əsası hələ 1911-ci ildə üç keçmiş Hümmətçi tərəfindən qoyulan "Müsavat"a daxil olaraq milli məsələ ilə məşğul olmağa başlayır. Doğrudur o, hələ 1911-ci ildə İstanbulda "Türk yurdu" məcmuəsinin 4-cü sayında çap etdirdiyi "İran türkləri" məqaləsində Cənubi Azərbaycanın əhali və ərazisindən bəhs edərkən Qafqaz Azərbaycan məsələsini də qaldırır. Yeri gəlmişkən, tarixi-obyektivlik naminə deməliyəm ki, azərbaycançılıq ideyası hələ M.Ə.Rəsulzadədən xeyli əvvəl də mövcud idi. Belə ki, 1890-cı ilin yanvarında "Tərcüman" qəzetində, həmin il noyabrın 16-da isə "Kəşkül"də "Azərbaycan" imzası ilə məqalələr çap olunmusdu. 1891-ci il mayın 1-də "Kaspi" qəzetində Məhəmmədağa Sahtaxtlının "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" məqaləsində bu xalqı "azərbaycanlı" adlandırmaq tələbi irəli sürülürdü. Belə faktları artırmaq da olar. Fəqət, bu mülahizələr hələ təkdənbir idi, azərbaycançılıq qayəsini tarixi-siyasi ideya kimi formalaşdıran bədii yaradıcılıqda C.Məmmədquluzadə və M.Ə.Sabir, publisistikada "Əkinçi", elmi siyasətdə M.Ə.Rəsulzadə olmuşdur. XX əsrin əvvəllərində azərbaycançılığa ehtiyac doğuran obyektiv tarixi səbəblər və şərtlər var idi. Təfsilata varmadan onları belə ümumiləşdirmək olar. Birinci, əsrin əvəllərində neft burjuaziyasının sayəsində Bakı Qafqazda yeganə dünya şəhəri səviyyəsinə yüksəlmisdi. Bu status XIX əsrdə çar rus imperiyasının departamentləri yerləşən, rus imperiyasının Şərq siyasətinin baş qərargahı olan Tiflisdən Bakıya keçmişdi. Yerli burjuaziya təkcə iqtisadi məsələləri yox, millətin taleyi, təhsil və mətbuatla maraqlanır, xalqın dünyəvi səviyyədə maariflənməsinə güclü maddi yardım göstərirdi. Məsələn, milyonçu və mesenat H.Z.Tağıyev Azərbaycan həyatının böyük reformatoru kimi fəaliyyət göstərirdi. İkincisi, XIX əsrdən formalaşan maarifçilik və XX əsrdə burjuaziyanın milli bədii maraqların ifadəçisi kimi meydana çıxmış romantizm diqqəti konkret olaraq bu xalqın və Vətənin taleyinə yönəltdi. Üçüncüsü, XX əsrdə baş vermis dünya müharibəsi və 1905-ci il fevral inqilabları milli hissi gücləndirdi, diqqəti Vətənin istiqlal məsələsi üzərində cəmləşdirdi. Bu amillərə heç də az əhəmiyyət kəsb etməyən 1905 və 1918-ci il Baki erməni-müsəlman qırğınlarını da əlavə etmək olar.

M.Ə.Rəsulzadə və digər mütəfəkkirlərin görüşlərində azərbaycançılıq ideyası belə bir tarixi-ictimai kontekstdə meydana çıxmışdı. Bu, əslində Azərbaycan anlayışının olub-olmaması məsələsinə qarşı işlənilən güclü istiqlal konsepsiyası idi. Təsadüfi deyil ki, nəinki Qafqaz Azərbaycanında, hətta onun sərhədlərindən kənarda da milli düşmənlər bu ideyanı süngü ila qarşıladılar. Məsələn, Tehranda Məlikişşüəra Bahar "İran" qəzetində çıxış edərək M.Ə.Rəsulzadənin "Azərbaycan qayəsi", "Azərbaycana muxtariyyət" ideyalarını kəskin tənqid edərək bildirdi ki, "Azərbaycan adını yalniz Araz çayının cənubundakı ərazi daşıyır".

M.Ə. Rəsulzadə 1917-ci ildə "Açıq söz" qəzetində həmin müəllifə üç dəfə cavab yazıb Azərbaycan anlamının varlığını müdafiə etdi. Bu məsələni o, milli məsələ ilə vəhdətdə işləmtişdir. Hələ 1914-cü ildə görkəmli şair və jurnalist Əlabbas Müznibin nəşr etdirdiyi "Dirilik" jurnalına yazdığı "Dirilik nədir?" adlı baş məqalədə, habelə "Milli dirilik" adlı silsilə məqalələrində M.Ə.Rəsulzadə Azərbaycan milli intibahının əsas aspektlərini işləyib hazırlamışdı. 1918-ci il 28 may İstiqlal Bəyannaməsi ilə Azərbaycanın bir xalq kimi varlığı bəşəriyyətə elan olundu, əsrin milli mücahidləri milli dövlətin yaranması ilə nəticələndi. Bir ay sonra – iyunun 17-də Azərbaycan Milli Şurasındakı nitqində M.Ə.Rəsulzadə demişdi: "Dünya müharibəsi və Rusiya inqilabının təsiri ilə əkiz doğulmuş və həyat siyasətinə ilk qədəm basmış olan Azərbaycan qayəsi əhatə olunmaz mühüm dəqiqələr keçirir" ("Azərbaycan" qəzet, 1918, № 41).

1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təntənəli açılışında söylədiyi nitqində, M.Ə.Rəsulzadə demişdir: "Sağdan bizə deyirlər ki, azərbaycançılıq şüarı ilə siz müsəlmanları parçalayırsınız, türkçülük bayrağı qaldırmaqla siz İslamın əsasını sarsıdırsınız. Soldan isə bizi məzəmmət edirlər ki, Azərbaycan muxtariyyətini tələb edərək biz vahid demokratik cəbhəni yarırıq... müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmisdir... Bir dəfə yüksələn bayraq, bir daha enməz" ("Azərbaycan" qəzeti, 13 dekabr 1918).

Göründüyü kimi, əsrin əvvəllərində məhz azərbaycançılıq başlıca istiqlal ideyası idi. İndi XIX əsrdən ötən 200 ildə, XX əsrin sonu və XXI əsrin əvvəllərində istiqlal ideologiyamızın təməlində türkçülük və islamçılıq dayanan - azərbaycançılıq olmalıdır. 2023-cü il sentyabrda Şimali Azərbaycanın suverenliyi tam bərpa olundu.

M.Ə. Rəsulzadə irsində azərbaycançılıq ideyası millətçilik anlamı ilə eyni kontekstdə daha aydın görünür. Vətəndaş üçün Vətən maddi-coğrafi varlıq, millətçi üçün isə mənəvi-siyasi varlıqdır. "Millətçilik - patriotizm" (Ankara, 1952) məqaləsində oxuyuruq: "Millət etnik bir anlayış ikən milliyyət siyasi bir anlamdır.

..Milliyyət müəyyən şərtlər və hadisələr nəticəsində vücudə gəlmiş statik bir varlıqdır; millət isə bu statik varlığın şüurlaşan, fəal bir şəklidir.

Statik bir keyfiyyət əxz edən milliyyət baxımından Vətən coğrafi bir anlamdır. Halbuki süur və iradəyə malik olan millət baxımından Vətən siyasi bir məna ifadə edir".



Beləliklə, M.Ə.Rəsulzadənin siyasi-ideoloji görüşlərində azərbaycançılıq vətənçilikdən geniş siyasi bir anlayışdır. Fikrimizcə, azərbaycançılıq istiqlal ugrunda mübarizə aparan millətin birlik forması, öz keçmişinə və dünyaya vahid münasibət üsuludur. Təsadüfi deyil ki, M.Ə.Rəsulzadə yazır: "Avropalıların patriot termini ilə ifadə etdikləri anlam bizim millətçi sözü ilə anlatmaq istədiyimiz sözün eynidir". Beləliklə, onun görüşlərində millətçilik şovinizmdən yüksəkdə duran, vətənsevərlik, vətənkeşlik qaynağından – azərbaycançılıqdan doğulan tarixi-siyasi bir anlayışdır. Millətçiliyin əsasında milli birlik, milli istiqlalçılıq dayanır. Ona görə də azərbaycançılıq istiqlal ideologiyasıdır. "Milli əxlaq" (1952) məqaləsində isə mütəfəkkir milli birliyin qorunmasını – milli əxlaqın başlıca şərti hesab edir. Ona görə: "Azərbaycan istiqlalının kökü azəri türkünün çarizmə qarşı davam etdirdiyi milli kültür mübarizəsidir. Bu mübarizəni o, təkbaşına deyil, özüylə eyni bəlaya mübtəla olan digər türk elləri ilə bərabər olaraq davam etdirməlidir".

M.Ə.Rəsulzadə ömrünün bütün mərhələlərində azərbaycançılıq ideyasına sadiq qalmış, əsərlərində dönə-dönə bu ideyanın əsası kimi milli birlik və istiqlalçılığı izah etmişdir. Türkiyədə 1923-cü ildə çap olunmuş "Azərbaycan Cümhuriyyəti" kitabında azərbaycançılığı "istiqlal məfkurəsi" kimi mənalandıran müəllif yazır: "Azərbaycan dövrü – istiqlalına bolşeviklər MÜSAVAT dövrü deyirlər. Fəqət xalq buna AZƏRBAYCAN dövrü deyir: ... Xalq düşüncəsində AZƏRBAYCAN məfhumu coğrafi bir mənadan ziyadə, fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün bir AZƏRBAYCAN yoxdur". ("Azərbaycan Cümhuriyyəti", Bakı, Elm, 1990, s. 95).

Azərbaycançılıq M.Ə.Rəsulzadənin dünyanın müxtəlif dillərində çap olunmuş onlarla kitabının və yüzlərlə məqaləsinin, publisistik və bədii əsərlərinin mərkəzindən keçən ana xətt – istiqlal işığıdır. Təsadüfi deyil ki, Ankara Universitetinin tibb fakültəsinin klinikasında şəkər xəstəliyindən yatan böyük azərbaycançı qürbətdə əzablarla dolu mənalı ömrünün sonlarında – 1955-ci il martın 6-da gecə saat 11-ə 10 dəqiqə qalmış 3 dəfə – AZƏRBAYCAN, AZƏRBAYCAN, AZƏRBAYCAN deyərək, həsrətlə dünyasını dəyişir. Bu, sonrakı nəsillər üçün çox ibrətamiz bir taledir.

**Nizaməddin ŞƏMSİZADƏ,**
**filologiya elmləri doktoru,**
**professor**

# Bir kərə yüksələn bayraq yaddaşlardan enmədi

## *AXC hökumətinin ilk qərargahında konfrans*

**Milli Azərbaycan Ədəbiyyatı Muzeyində görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyinə həsr olunmuş elmi-təcrübi konfrans keçirilib.**



Konfransı giriş sözü ilə açan muzeyin direktoru, akademik Rafael Hüseynov bildirdi ki, 1918-ci ilin sentyabrında AXC hökuməti Gəncədən Bakıya köçəndə rəhbərlik ilk vaxtlar "Metropol" mehmanxanasında – indiki Ədəbiyyat Muzeyində yaşayıb işləmişdilər. Milli hökumətin iclasları keçirilmiş, indi "İstiqlal" adlandırılan bu salonda M.Ə.Rəsulzadənin 140 illiyinin qeyd edilməsi tarixin məntiqidir. Sonra akademik Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin həyat və fəaliyyəti, milli istiqlal uğrunda apardığı mübarizə, ictimai-fikir tariximizdə yeri və rolu barədə ətraflı məlumat verdi.

Muzeyin direktoru daha sonra XIX əsrin sonu XX yüzilliyin əvvəllərində Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlər yetişdirdiyini vurğulayaraq həmin insanların indiki nəsillərə örnək olan mübarizə yolunun önəmini vurğuladı. O qeyd etdi ki, 19 yaşında siyasət aləminə gələn M.Ə.Rəsulzadə tezliklə istiqlal düşüncəsi, azadlıq eşqi ilə mübarizələrin ön cərgəsinə çıxmışdı. Bu istiqlal aşiqi ictimai mühitə ədəbi, poetik düşüncə ilə gəlmişdi. "Bir kərə yüksələn bayraq bir daha enməz" deyərkən M.Ə.Rəsulzadə istiqlal düşüncəsini nəzərdə tutmuşdu. Onun 1920-ci ildən sonrakı bütün fəaliyyəti ondan ibarət oldu ki, mühacirətdə istiqlal işığını sönməyə qoymadı.

Yubiley məclisində Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Əməkdar rəssam Rais Rəsulzadə babasının siyasi fəaliyyətinə görə bütün qohumlarının əziyyət çəkdiyini, güllələndiyini, sürgünlərdə yaşamağa məhkum edildiyini vurğuladı. O, atası Azər Rəsulzadə ilə bağlı xatirələrini dilə gətirdi. Bildirdi ki, ötən əsrin 90-cı illərində atası 20 Yanvar faciəsinin qurbanlarını ziyarət edərkən təsadüfən Şəhidlər xiyabanında Heydər Əliyevlə görüşüb. Ümummilli lider həmin vaxtda Naxçıvan Ali Məclisinin sədri idi və Azər Rəsulzadəni Naxçıvana dəvət edib, hər cür şərait yaradacağına söz verib.

Konfransın davamında elmi işçi, Nəcibə Bağırzadə "Məhəmməd Əmin Rəsulzadənin ədəbiyyatla bağlı araşdırmalarında Azərbaycan davası", doktorantura və elmi inkişaf şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Sevinc Heydərova "Nizami Muzeyinin ekspozisiyasında Cümhuriyyət irsi", yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Göyərçin Mustafayeva "Tatar tarixçisi Bulat Sultanbekov Məhəmməd Əmin Rəsulzadə haqqında" məruzələrlə çıxış etdilər.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, İctimai-Siyasi Sənədlər Arxivinin "Beynəlxalq əməkdaşlıq, tərcümə və ictimai əlaqələr" bölməsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Şəhla Abdullayeva isə öz məruzəsində M.Ə.Rəsulzadənin repressiyaya məruz qalmış ailə üzvlərinin həbs və sürgün həyatı haqqında yeni faktları iştirakçılarının diqqətinə çatdırdı. Muzeyin tərtibatçı rəssamı Leyla Məmmədova Məhəmməd Əmin Rəsulzadənin yeni heykəlinin hazırlanması üçün eskizlərini təqdim etdi.

Sonda akademik Rafael Hüseynov Məhəmməd Əmin Rəsulzadənin Nizami Gəncəvi yaradıcılığı haqqında 1941-ci ildə yazdığı "Azərbaycan şairi Nizami" kitabı haqqında fikirlərini söylədi. Bildirdi ki, nə qədər ki, Azərbaycan var, üçrəngli bayrağımız dalğalanır Rəsulzadə xalqımızın qəlbində həmişə yaşayacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

# AMEA – Azərbaycanın elmi yaddaş və intellektual məkanı

**(əvvəli 8-ci səhifədə)**

Bu əlamət özünü Azərbaycan da daxil olmaqla geniş ərazidə akademik araşdırmalarda yunan fəlsəfi-elmi məntiqi ilə Şərq araşdırma özəlliyinin sintezində tapdı. O cümlədən, indiki Azərbaycan ərazilərində meydana gələn akademik məktəblərdə humanitar və təbiət elmlərinin həm tədqiqində, həm də tədrisində özünü göstərmişdir. Bu bağlılıqda Heydər Əliyevin ifadə etdiyi aşağıdakı fikirlər çox maraqlı və əhəmiyyətlidir. Ulu öndər III minilliyin gəlişi ilə bağlı xalqa müraciətində vurğulamışdır: "...Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştlik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur...".

Bu fikirlərin çox mənaları vardır. O cümlədən, Ulu öndər ifadə edir ki, Azərbaycanda elmi tədqiqatların tarixi çox qədimdir və onun bir qolu yunan-Roma fəlsəfi-elmi xüsusiyyətlərinə gedib çıxır. Digər qolu isə Azərbaycanın mədəniyyət və elm məkanı kimi özəllikləri ilə əlaqəlidir. Buna görə də tədqiqatçılar yazırlar ki, qədim dövrlərdən Azərbaycanda təbiət elmləri ilə humanitar və tibb elmi qarşılıqlı əlaqədə araşdırlmışdır. Bu isə müasir akademik tədqiqatlar üçün xarakterik olan xüsusiyyətdir.

Yunan akademik düşüncə tərzinin Azərbaycanın ərazisinə sirayət etməsi ilə VI-IX əsrlərdə elmin sürətli inkişafı üçün münbit şəraitin formalaşmasına səbəb olmuşdur. Və artıq IX əsrdə yeni elmi mərkəzlər şəbəkəsi yaranmağa başlamışdır. Bu prosesi ümumiləşdirsək, deyə bilərik ki, Orta əsrlərdə İsfahan, Təbriz, Şamaxı, Marağa, Naxçıvan, Həmədan, Ərdəbil, Xoy, Urmiyə və digər yerlərdə çox sayda elmi tədqiqat mərkəzləri formalaşmışdır. Həmin mərkəzlər arasında elmi təcrübə mübadiləsi də mövcud olmuşdur. Bunu tarixi mənbələrdəki faktlar göstərir.

Nəticədə, Azərbaycanda akademik araşdırma mədəniyyəti yeni səviyyəyə yüksəlmiş və bu, bütövlükdə, elmi istiqamətlərin strukturlaşması, təşkili və inkişaf etdirilməsinə ciddi təkanlar vermişdir. Bununla demək olar ki, artıq XII-XIV əsrlərə vahid Azərbaycan akademik araşdırma şəbəkəsi formalaşmış idi.

Vurğulanmalıdır ki, XIII əsrdə Təbrizdə "Rübi-Rəşidi" Akademiyası təşkil edilmişdir. Burada təbiət elmləri, riyaziyyat, tibb, həndəsə və humanitar elmlər üzrə elmi tədqiqatlar aparılmışdır. Bu struktur müasir akademiyaların strukturuna çox bənzəyir.

Çox əhəmiyyətlidir ki, həmin dövr Azərbaycan elmi mərkəzləri yalnız regioal miqyasda deyil, dünya miqyasında diqqəti cəlb etmişdir. Nəsirəddin Tusinin məktəbində hətta uzaq Çindən gəlmiş alimlər tədqiqat aparmışlar. Sonra onlar vətənlərinə qayıdaraq Tusi modelinə uyğun tədqiqat məktəbləri yaratmışlar.

Sonrakı əsrlərdə Azərbaycanda akademik araşdırma mədəniyyəti daha da inkişaf etmiş və tendensiyadan davamlı inkişaf edən yaradıcılıq üsuluna çevrilmişdir.

## AMEA elmi yaddaşın milli sərvətə çevrilməsi yolunda: müasir mərhələ

Bütün bu faktlar nəyi ifadə edir? Hər şeydən öncə, Azərbaycanda qədimdən akademik tədqiqatların aparıldığını fakt kimi qəbul etməklə yanaşı, yaradıcılıqda xüsusi ənənə olaraq dərk etmək zərurətini ortaya qoyur. Bunun elmin təşkili və idarəedilməsi aspektində anlamlarından biri ondan ibarətdir ki, AMEA-nı bağlamaq fikrinə düşənlər və "bu struktur nə etmişdir ki?" kimi sual verənlər nəyi baltaladıqlarının fərqinə varsınlar. Azərbaycan elə bir elmi-mədəni məkandır ki, akademik araşdırmalar onun yaradıcılıq potensialının nüvəsini təşkil edir. Bu nüvəni məhv etmək, özünü məhv etməkdir! Və burada heç bir bəhanə keçərli deyil – nə liberalizm nağılı, nə antisovetizm radikal mövqeyi, nə Qərb nümunəsində elmi fəaliyyəti "müasirləşdrmək" bəhanəsi ilə olanı da dağıtmaq aqressivliyi, arqument deyildir. Təbii ki, elmi fəaliyyətin səmərəsini artırmaq üçün islahatlar zəruridir, lakin bunu ölkədə akademik tədqiqat ənənəsinə zərər verməklə etmək qətiyyən olmaz. Həm də AMEA indiki fəaliyyəti ilə sübut edir ki, müstəqil dövlətin inkişafı üçün çox böyük işlər görə bilər və elmi müasirləşmə hər kəsdən öncə bu strukturun çiyinləri üzərində mümkündür.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

Əli Tudə – 100

# Güney istiqlalının nəğməkarı

**Vətəndə qürbət taleyi yaşamış mübariz şair, Əməkdar incəsənət xadimi Əli Tudə ömrü boyu bütöv və azad Azərbaycan arzusu ilə yaşayıb. 100 il əvvəl Bakıda dünyaya göz açsa da, əslinin-kökünün ünvanı olan Ərdəbilin Çanaxbulaq kəndinin ruhunu yaşadıb varlığında, şair qələmi ilə xalqın çoxəsrlik birlik amalının alovunu sönməyə qoymayıb.**



Yardımlı rayonunda da Çanaxbulaq adlı kənd var. Zirvəsindən baxanda Savalan görünən ata yurduma hər gedəndə, qohum-əqrabanın şirin Ərdəbil–Yardımlı ləhcəsində danışmalarını dinlədikcə 100 yaşlı adaşımı xatırlayıram. Şairin oğlu – uzun illər Azərbaycan televiziyasında birlikdə çalışdığım Natiq Cavadzadə ilə söhbətlərimizdə bu məqamı dəfələrlə vurğulamışam.

Uşaq ikən valideynlərini itirən Əli nənəsinin yanında böyüyüb. Tanrı sanki ona yetimliyin əvəzində istedad verib. İlk şeirləri 13 yaşında qəzetlərdə çap olunub. Amma bu fərəh uzun çəkməyib, 30-cu illərin repressiya dalğaları onların da talelərini, yollarını dəyişir. Əli nənəsi ilə birlikdə İrana – Azərbaycandan sürgün edilib. Mühacir həyatı onun tale payı olub.

Cənubda da gənc şair təbəddülatlar yaşayıb. Savalanın ətəyindəki Çanaxbulaq kəndində təsərrüfatda çalışıb. Sonra bir müddət Ərdəbildə fəhləlik edib, teztez duyğulanıb, doluxsunub və ürək döyüntülərini şeirə çevirib:

*Sən ey baxıb neçə yerə,*
*Nəsə xəbər alan dünya!*
*Heç demirsən bircə kərə,*
*Nə təhərdi balan, dünya!*

1940-cı illərdə Cənubi Azərbaycanda başlanan milli azadlıq hərəkatı Əlinin həyatında yeni bir səhifə açır. "Nə qədər döyüş var, mübarizə var, bayrağım vətəndir, silahım qələm", – deyir. 1945-ci il dekabrın 12-də Cənubi Azərbaycanda milli hökumət qurulur. Xalqını, millətini ürəkdən sevən Əli milli hökumətin maarif nazirliyində işləyir. "Ana dili" kitabının tərtibində və çap olunmasında xüsusi rol oynayır.

Əli Tudənin mühacir həyatının bir parlaq səhifəsi də Təbrizdə yaranan Milli Filarmoniyaya rəhbərlik etməsi olub. Xatirələrində bu barədə yazırdı: "Bu, təkcə Təbrizdə deyil, bütün İranda açılan ilk filarmoniya idi. Salondakılar intizarla səhnəyə baxır, əllərindəki konsert proqramını dönə-dönə oxuyurdular. Ancaq proqramda yazılmamış bir çıxış da vardı. Bu da konsert başlamazdan əvvəl milli hökumətin lideri Seyid Cəfər Pişəvərinin edəcəyi nitq idi. Bunu yalnız filarmoniyanın müdiriyyəti bilirdi"... O unudulmaz gündən və Pişəvərinin xeyir-duasından sonra filarmoniyanın gənc direktoru qısa müddətdə mahal-mahal, kəndbəkənd gəzərək istedadları bu böyük mədəniyyət ocağına cəlb edir. "Şairlər məclisi"ndəki alovlu çıxışlarına, yüksək şeiriyyətinə görə müdriklər ona "Tudə", yəni "Xalq" deyə müraciət edirlər.

***Tudə təxəllüsünü***
***Xalq özü verdi mənə.***
***Mərd, fədai olmağı***
***Məsləhət gördü mənə.***

Doğma Vətən qarşısında xidmətlərinə görə Milli hökumətin "21 Azər" medalı ilə təltif olunduğu zaman Əli Tudənin 22 yaşı vardı. Arzuları böyük idi gənc vətənpərvərin, lakin qanlar bahasına qurulmuş hökuməti İran dövləti beşikdəcə boğur. Əli Tudənin üsyankar ruhlu kitabları mətbəədə yandırılır. Şah onun barəsində xüsusi fərman verir: "Tutuldu-ğu anda məhkəməsiz-filansız qətlə yetirilsin!".

İnqilabçı şair yenidən Şimali Azərbaycana üz tutur. 1946-cı il dekabrın 12-də təmiz vicdanla Bakıya gəlir və budəfəki mühacirliyi ömürlük olur.

O, 60 illik yaradıcılığında şərəfli şair ömrü yaşayıb. Ayrılığın həsrətini köksündə gəzdirib və bütün yaradıcılığı boyu Vətən, Cənub deyərək yaşayıb.

Əli Tudə 1996-cı il fevralın 26-da vəfat edib. Özündən sonra bütöv bir irs qoyub gedib. "Cənub nəğmələri", "Məhbusların son sözü", "Arazın o tayında", "Qəzəb", "Təbriz yolu", "Mühacir qeyrəti", "Mənim səsim", "Yarımçıq dastan" – bir sözlə, 40-dan çox kitabın müəllifi kimi ədəbiyyat tariximizdə yer alıb.

Əli Tudə həm də XX əsr Cənubi Azərbaycan poeziyasının klassiklərindən biri kimi qiymətləndirilir. Xalq şairi Nəriman Həsənzadə yazır: "Ona ömrünün axırına kimi Cənubi Azərbaycana getməyə imkan verməyiblər. O tərəf – İran, bu tərəf – sovet. İki imperiya bir şairdən qorxdu!".

Xalqın mənəvi təkamülündə Vətən həsrəti məğrur və umacaqsız şairin böyük xidmətləri olub. "Şöhrət zirvəsinə qalxmaq istəyən Milləti nərdivan etməsin gərək!" düşüncəli şair Əli Tudə bütöv Azərbaycan yaddaşında azadlıq şairi, xalqının şairi kimi qalıb.

Əli Tudənin anadan olmasının 100 illiyinə həsr edilmiş "Əli Tudə – 100" kitabı işıq üzü görüb. Bu yaxınlarda AYB-nin Natəvan klubunda kitabın təqdimatı ərəfəsində şairin irsinin yorulmaz təbliğatçısı olan Natiq Cavadzadənin necə həyəcan keçirdiyini yaxşı xatırlayıram. Səbəbini soruşduğumda dedi ki, qorxuram, tədbirə az adam gələ və atamın ruhu məndən inciyə. Natiqə ürəkdirək verdim və mən də bir çox dostumuzun həmin mərasimə gəlməsinə yardımçı oldum.

Natiq Cavadzadənin yurd və ata sevgisi ilə ərsəyə gətirdiyi 608 səhifəlik kitabın təqdimatında AYB-nin sədri, Xalq yazıçısı Anar Əli Tudənin vətənpərvər bir insan və məfkurə şairi kimi məziyyətlərindən bəhs etdi. O, tezliklə "Əli Tudə poeziya mükafatı"nın təsis ediləcəyini bildirdi. Yazıçı Elçin Hüseynbəyli, şair Sayman Aruz, Xalq şairi Balaş Azəroğlunun oğlu Etibar Abizadə, Güney mühaciri Adilə Çernik Bülənd, professor Elman Quliyev və başqaları Əli Tudə ilə bağlı xatirələrini dilə gətirdilər, onun poeziyasının əsas məziyyətlərini dəyərləndirdilər. Qeyd edildi ki, şairin 100 illiyi münasibətilə bundan əvvəl "Mən nə gətirdim" və "Bakının işıqları" kitabları Təbrizdəki "Azərturan" nəşriyyatında əski əlifba ilə çap olunub. Həmin nəşrləri gənc yazar və tərcüməçi Əli Aslani tərtib edib. O, 100 illik münasibətilə şairin "Təbriz yolu", "Araz üstə palıd" kitablarını və xatirələrini də çapa hazırlayır.

Sonda gördüm ki, Natiqin üzü gülür. Çünki tədbirə toplaşanların sayı çox idi və hər kəs iştirakdan məmnun qalmışdı.

**Əli NƏCƏFXANLI**
**XQ**

## Mən nə gətirdim

*Mən öz qardaşıma mehman gələndə*
*Bir qələm, bir dəftər, bir can gətirdim*
*Dağların döşünü toplar dələndə*
*Bir ləkə düşməyən vicdan gətirdim.*

*Mən onu günəşdən təmiz saxladım,*
*Canımdan, gözümdən əziz saxladım,*
*Bu kiçik qəlbimdə dəniz saxladım*
*Bir xilqət görmədi, pünhan gətirdim.*

*Ucuz tutmasınlar bu sovqatımı*
*Hissimi, duyğumu, ehsasatımı,*
*Mən öz varlığımı, öz həyatımı*
*Doğma qardaşıma qurban gətirdim.*

*Ürək daş deyildir, bir parça ətdir*
*Bəs onu yaşadan hansı qüdrətdir?*
*Bir arzu, bir ümid, bir məhəbbətdir,*
*Mən o məhəbbətdən nişan gətirdim.*

*Qardaşım, illərlə istədin ki sən*
*Öz ana yurdumda azad olum mən…*
*Lakin cəlalımı dağıtdı düşmən,*
*Tək sənə, tək sənə güman gətirdim.*

*Yenə Azərbaycan qan ağlayır, qan*
*O azad olmasa, yaşamam, inan!*
*Gərək mən Təbrizə qayıdan zaman*
*Deyəm ki, təzə bir dövran gətirdim.*

**Əli TUDƏ**

**Qeyri-adi və heyrətamiz hadisələrin təqdimatından yaranan "Ginnesin Rekordlar Kitabı"na insanların marağı azalmır. İlk dəfə 1955-ci ildə İrlandiyanın "Ginness" pivə zavodunun sifarişi ilə çap olunan bu nəşr hazırda dünyanın 100-dən çox ölkəsində, 24 dildə çıxır və kitab ticarətində ən uğurlu nəşr sayılır: ötən il 100 milyon tirajla satılıb.**

# Azərbaycan "Ginnesin rekordlar kitabı"nda




Azərbaycanla bağlı rekordlar da "Ginnesin Rekordlar Kitabı"na yer alır. Türkiyənin Egey Universitetinin professoru, riyaziyyatçı alim Ürfət Nuriyev bildirir ki, **Cəbrayıl rayonunda anadan olmuş, hazırda Belçikada yaşayan və həyatının 25 ilini qrafika sənətinə həsr etmiş Fəxrəddin Vəliyev rekordlar kitabına düşmüş ilk azərbaycanlıdır.** O, 2004-cü ildə 5 dəqiqəyə 20 nəfərin siluetini çəkməklə bu şərəfə nail olub. 1992–1995-ci illərdə Afinada və İstanbulda Ürfət Nuriyevin fərdi sərgiləri təşkil edilib. 2003-cü ilin dekabrında o, məşhur "Belçium" muzeyində Belçika kraliçasının rəsmini çəkib. Kraliça həmyerlimizə məktub vasitəsilə təşəkkürünü bildirib. Fəxrəddin Vəliyev Azərbaycanın Belçikada tanınması üçün də xeyli işlər görüb və o, hazırda bu ölkədəki Avropa–Azərbaycan diaspor mərkəzinin vitse-prezidentidir.

**Lənkəran rayonunun Aşağı Nüvədi kəndinin 7 yaşlı sakini Ələsgər Həsənzadə rekordlar kitabına düşən ən azyaşlıdır.** O, 1 saat 45 dəqiqə ərzində barmaqlarının ucu ilə sinəsini yerə vurmamaq şərtilə 3 min dəfə qalxıb enib.

**1990-cı ildə Bakı şəhərində doğulmuş Stanislav Şpanin milliyətcə rus olsa da, Azərbaycan vətəndaşı olaraq** 2002-ci ildə ilk gənc peşəkar rəssam kimi rekordlar kitabına adını yazdırıb. O, 2005-ci ildə ABŞ-a köçüb.

**Müstəqil Azərbaycana qızıl medal qazandıran ilk şahmatçı kimi tarixə düşən Qədir Hüseynov 1986-cı ildə anadan olub.** Azərbaycanlı qrossmeyster 1994-cü ildə – 8 yaşında Rumıniyada keçirilmiş Avropa çempionatında 1-ci yeri tutub və qazandığı bu nailiyyətə görə o da "Ginnesçi" olub.

**Bu kitaba planetimizin ən güclü pəhləvanı kimi düşən Hüseyn Rzazadə 1978-ci ildə Ərdəbildə doğulub.** O, ağırlıqqaldırma üzrə ikiqat olimpiya və dördqat dünya çempionu olub.

Bədənindəki xüsusi maqnit cazibəsinə görə adı 2013-cü ildə rekordçular kitabına yazılan Etibar Elçiyev beşqat rekordçudur. Gürcüstanın Borçalı mahalında yaşayan "Maqnit adam" İtaliya, Almaniya və Pekində dünya rekordu qazanaraq sertifikat və medallarla təltif olunub.

Daha 2 həmyerlimizin də adı "Ginnesin Rekordlar Kitabı"nda yer alır. Hazırda Dubayda tanınmış şirkətlərdən birində çalışan Vüqar Adıgözəlov 145 ölkə vətəndaşını bir təyyarədə toplayaraq tarixi uçuşa imza atıb. ABŞ-ın Las-Veqas şəhərində yaşayan azərbaycanlı sirk ustası Üzeyir Novruzov isə 2015-ci ildə qatıldığı yarışmada 6 metrlik nərdivana qalxması ilə məşhurluq qazanıb.

Rekordun yenilənməsinin təsdiqlənməsi mərasimi Çinin paytaxtı Pekində keçirilib.

Bunlardan başqa, əfsanəvi Neft Daşlarının adı "Ginnesin Rekordlar Kitabı"nda 1-ci dəniz neft platforması kimi qeyd olunub. İçərişəhərdə fəaliyyət göstərən "Miniatür Kitab Muzeyi", həmçinin 168 il yaşamış azərbaycanlı – Lerik sakini Şirəli Müslümov uzunömürlülüyünə görə, vaxtilə Bakı şəhərinin "Bayraq meydanı"nda ucaldılan dirək dünyanın ən uca bayraq dirəyi kimi bu kitaba adı düşənlərdəndir.

Bakı metrosu ilk dəfə 1967-ci ildə "Ginnesin Rekordlar Kitabı"na Şərqdə ilk metro kimi düşüb. Ağrı hissi ilə deməliyik ki, rekordlar kitabına ən dəhşətli metro qəzası kimi düşən faciə də Azərbaycanla bağlıdır. 28 oktyabr 1995-ci ildə "Ulduz" və "Nərimanov" metrostansiyaları arasındakı tuneldə qatarın alışması ilə 300 nəfərin həlak olması və 400 nəfərin xəsarət alması kitabda əks olunur.

Xatırladaq ki, "Ginnesin Rekordlar Kitabı" bir il əvvəl hazırlanır və növbəti il başlanan kimi, təqdimatı keçirilir.

***Hazırladı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

Yaddaşımızın alt qatından

# Qıpçaq qızı "Sarı gəlin"

**Hər birimizin sevə-sevə dinlədiyi xalq mahnısıdır "Sarı gəlin". Kökü "Şeyx Sənan" dastanına gedib çıxır, həmin dastanın isə əsli bizə gəlib çatmayıb. Çünki ermənilərlə gürcülər onu öz xeyirlərinə təfsir edərək yaymağa çalışıb və orijinalı it-bata salıblar.**



Tarixçi professor Fəxrəddin Qırçıoğlunun araşdırmalarına əsasən, Şeyx Sənan Şərqi Anadoluda yaşayan, müsəlman Oğuz Türkü Əbdülqadir Keylaninin tələbəsi olub. Həmin dövrdə Oğuz türklər Şərqi Anadoluda Qıpçaq Türkləri isə Cənubi Qafqazda kök salmışdılar. Amma bu iki eyni soydan gələn tayfaların dinləri fərqli olduğu üçün hər zaman savaşda olub, bir-birlərinə düşmən kimi baxıblar. Qıpçaq türklərini müsəlmanlığa və barışa dəvət etmək üçün Şeyx Keylani öz tələbəsi Sənanı qırx müridi ilə Cənubi Qafqaza göndərir. Burada müsəlmanlığı yaymaqla məşğul olan Sənan Qıpçaq Məlikin qızına aşiq olur. Uzun əziyyətlərdən sonra o, Qıpçaq Məlikin qızına İslam dinini qəbul etdirməyi bacarır və onunla evlənmək arzusunda olduğunu bildirir. Bundan xəbər tutan Məlik Şeyx Sənanı öldürmək əmrini verir. Sənan Məlikin qızını da götürüb Şərqi Anadoluya qaçmaq istəsə də, Allahu Əkbər dağının ətəklərində Məlikin silahlı ordusu tərəfindən tutulur və elə 40 müridi ilə birlikdə oradaca edam olunur. Hazırda Şərqi Anadolunun Gürcüstanla sərhəddində 10-cu əsrə aid olan "Qırxlar məzarlığı" və "Sarı gəlin məzarlığı" mövcuddur. Allahu Əkbər dağı isə sonralar Şeyx Sənan dağı adlandırılıb ki, hazırkı Gürcüstan ərazisində qalıb və gürcülər dağın adını dəyişərək David dağı qoyublar.

Ötən əsrin əvvəllərində Osmanlı imperiyasının dağıldığı ərəfədə erməni və gürcü tarixçiləri "Sarı gəlin" mahnısını və hadisələrin baş verdiyi əraziləri özününküləşdirmək fikrinə düşürlər. Bunu görən Üzeyir Hacıbəyli və Hüseyn Cavid onların qarşısını almaq üçün "Sarı gəlin"i səhnələşdirməyi qərara alırlar. Üzeyir bəy "Sarı gəlin"i nəzmə çəkmək üçün dərbəndli şair Mirzə Səməndərə müraciət edərək şairi 3 aylıq Bakıya dəvət edir. Mirzə Səməndər yazdığı şeirləri Üzeyir bəyə təqdim etsə də, operanın səhnəyə çıxmasına 15 gün qalmış ermənı, gürcü və rusların təkidi ilə geri alır. Ələsgər qalan bəstəkar şifahi xalq ədəbiyyatına əl atır və operanı səhnələşdirməyi bacarır. "Sarı gəlin" ilk dəfə 1909-cu ildə opera kimi səhnəyə çıxır.

Tarixə nəzər salsaq görərik ki, Xəzər imperiyasının süqutundan sonra qıpçaqlar Cənubi Qafqazdan Şərqi Anadolu sərhədlərinə kimi yayılmağa başlayıblar. "Dədə Qorqud" dastanında da buna rast gəlmək mümkündür. Şərqi Anadolu sərhədi qıpçaqlarla oğuzların sərhədi olub.

Bəs niyə Sarı gəlin?! Professor Kərəm Məmmədovun araşdırmalarına görə, hələ miladdan öncə 3-cü əsrdə Çinlə sərhəddə Qıpçaq tayfaları məskən salıblar. Çinlilər onları "Kinça" adlandırıblar ki, bu da tərcümədə sarışın deməkdir. Çin mənbələrindən sonra qıpçaqlara xilafət mənbələrində çox rast gəlmək mümkündür. Xilafət tarixçisi Əl-Mərvazi (9-cu əsr) qıpçaqları "Sari", yəni sarı adlandırıb. Tarixçi professor Tahsin Bardakın iddialarına görə, qıpçaqlar digər türk tayfalarından fərqli olaraq qıyıqgöz, qaraşın deyil, hündür boylu, sarışın, mavi gözlü bir tayfa olublar. Məhz buna görə də bir çox tarixi mənbələrdə onlara sarılar deyə müraciət olunub. Sonralar xristian qıpçaqların bir çoxu müsəlmanlaşdırılaraq türkləşib, qalanları isə erməni və gürcülərə qarışaraq əriyib gediblər.

Odur ki, gəlin tarixinizə sahib çıxaq və kimsələrin bizim olanı mənimsəmələrinə imkan verməyək.

***Aqşin XƏYAL,***
***"Ədəbiyyat.az" saytı***

# Hər kitab bir dünyadır




## Tarixi fotolar kataloqu

***XIX əsrdə Azərbaycana səyahət etmiş tanınmış rus fotoqrafı Dmitri Yermakovun çəkdiyi fotoşəkillərdən ibarət kitab-albomu işıq üzü görüb.***

Heydər Əliyev Fondunun dəstəyi ilə ərsəyə gəlmiş "Odlar yurduna səyahət" adlı həmin kitabdakı materiallar 1880-ci illərin sonundan XX əsrin əvvəlinədək olan dövrü əhatə edir. Gürcüstan Milli Muzeyinin Yermakov Fondunda saxlanılan bu nadir fotoşəkillərin əksəriyyəti ilk dəfə dərc olunub.

Azərbaycan və ingilis dillərində tərtib olunmuş kitab-albom elmi redaktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Səbuhi Əhmədovdur. Təqdim olunan 260-dan çox foto tarixçilər, etnoqraflar, bədii və sənədli film çəkənlər üçün əvəzolunmaz materialdır.

Kataloqdakı maraqlı silsilələr etnoqrafik xarakter daşıması ilə diqqət çəkir.

## "Xocalı: Şahidlər danışır" kitabı 8 dildə

***Yazıçı-publisist, tarix üzrə fəlsəfə doktoru İradə Əlilinin "Xocalı: Şahidlər danışır" kitabı Azərbaycan Diaspo-runa Dəstək Fondunun maliyyə dəstəyi ilə 8 dildə (Azərbaycan, türk, ingilis, rus, italyan, ispan, alman və fransız) təkrar nəşr olunub.***




Azərbaycan həqiqətlərinin tanınması baxımından gərəkli vəsait olan kitaba professor Elmira Süleymanova "Ön söz" yazıb. Redaktoru İnsan Hüquqları üzrə Müvəkkil – Ombudsman Aparatının əməkdaşı Azadə Novruzova, tərcüməçilər ADU-nun bir qrup müəllimidir.

Kitabda Yuxarı Qarabağın Xocalı rayonu haqqında qısa ensiklopedik məlumatlar, eləcə də 26 fevral 1992-ci ildə orada baş vermiş faciənin şahidlərinin xatirələri yer alıb.

## Poeziyamızın "Ağsəs"i



***"Azərbaycan Kitab, Maarif və Poliqrafçılar" İctimai Birliyinin "Ədəbiyyatşünaslığa dəstək" layihəsi çərçivəsində nəşr edilmiş növbəti kitab tanınmış şair, "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəsə həsr olunub.***

"Adı soyadını eşidən şair – Qulu Ağsəs" adlı kitabın müəllifi Bakı Slavyan Universitetinin dosenti, filoloq Kəmalə Umudovadır. Onun araşdırmalarında məqsəd şairin yaradıcılıq prinsiplərini, estetik görüşlərini, bədii dillə ifadə etdiyi aksioloji dəyərlər sistemini təhlil etmək, özünəməxsus şeir modelinin böyük ədəbiyyat üçün səciyyəvi olan ideya və məzmun strukturu ilə vəhdətini önə çəkməkdir.

Kitabın redaktoru Sevinc Nuruqızı, dizayneri Firuzə İbrahimova, korrektoru Günel Məmmədovadır. Üz qabığında isə rəssam Ədalət Həsənin "Qulu Ağsəsin portreti" əsərindən istifadə edilib. Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli və filologiya elmləri doktoru, professor Leyla İmaməliyeva vəsaitə rəy yazıblar.

***Ə.ƏLİYEV***
***XQ***

## Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

### QƏRAR
**№ 3-27/3-7-17/2023**

**Bakı şəhəri 14 dekabr 2023-cü il**

**“Poçt-maliyyə xidmətləri” Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Kollegiyasının 2013-cü il 4 fevral tarixli 3 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 3.0.53-cü yarımbəndinə uyğun olaraq, həmin Əsasnamənin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Kollegiyasının 2013-cü il 4 fevral tarixli 3 nömrəli Qərarı ilə təsdiq edilmiş “Poçt-maliyyə xidmətləri” Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.5-ci bənddə və 3.1.10-cu yarımbənddə “Tranzaksiya” sözü “Ödəniş əməliyyatını eyniləşdirməyə imkan verən istinad” sözləri ilə əvəz edilsin;

1.2. 3.1.4-cü yarımbənddən “unikal” sözü çıxarılsın;

1.3. 3.1.11-ci yarımbənddə “Tranzaksiyanın” sözü “Əməliyyatın” sözü ilə əvəz edilsin;

1.4. 4.2-ci bənd ləğv edilsin;

1.5. 5.3-cü bənddə “istənilən vaxt” sözləri “5 il ərzində” sözləri ilə əvəz edilsin.

2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

## “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı bərpa, tikinti və idarəetmə xidməti” Publik Hüquqi Şəxsi

**TƏKRAR**

*“Zəngilan rayonunun Cahangirbəyli kənd yaşayış məntəqəsində qeyri-yaşayış obyektlərinin tikintisi” işlərinin satın alınması üçün*

### AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçür-dükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs – satınalmalar şöbəsinin baş məsləhətçisi – Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Tel: + 994512078998.

Tenderdə iştirak haqqı 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxs

VÖEN – 5200287501

BANK – “KAPİTAL BANK” ASC-nin 28 may filialı

Kod – 200123

VÖEN – 9900003611

M/h – AZ37NABZ01350100000000001944

H/h – AZ31AIIB380300D9447648156112

S.W.İ.F.T. – AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

• Tenderdə iştirak etmək üçün ərizə.

• İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

• Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır).

• Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

• Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri.

• Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

• Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

• Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

• Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir).

• Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.

• Baş podratçı kimi son 3 il (2020-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 15 (on beş) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 7 (yeddi ) milyon manat olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq: layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 3 (üç) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara qəbul və icazə aktları təqdim edilməlidir.

• Son üç il (2020-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində tikinti-quraşdırma işləri üzrə ən azı 15 (on beş) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər sənədlər.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 fevral 2024-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 fevral 2024-cü il saat 16.00-a qədər Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətində 15 fevral 2024-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

Yarışlara hazırlıq

# Naxçıvan və Zirə idmançıları Milli Gimnastika Arenasında

*İdmançılar 1 həftə burada təlim-məşq keçdilər*





**Azərbaycan Gimnastika Federasiyası regionlarda və müxtəlif gimnastika bölmələrində bu idman növünün inkişafı istiqamətində fəaliyyətini davam etdirir. Paytaxtda bədii gimnastika üzrə bölgə təmsilçilərinin və müxtəlif klubların gimnastlarının mərhələli şəkildə məşqləri də bu məqsədə xidmət edir.**

Bu dəfə Milli Gimnastika Arenasının məşq zalı Zirə Mədəniyyət Mərkəzi və Naxçıvan Olimpiya İdman Kompleksi bədii gimnastika bölməsinin üzvlərinin ixtiyarına verilmişdi. 2010–2015-ci il təvəllüdlü gimnastların qatıldığı təlim-məşq toplanışında gənc idmançılar təcrübəli məşqçilərin rəhbərliyi altında gürzlər, top, halqa, lentlərlə müxtəlif gimnastika və rəqs hərəkətləri ediblər.

**Naxçıvanda bədii gimnastika məşqçisi Humay Qafarova yetirmələrinin artıq ikinci dəfə belə toplanışda iştirak etdiklərini bildirdi:**

– Biz 4 yeni idmançı gətirmişdik. Burada məşq keçməyin nə qədər faydalı olduğunu və idmançılara nə verəcəyini bilirdik. Gözəl atmosfer var idi. Məşqlərin mütəmadi olaraq təşkil olunması gimnastların beynəlxalq və yerli yarışlarda uğurlarının artmasına kömək edəcək. Milli federasiyaya dəvət üçün təşəkkür edirik.

**“Zirə”nin bədii gimnastika məşqçisi Nəzirəxanım Fəradova bədii gimnastika bölmələrinin 2015-ci ildən fəaliyyətə başladığını dedi. O bildirdi ki, gimnastlar artıq bir sıra uğurlara da nail olublar:**

– Biz ilk nəticələrə nail olmuşuq, bir neçə qız yığmaya cəlb edilib. Bakı toplanışına 7 gimnastla qatılmışdıq. Məşqlər çox yaxşı getdi. Gimnastlarımız təlimlərdə böyük maraq və həvəslə iştirak edirdilər. Ötən il komandamız ölkə birinciliyində və Naxçıvandakı beynəlxalq turnirdə uğurla çıxış edərək mükafatlar qazanıblar.

**N.Fəradova belə gözəl kompleksdəki məşqlərin qızların xeyrinə olacağını da sözlərinə əlavə etdi:**

– Onlar yeni kompozisiyalar üzərində çalışır, hərəkətləri təkmilləşdirirdilər. Federasiyaya dəvət üçün təşəkkür edirik.

Azərbaycan Gimnastika Federasiyasının təşkil etdiyi bu layihə təkcə Bakıdan mütəxəssislərin rayonlara səfərləri və master-klasların təşkilini deyil, həm də ölkənin müxtəlif bölgələrindən perspektivli idmançıların paytaxta toplanışa dəvət olunmasını nəzərdə tuturdu.

Gimnastikanın inkişafı çərçivəsində bölgə gimnastları mütəmadi olaraq Bakıda keçirilən təlim-məşq toplanışlarında iştirak edirlər. Ötən ilin noyabr ayında Gəncə, Masallı, Lənkəran, Kürdəmir, Şirvan, Abşeron, Ağdaşı təmsil edən bədii gimnastlar Milli Gimnastika Arenasının qonağı olublar. Bu il Qax Olimpiya İdman Kompleksi, Zaqatala Talaçay Kompleksinin gimnastları burada məşq keçiblər.

Fevral ayında isə Şəmkir, Oğuz, Qəbələ, İsmayıllı, Göyçay, Sumqayıt, Qusar, Xaçmaz, Goranboy, Şamaxı, Zabrat, Hövsan, Şağan, Zaqataladan (“OcaqSport” Klubu) olan gimnastlar Milli Gimnastika Arenasında təlim-məşqlərə cəlb olunacaqlar.

***Leyla QURBANOVA***
***XQ***

Beynəlxalq həyat

# Demokratlar da Trampın qələbəsinə inanmağa başlayıblar

*(əvvəli 1-ci səhifədə)*

Məsələn, ekspertlər hesab edirlər ki, Texas və Ağ ev hakimiyyətləri arasında münaqişə ABŞ-da seçki kampaniyasının nəticələrinə həlledici təsir göstərəcək. Xatırladaq ki, Co Baydenin federal hökumətin ölkənin cənub sərhədlərinə nəzarəti gücləndirməyə hazır olduğunu bəyan etməsinə baxmayaraq, Texas ştatının qubernatoru Qreq Ebbot qeyri-leqal miqrasiyanın qarşısını almaq üçün Meksika ilə sərhədi qorumağın ştatın konstitutsion hüququ olduğu fikrindən dönmür. Hətta ölkənin Ali Məhkəməsi federal hakimiyyətə texaslıların sərhədi qorumaq üçün çəkdikləri tikanlı məftildən olan hasarı aradan qaldırmaq hüququ barədə hökm çıxarsa belə, Texas buna imkan yeri qoymur.

Bu və digər hadisələrin gedişatının təhlilini aparan “The American Conservative” qəzeti özünün “Tramp qələbə çalacaq” məqaləsində keçirdiyi rəy sorğusunun nəticələrinə istinad edərək yazır: “Amerikalıların 73 faizi Baydenin hazırki siyasəti ilə razı deyil”. Məqalənin müəllifi Piter van Buren elə ilk cümləsində sual verir: “Axı kim, əsl həqiqətdə “bizdə hər şey qaydasındadır” deyən Co Baydenə və onun liberal KİV-dəki sadiq köpəklərinə inanır? Onlar hansı kiçicik faiz amerikalıların nə vaxt inkişaf etdiyini və nə vaxt geri getdiyini yaxşı hiss edirlər.

Piter van Buren yazır ki, “Trampın dövründə miqrasiya siyasəti sadə və amerikalıların əksəriyyətinin düşüncəsinə uyğun idi: “Bizə bu mühacirlər bəs edər”. Trampın dediyi kimi: "Sərhədsiz ölkə – heç də ölkə deyil. Bizim divarımız olmalıdır. Qanunun aliliyi mühüm əhəmiyyət kəsb edir!" Buna baxmayaraq, Bayden miqrasiyanın azaldılması ideyasını irqçilik adlandırdı və bu da indi miqrantlara qarşı qala-şəhərlər yaratmağa gətirib çıxarıb. Yəni, bəlkə biz, həqiqətən, bu mühacirlərdən doya bilmirik?”

Baydenin miqrasiya siyasətini bəlkə də alqışlamaq lazımdır, çünki bu siyasət onun miqrasiya siyasəti ilə Trampın siyasəti arasındakı kəskin kontrastı açıq-aşkar nümayiş etdirdi. Bu da amerikalıların əksəriyyətində haqlı olaraq belə bir fikir yaratdı ki, miqrantlar onların iş yerlərinə və təhlükəsizliyinə təhdiddirlər. Onlar haqlı olaraq düşünürlər ki, ABŞ ordu hissələri İraq, Suriya və s. bu kimi yerlərdən çıxarılıb geri gətirilməlidir. Onlar deyirlər ki, Hanter və Co Bayden ABŞ-ın siyasi təsir imkanlarını Ukraynaya və Çinə satıblar. Hətta “dərin dövlət”in mövcudluğuna belə şübhə etmirlər. Onlar təhsil istəyirlər, lakin tələbə kreditlərini ödəməyənlər üçün kollecin pulsuz olmasını istəmirlər.



Onlar görürlər ki, sosial təminat insanları işləməməyə sövq edir, işləyənlər üçünsə sosial təminat nəzərdə tutulmur. Onlar silah sahibi olmaq istəyirlər. Trampın əsas elektoral bazası olmalarına baxmayaraq, onlar tək də deyillər. Son bir il ərzində ali təhsilli respublikaçılar arasında Trampın dəstəyi iki dəfə artaraq 60 faizə çatıb.

Bu gün ABŞ-da satılmış liberal KİV-dən kənarda heç kim “demokratiyanın sonu” iddialarına inanmır. Ən sadə əks-arqument budur ki, Tramp demokratik sistemə inanmırsa, o zaman niyə onun qaydalarına əməl edir və ona uyğun kampaniya aparır? Məgər potensial diktator özünü daha diktatorsayağı aparmazdımı?

Van Buren, həmçinin yazır ki, “əgər Tramp diktator olmaq istəsəydi, onun öz avtoritar idarəçiliyini bərqərar etmək üçün 4 ili var idi. Ancaq o, bunu etmədi. Məntiqli və ciddi düşünməyə hazır olan hər kəs bunu başa düşür. Nə olursa-olsun, qanundan istifadə edərək rəqibi həbs etmək və ya seçki bülletenindən çıxarmaq daha qeyri-demokratik görünür. İkiüzlülük ətrafında seçki strategiyası qurmaq iyrənc bir şeydir”.

Van Buren sonda yazır: “Trampın seçiciləri öz Amerikalarını axtarırlar və onlar qorxurlar ki, gələcəkdə onların Amerikası bugünki Braziliyaya oxşaya bilər”. Onların əleyhdarları Seçicilər Kollegiyasını, radio-şouları, seçicilərin məlumatsızlığını və ya Putini günahlandırırlar. Beləliklə, Trampın 2016-cı il və ehtimal ki, 2024-cü il qələbəsi bu qədər izaholunmazdırmı?”

Bütün bunlarla yanaşı, mətbuata sızan məlumatlardan aydın olur ki, Trampın reytinqinin sürətlə qalxması fonunda Co Baydenin öz postunu qoruyub saxlaması reallıqdan çox uzaqdır. “Bloomberg” agentliyinin son günlər yaydığı məlumatda bildirilir ki, artıq Demokratik Partiyanın bəzi üzvləri, hər şeydən əvvəl noyabrda 81 yaşı tamam olacaq Prezident Baydenin səhhətindən çox narahatdırlar. Bu narahatlıq təsadüfi deyil. Dünən Bayden fevralin 3-də növbəti praymerizin keçiriləcəyi Cənubi Karolinaya səfər edib. “Reuters” agentliyi bildirir ki, kilsədə ziyarətdən sonra çıxış edən Bayden tribunadan düşərək qovluğu köməkçisinə verib və bundan sonra bir müddət nə edəcəyini, hara gedəcəyini unudaraq çaşqın vəziyyətdə qalıb. Bundan əlavə, Demokratlar Partiyasının Ağ ev adminstrasiyasının HƏMAS–İsrail münaqişəsinə münasibətdə tutduğu mövqeyə görə seçici səslərini sürətlə itirməsi də elektoratın ciddi narahatlığına səbəb olur.

Agentliyin müxbirinin söhbət etdiyi ABŞ Konqresinin demokrat təmsilçilər Baydeni bu seçkilərin autsayderi adlandırıblar. Hətta bəzi demokrat konqresmenlər hazırda praymerizlərdə iştirak edən eks-prezident Trampın prezident vəzifələrinin öhdəsindən daha uğurla gələ biləcəyini belə gizlətməyiblər.

Müəllif daha sonra yazır: “Qaranlıq Amerikanı bürüyür. İctimai rəy sorğularında iştirak edənlərin, təxminən, 73 faizi Birləşmiş Ştatların yanlış yolla getdiyini deyir. Bu, amerikalılara bu sualın ilk dəfə verildiyi 1989-cu ildən bəri ən yüksək rəqəmdir. Digər sorğuların nəticələrinə görə, vətəndaşların ölkənin inkişaf istiqamətindən məmnunluğunda davamlı azalma tendensiyası müşahidə olunur: 1999-cu ildəki 71 faizlik zirvədən bu gün sadəcə 22 faizə qədər eniş qeydə alınıb. Baydeni bəyənənlərin 39 faizlik göstəricisi, ABŞ-da buna qədər ikinci müddətə namizəd olan hər hansı prezidentin seçkidən bir il əvvəl müşahidə olunan ən aşağı rəqəmdir. İnflyasiya 8,9 faizə çatıb. Gəlirin artımı ilə müqayisədə kirayə və yemək xərcləri də iki-üç dəfə artıb.

Həqiqət lənətlə üzləşir. İntellektual dəstələr Conu dəstəkləmək üçün müxtəlif izahlar fikirləşir və irəli çıxıb deyilər ki, ucqarlarda olan "küt" amerikalılar niyə "Baydenomikanın" bütün şöhrətini və nailiyyətlərini görmür?”

Politoloqlar və iqtisadçı ekspertlər qeyd edirlər ki, “ölkədə inflyasiya səviyyəsi bir qədər azalsa da, ərzaq və nəqliyyat xərcləri hələ də COVID pandemiyasından əvvəlkindən daha yüksəkdir. Conun problemi ondadır ki, bunlar anlaşılan problemlər deyil, real, konkret ev təsərrüfatını əhatə edən fəlakətlərdir. Biz belə bir nəticə ilə üz-üzəyik: iqtisadi vəziyyət bizim zəngin sahillərimizdən ən qısa məsafədə yaşayan amerikalıların belə əksəriyyəti üçün həqiqətən də pis ola bilər...

Məhz bu insanlar ya Trampa səs verəcəklər, ya da seçki günü evdə qalacaqlar. Amma çətin ki, onlar Baydenin iqtisadiyyatdakı "rekordlarına" səs versinlər. İnsanlar yaxşı bilirlər ki, nə vaxt həm övladlarını yedizdirə, həm də eyni vaxtda kirayə haqqını ödəyə biləcəklər, nə vaxt bunlara imkanları olmayacaq”.

Demokrat Qrover Klivlendin belə bir mühitdə qalib gəldiyi 1892-ci il prezident seçkisindən sonra ilk dəfədir ki, Birləşmiş Ştatalarda seçicilər təkrar Ağ evdəki son təcrübələrinə əsaslanan iki namizədin seçimi ilə üzləşirlər. Biri maaşların inflyasiyadan daha sürətlə artdığı, birjanın güclü, ipoteka faizlərinin əlverişli olduğu bir vaxtda prezident idi, digəri isə yox. Amma Trampın ədalətli seçkilərdə qələbəsi təkcə dollardan və sağlam düşüncədən asılı deyil. Trampın Amerikanı tanıması və dərk etməsi ona 2016-cı ildə “qələbəyə doğru getməyə” və 2020-ci ildə, demək olar ki, belə bir qələbəni əldə etməyə kömək etdi.

Politoloqlar deyir ki, Trampın bugünkü şüarları ilk dəfə bəyan etdiyi vaxtda olduğundan daha doğru ola bilər. Sorğular göstərir ki, artıq gənclərin əksəriyyəti heç vaxt valideynlərinin qazandıqları qədər pul qazanacaqlarını gözləmir. Digər tərəfdən, ümidsizlikdən ölüm nisbəti artmaqda davam edir. İnsanlar iqtisadiyyatın nə vaxt inkişaf etdiyini və nə vaxt geri getdiyini yaxşı hiss edirlər.

**Hazırladı:**
**İlqar RÜSTƏMOV**
**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 20 (30424) 31 yanvar 2024-cü il, çərşənbə

# Kəlbəcər və Laçın qalın qar örtüyü altında

## Hərbi hissələrin mühəndis bölmələri yolları təmizləyir





**Kəlbəcər və Laçın rayonlarının çətin relyefli və dağlıq ərazilərində dislokasiya olunan hərbi hissələrin xidməti-döyüş fəaliyyətinin fasiləsiz təşkili məqsədilə həyata keçirilən zəruri tədbirlər davam edir.**

Azərbaycan Ordusunun mühəndis bölmələrinin digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində rabitə və kommunikasiya xətlərinin sərt iqlim şəraitində daim işlək vəziyyətdə saxlanılması ilə bölmələrin hərtərəfli təminatının fasiləsiz həyata keçirilməsi məqsədilə yolların qar örtüyündən təmizlənməsi prosesi növbəli şəkildə sutkaboyu icra olunur.

***XQ***

## Kosmosa robotlar uçacaq

***Amerikalı tibbi texnologiya istehsalçısı Virtual Incision uzaqdan əməliyyatlar üçün nəzərdə tutulmuş MIRA robot cihazını Beynəlxalq Kosmik Stansiyaya (BKS) göndərib.***



Bu barədə ABŞ Milli Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsinin (NASA) rəsmi saytında məlumat verilib. Cihaz "Northrop Grumman" şirkətinin kosmik gəmisi ilə orbitə çıxarılıb. Start yanvarın 30-a həyata keçirilib.

***XQ***

# 8 gün Xruşşovla bir kreyserdə...

## *Azərbaycanlı matrosun 65 il əvvəl başına gələn hekayət*

**Ömrünün ixtiyar çağlarını yaşayan Rasim Abbasov əslən Ağdam rayonunun Kosalar kəndindəndir. O, 1958-ci ildə hərbi xidmətə çağırılıb. 6 ay Kalininqrad şəhərində dənizçilik məktəbində təlim keçəndən sonra onu Hərbi Dəniz Donanmasında xüsusi xidmətə qəbul ediblər.**

Bir müddət donanmada "Uspeşnı" gəmisində xidmət keçən keçmiş matros o illəri xatırlayarkən deyib: "Bir gün gəmidə hərbi həyəcan siqnalı verildi və göyərtədə cərgəyə düzüldük. Ovaxtkı sovet rəhbəri Nikita Sergeyeviç Xruşşov dənizçiləri salamlayaraq "Baltik" gəmisinə keçdi. Admiral bizim olduğumuz gəmidə idi. Gəmilər hərəkətə gəlib La-manş boğazınadək getdi, bir neçə gün hərəkət edib Atlantik okeanının ortalarına qədər onu müşayiət etdik. Sonra sualtı gəmilər gəldi və Xruşov göyərtəyə çıxıb onu müşayiət edən matroslara əl elədi. Gəmi kapitanı göyərtəyə qalxıb səsgücləndirici ilə onun adından bizə təşəkkür etdi və geri qayıtdıq. Oradaca bizə elan etdilər ki, sovet rəhbəri gəminin bütün heyətinə onun adından Fəxri fərman verilməsini tapşırıb. Gəmidə olan bütün hərbçilərə Fəxri fərman verildi".



Keçmiş matros həmin hərbi hissədə xidmət edən yeganə azərbaycanlı olub. O, bir neçə ay sonra hərbi xidmətini Qara Dəniz Hərbi Donanmasındakı "Orconikidze" kreyserində davam etdirib: "Kreyser Sevastopol sahillərində xidmət edirdi. Təxminən, 6 ay sonra həmin kreyserlə bizi Sakit okeana apardılar. Məlum oldu ki, təyyarə ilə Cakartaya gedən sovet lideri Nikita Xruşşovun ada dövlətləri rəhbərləri ilə görüşündə Qara Dəniz Hərbi Donanmasının xüsusi xidmət matrosları öz funksiyalarını yerinə yetirəcəklər.

Nəhayət, dəniz yolu ilə uzun səfərdən sonra sakit okeandakı Yava adasına gəlib çıxdıq. İndoneziyanın paytaxtı Cakartada Nikita Sergeyeviç əvvəlcə prezident Hacı Mühəmməd Suxarto ilə görüşdü və bundan sonra adada olduğu, təxminən, 8 gün ərzində sovet lideri hər gün kreyserdəki kayutda bir neçə ada dövlətinin rəhbərləri ilə görüş keçirdi. Rəsmi görüşlərin keçirildiyi 8 gün ərzində hər gün onu görürdük. O, kreyserdə həmişə admiralla birlikdə olurdu.



Sovet rəhbəri hər gün matrosların düzüldüyü sıranın qarşısından keçirdi. Adətən, o, rəsmi görüş keçirmədiyi günlərdə çox sərbəst, yaxası-başı açıq vəziyyətdə olurdu. Hətta arada göyərtəyə qalxıb mahnı oxuyur, musiqi sədaları altında rəqs edirdi. Bir dəfə sıra baxışının qarşısından keçərkən bir neçə matrosa əl verib görüşdü. Növbə mənə çatanda o, haradan olmağımla maraqlandı. Mən Azərbaycandan olduğumu və hərbi xidmətim müddətində Amerikaya səfəri zamanı onu müşayiət edən gəmidə olduğumu söylədim. Sovet rəhbərinə dedim ki, bu, artıq sizinlə ikinci səfərimdir. O, çox məmnun halda bir daha mənim əlimi sıxdı və minnətdarlıq hissi ilə kürəyimə vurdu".

1958–1961-ci illərdə Sovet Hərbi Dəniz Donanmasında qulluq edən keçmiş matros hərdən əsgərlik illərinin şəkilləri ilə dolu olan albomunu vərəqləyir və xəyalən o illərə qayıdır. Üstündən 65 ilə yaxın vaxt keçsə də, həmin görüş və təəssüratlar onun yaddaşında unudulmaz bir xatirə kimi yaşayır.

***Süleyman QARADAĞLI***

**Yazıçının Kiyev xatirəsi**

# Qəddafinin Ukrayna payızı

**Səhv etmirəmsə, 2008-ci ilin noyabrının əvvəlləri idi. Kiyevin küçələri boyu uzanan qazon və yaşıllıqların üstünə "əl gəzdirən" dümağ qırov artıq qapını kəsdirən qışın ilk əlamətlərindən xəbər verirdi. O vaxt Ukraynada Viktor Yuşşenko prezident, Yuliya Timoşenko isə baş nazir idi.**

Xatırlayıram, həmin günlərin ən mühüm hadisələrindən biri Barak Obamanın Amerika Birləşmiş Ştatlarında prezident seçilməsi idi. Seçkidən bir gün sonra Kiyevdəki qaradərili adamların hamısı – ali məktəb tələbələrindən tutmuş bazarlardakı alverçilərəcən, bütün gecəni fişəng atıb mahnı oxudular, çalıb oynadılar.

Görəsən, nə baş vermişdi belə?.. Ayaq saxlayıb ətrafa göz gəzdirdim. İrəlidə möhtəşəm bir çadır qurulmuşdu. "Görəsən, toydur, yoxsa yas?" – deyə ürəyimdən keçirdim.

Polis nəfərinin arxasında, çadırın ətrafında dolaşan ucaboy, qaraşın, silahlı qızlar diqqətimi çəkdi. Yox, deyəsən, nə toy idi, nə də yas. Möhtəşəm, zəhmli çadır elə uzaqdan adama "get-get" deyirdi.



Həmin günlərin yaddaqalan hadisələrindən biri də Liviya lideri Qəddafinin Kiyevə gəlişi idi. Yadımdadır, Ukraynanın Yazıçılar Birliyinə getməli idim. Səhər tezdən durub qəlyanaltı etdim. Sonra televizorda yerli xəbərlərə qulaq asmağa başladım. Proqramlarda Qəddafinin Kiyevə gəlişi barədə informasiyalar verilirdi. Mən heç yerə tələsmirdim. Görüşəcəyim yazıçı ilə də xüsusi bir işim yox idi. Bir də ki, bu yazı-pozu tayfasının əksəriyyətinin tənbəl olduğuna, günortayacan yatmağına olan inamıma görə özüm üçün oteldən bir az gec çıxmağı qərarlaşdırmışdım.

Nəhayət, günorta oldu. Gödəkcəmi geyinib küçəyə çıxdım. Avtobusa minib şəhərin mərkəzinə yola düşdüm. Yazıçılar Birliyi orada yerləşirdi.

Avtobusdan düşüb, yolu keçdim. Geniş prospektlə üzüyuxarı getməyə başladım. Nəhəng inzibati binanın yanından keçərkən polisin mənə gəldiyim yolu, daha doğrusu, istiqamətimi dəyişmək barədə işarə etdiyini gördüm.

Az sonra yolüstü köşkdən aldığım yerli qəzetlərdə öz-özümə verdiyim suala cavab tapa bildim: sən demə, gördüyüm o nəhəng çadır Liviyadan təşrif buyuran ali qonaq üçün qurulubmuş. Axşam televizorda göstərilən geniş reportajda isə Liviya lideri Müəmmər Qəddafi və onun çadırı barədə ətraflı məlumat verdilər. O da məlum oldu ki, diktatoru 40 bakirə qız qoruyur. Qəddafinin düşüncəsinə görə, bu cür qızlarda hissetmə, duyma qabiliyyəti yüksək olur.

Televiziya reportajında Baş nazir Timoşenkonun ağ paltarda bədəvi çadırına, məşhur qonağın görüşünə gəlişi barədə kadrlar da nümayiş etdirildi.

Həmin ilin soyuq Kiyev payızı yadımda, bax, bu cür qalıb...

***Firuz MUSTAFA,***
***yazıçı-dramaturq***

**Sağlamlıq**

# 5 vitaminli qida – yesək görmərik qada

**Orqanizmdə vitamin-mineral "bomba effekti" yaradan qidalardan biri də mal qaraciyəridir. Rusiyalı terapevt İrina Baranova buna uyğun 5 ərzağın adını sadalayıb.**



"Bu ərzaqlardan həftədə 1–2 dəfə yemək eyni vaxtda bir neçə vitamin-mineral almağa səbəb olur. Həmin ərzaqların tərkibində yüksək konsentrasiyada antioksidant, mineral və yağ turşuları var. Əgər həkim tərəfindən ciddi göstəriş yoxdursa, bu vitamin "bomba"ları hər rasionda ola bilər.

**Ən yaxşı beşlik: Losos balığı, brokkoli, avokado, pomidor, qaraciyərdir.** Bunlar D, C, B12, B9 vitaminləri, kalium, fosfor, maqnezium, selenlə zəngindir".

Həkim, həmçinin bildirib ki, həmin ərzaqlar güclü antioksidant olub orqanizmi xərçəngdən qoruyur, immuniteti gücləndirir, qanın həcmini və hemoqlobini artırır, hormonal balansı tənzimləyir. O, həftədə 1 dəfə, hər qəbulda 100 qram bu ərzaqlardan yeməyi tövsiyə edir.

***Z.HÜSEYNLİ***
***XQ***

# Mask beynimizlə oynayır?

***Amerikalı sahibkar İlon Maskın neyrotexnologiya şirkəti "Neuralink" ilk dəfə insan beyninə çip yerləşdirib. Bu barədə biznesmen özü sosial şəbəkədə bildirib.***



"Dünən ilk şəxsə "Neuralink" çipi qoyuldu, əməliyyatdan sonra sağalma yaxşı gedir", – deyə İ.Mask deyib. Sahibkar əlavə edib ki, "Neuralink"in ilk məhsulu "Telepatiya" adlanır. O, insanı düşüncə gücü ilə telefonu və kompüteri idarə etməyə imkan verəcək.

Xatırladaq ki, "Neuralink" standartı 2016-cı ildə İ.Mask tərəfindən yaradılıb. Məqsəd insan beyninə implantasiya ediləcək çiplər hazırlamaqdır.

Biznesmen hesab edir ki, bu cür neyron interfeyslər insanlara düşüncə gücündən istifadə edərək kompüteri birbaşa idarə etməyi öyrənməyə yardımçı olacaq.

***N.AYTƏN***
***XQ***

**Hava**

# İlk ayın son günü yağmursuz və dumanlı olacaq



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 31-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.***

Şimal-qərb küləyi əsəcək. Gecə 0-3°, gündüz 4-7° isti olacaq. Atmosfer təzyiqi 776 mm civə sütunundan 772 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Lakin gecə bəzi şərq rayonlarında qısamüddətli yağıntılı olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-9° isti, dağlarda gecə 10-15°, gündüz 0-5° şaxta olacaq. Gecə bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

***Q. QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3364
SİFARİŞ 153
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00